RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 29 (10049) 14 fevral 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir

## Prezident İlham Əliyev Almaniyaya səfərə gedib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün birinci xanım Mehriban Əliyeva ilə birlikdə fevralın 13-də Almaniya Federativ Respublikasına səfərə gedib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani, Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak, dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-ın "Oracle" korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına, eləcə də "France 24" telekanalına müsahibə verib.

2-3



# İki ilin uğur salnaməsi və yeni strateji hədəflər

## Azərbaycan regional liderlikdən qlobal təhlükəsizlik və enerji arxitekturasının aparıcı aktoru statusuna yüksəlib

Ötən iki il regionun geosiyasi mənzərəsini kökündən dəyişən mühüm hadisələrlə zəngin olmaqla yanaşı, strateji hədəflərin müəyyənləşdiyi səmərəli bir dövr kimi də əlamətdardır. Xatirimizdədir ki, cənab Prezident andiçmə mərasimində çıxışı zamanı bir neçə prioritet müəyyənləşdirdi. Onlardan biri milli həmrəylik ideologiyası idi. Qarabağ zəfərinə qədər milli ideologiyamızın əsasını torpaqlarımızın işğaldan azad edilməsi təşkil edirdi. Qələbədən sonra "güclü Azərbaycan, güclü türk dünyası" konsepsiyası ön plana çıxdı. Dövlətimizin başçısının "Bizim ailəmiz türk dünyasıdır" bəyanatı yeni ideologiyanın gündəmə gətirilməsi idi. Məhz ötən dövr ərzində Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq əlifba, ortaq tarix dərslikləri və mədəniyyət paytaxtları layihələri ilə xalqlararası əlaqələr rəsmiləşdirildi, türk xalqları arasında inteqrasiya dərinləşdi. Həmçinin daxili siyasətdə milli həmrəylik modelini möhkəmləndirmək üçün hakimiyyət və müxalifət arasında sağlam dialoq mühiti yaradıldı. Siyasi qüvvələrin Qarabağın bərpası məsələsində vahid mövqedən çıxış etməsi milli birliyi sarsılmaz etdi.

Prezidentin çıxışında vacib məqamlardan biri hərbi güc və müdafiə sənayesi sahəsi idi. Dövlət başçısı bəyan etdi ki, müharibənin bitməsinə baxmayaraq, ordu quruculuğu prosesi dayanmayacaq, əksinə, yeni təhdidlərə uyğun olaraq daha da sürətlənəcək. Keçən iki il ərzində bu istiqamətdə mühüm addımlar atıldı. Azərbaycan Ordusu 44 günlük müharibədən sonra tamamilə yeni struktur islahatına keçid etdi. Komando hərbi hissələrinin sayı və dislokasiyası artırıldı. Bir neçə ölkədən yeni hərbi texnikalar alındı.

5

# Xalq-Prezident birliyi möhtəşəm uğurlara yol açıb

2024-cü ilin Zəfər seçkisi sadəcə siyasi bir hadisə deyildi. Bu, dövlətimizin başçısının xalqın qarşısında gördüyü işlərin hesabatı, xalqın isə ona olan sevgisinin, etimadının və dəstəyinin açıq ifadəsi idi. Bu illər Azərbaycan xalqının iradəsi ilə Prezidentin liderliyinin və qətiyyətinin birləşdiyi, dövlətçilik maraqlarının hər zaman ön planda saxlandığı bir dövr kimi tarixə düşdü. Cənab İlham Əliyev sözlə deyil, əməli fəaliyyəti ilə təsdiq etmişdir ki, Azərbaycan xalqının, dövlətinin maraqları onun üçün hər zaman hər şeydən üstündür. Onun qətiyyətli, uzaqgörən və prinsipial rəhbərliyi Azərbaycanı bu gün müstəqil, güclü və etibarlı dövlət kimi dünya xəritəsində möhkəmləndirmişdir.



Növbəti andiçmə mərasiminə sadəcə hakimiyyətin davamlılığı kimi yanaşmaq hadisənin mahiyyətini kiçiltmək olardı. Əslində, burada söhbət bir dövrün yekunlaşmasından və başqa bir tarixi mərhələnin başlanmasından gedir. 2003-cü ildən bu günə qədər formalaşan siyasi kurs, iqtisadi inkişaf modeli, hərbi quruculuq strategiyası və milli birlik konsepsiyası artıq öz real nəticəsini verərək Azərbaycanı regionun güc mərkəzinə çevirmişdir. Bu baxımdan, andiçmə mərasimi həm siyasi sabitliyin təsdiqi, həm də gələcəyin proqram sənədinin müəyyənləşdirilməsi idi. Səslənən fikirlər keçilmiş yolun xronikası olmaqla yanaşı, qarşıdakı illərin strateji xəritəsini də müəyyən edirdi.

Fevralın 14-ü həm də bir xatırlatmadır: Azərbaycan xalqı və onun Ali Baş Komandanı birlikdə güclü, əzmkar və məqsədyönlüdür. Bu gün biz yalnız tarixə nəzər yetirmirik, gələcəyə, müstəqil, ləyaqətli, etibarlı və parlaq Azərbaycanın perspektivinə baxırıq.

Cənab İlham Əliyevin təkrar prezident seçilməsi yalnız seçkinin nəticəsi deyil, bu, xalqın dövlət başçısına verdiyi siyasi etimadın, görülən işlərin dəyərləndirilməsinin və gələcəyə olan inamın ifadəsi idi. Bu etimadın əsasını son illər həyata keçirilən böyük layihələr, bərpaolunan ərazilər, güclənən ordu və müstəqil xarici siyasət xətti təşkil edir.

8

# "Vitse-prezidentin səfəri ABŞ-ın regionu dünyanın vacib bir hissəsi kimi gördüyünü göstərir"

**"ABŞ-ın Vitse-prezidentinin Azərbaycana səfəri Azərbaycanla ABŞ arasındakı münasibətlərdə böyük bir hadisədir, böyük bir addımdır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Robert Sekuta deyib. O, bildirib ki, bu, ABŞ-ın Azərbaycanla, regionla əlaqə qurmaqda ciddi olduğunu və bunu dünyanın vacib bir hissəsi kimi gördüyünü göstərir. Keçmiş səfir qeyd edib ki, iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası əsasən bir çərçivədir. "O, iqtisadiyyat, texnologiya, enerji, təhlükəsizlik sahələrində əməkdaşlığı müəyyən edir. Bunlar bir növ əsas sahələrdir. Həmçinin strateji tərəfdaşlığa aid olmayan vacib bir prinsipi müəyyən edir və bu, özəl sektorun oynamalı olduğu roldur. Bu, administrasiya üçün yeni bir addımdır və bir inkişafdır", - deyə R.Sekura bildirib.

O, Vitse-prezident Cey. Di. Vensin Azərbaycan qoşunlarının Əfqanıstanda son dəqiqəyə qədər ABŞ qoşunları ilə birlikdə olduğunu qeyd etməsindən danışıb. "Bilirəm ki, bu, azərbaycanlıların xatırladığı bir məsələdir, amma düşünürəm ki, ABŞ-ın Azərbaycana təşəkkür etməsini və atdığı addımlara, göstərdiyi cəsarətə, qoşunlarının həqiqətən çətin vəziyyətdə göstərdiyi şücaətə görə Azərbaycanı vurğulamasını eşitmək xoşdur. Düşünürəm ki, münasibətlərin qurulmasında necə irəliləyəcəyimizə dair bir növ razılaşmamız var. Düşünürəm ki, Vitse-prezident birlikdə nə etdiyimizi və bu münasibətləri nələrin üzərində qura biləcəyimizi vurğulaması yaxşı iş ortaya qoyduğunu sübut edir", - deyə keçmiş səfir əlavə edib.

# İnformasiya təhlükəsizliyi hər zaman prioritetdir

Fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev kibertəhlükəsizlik məsələlərinə xüsusilə toxunaraq bildirib: "Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır". Dövlətimizin başçısının fikirlərinə əsaslanaraq deyə bilərik ki, kibertəhlükəsizlik dövlət təhlükəsizliyinin əsas sütunlarından biridir.

9

# Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir

## Prezident İlham Əliyev Münxendə İraq Kürdüstan Regionunun başçısı ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Neçirvan Bərzaninin Azərbaycana səfərləri, həmçinin dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanaraq, bütün bunların əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirildi.

Azərbaycan Prezidenti və İraq Kürdüstan Regionunun başçısı iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi apardılar, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.

Dövlətimizin başçısı Neçirvan Bərzanini ölkəmizə səfərə dəvət etdi. İraq Kürdüstan Regionunun başçısı dəvəti məmnunluqla qəbul etdi.

## Prezident İlham Əliyevin Münxendə Slovakiya Baş nazirinin müavini ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan Prezidentinin ötən ilin dekabrında Slovakiyaya rəsmi səfəri məmnunluqla xatırlanaraq, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi vurğulandı. Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərin qarşılıqlı anlaşma və dəstəyə əsaslandığı vurğulandı, müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların olduğu bildirildi, bu xüsusda hərbi-texniki sahədə tərəfdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu tərəfdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Münxendə "Oracle" korporasiyasının baş icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-nin "Oracle" korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə texnoloji transformasiya və süni intellekt sahələrinin inkişafı üzrə həyata keçirilən siyasətə toxunuldu, bu xüsusda "Oracle" korporasiyası ilə əməkdaşlığın genişləndirilməsində qarşılıqlı marağın olduğu bildirildi və tərəfdaşlığın perspektivləri ilə bağlı artıq çərçivə razılaşmasının əldə edildiyi vurğulandı.

"Oracle" şirkətinin Azərbaycanda dövlət və özəl müəssisələrə bir sıra xidmətlərin göstərilməsi ilə bağlı uzunmüddətli əməkdaşlıq məsələləri müzakirə olundu. Azərbaycanın müxtəlif aparıcı ali təhsil müəssisələrində üç "Oracle" akademiyasının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə eyni zamanda Azərbaycan-ABŞ siyasi əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edildi, bu xüsusda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Həmin sənəddə də ölkələrimiz arasında süni intellekt sahəsinin prioritet istiqamət kimi əks olunduğu vurğulandı.

## Prezident İlham Əliyev Münxendə Azərbaycan telekanallarına müsahibə verib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***REAL Televiziyası:*** *Cənab Prezident, bizə vaxt ayırdığınız üçün təşəkkür edirik. Budəfəki Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın mesajı nə olacaq?*

**Prezident İlham Əliyev:** Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt - yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır.

***İctimai Televiziya:*** *Cənab Prezident, bu il Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması gözlənilirmi?*

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, bu, bizdən asılı deyil. Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, mən hesab edirəm ki, artıq Ermənistanla Azərbaycan arasında sülh əldə edilib. Vaşinqton Zirvə Görüşündəki razılaşmalar, imzalanmış Birgə Bəyannamə və sülh müqaviləsinin paraflanması de-fakto sülh deməkdir. Bunun formal tərəfi Ermənistandan asılıdır. Konstitusiyaya nə qədər tez dəyişiklik edilərsə və Azərbaycana qarşı olan ərazi iddiası oradan çıxarılarsa, sülh müqaviləsi o qədər də tez imzalanacaq.

***AnewZ Televiziyası:*** *Cənab Prezident, bu gün danışdığımız hər kəs köhnə dünya nizamının dağıldığını və yeni dünyanın peyda olacağını deyir, lakin o, hələ də peyda olmayıb. Sadəcə, bir neçə həftə bundan öncə Davosda Siz "Sülh Şurasının Nizamnaməsi"ni imzaladınız. Azərbaycan qurumun təsisçi üzvüdür. Bir neçə gündən sonra isə Vaşinqtonda daha bir görüş olacaq. Yeni dünya nizamının potensial elementi olaraq bu təşkilat haqqında nə düşünürsünüz?*

**Prezident İlham Əliyev:** Bilirsiniz, əgər xatırlayırsınızsa, mən bu haqda danışmışam, ola bilsin, təfərrüatı ilə yox, amma, ümumiyyətlə, demişəm ki, beynəlxalq hüquq artıq etibarlı deyil. Ölkələr, bir çox ölkələr ona, sadəcə, məhəl qoymurdu. Yalnız beynəlxalq hüquqa arxalanmaq probleminizi həll etməyəcək. Azərbaycanın nümunəsi isə bunu həqiqətən nümayiş etdirir. Beləliklə, yeni dünya nizamının və ya hökumətlərarası münasibətlər üzrə yeni sistemin peyda olması, əlbəttə ki, işlənilmə mərhələsində idi. Məsələ onda idi ki, ilk addımı atmaq üçün kim üzərinə məsuliyyət götürəcək. Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş gördü.

Əlbəttə ki, hər şey gündəlikdən asılı olacaq. Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı "kim güclüdür, o da haqlıdır" anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir.

***CBC Televiziyası:*** *Cənab Prezident, Münxen Təhlükəsizlik Konfransının proqramına əsasən, sabah nəqliyyat dəhlizlərinə həsr olunmuş panel sessiyasında Sizin iştirakınız gözlənilir. Azərbaycan Avropa ilə Asiya arasında nəqliyyat dəhlizlərinin formalaşdırılmasında öz rolunu necə görür?*

**Prezident İlham Əliyev:** Biz artıq uzun müddətdir ki, dəhlizlərin yaradılmasının təşəbbüskarıyıq - enerji dəhlizlərindən başlayaraq, nəqliyyat dəhlizləri ilə davam edərək, hazırda isə artıq elektrik və fiber-optik dəhlizləri də əhatə etməklə. Buna görə də ölkəmizin potensialı möhkəmləndikcə, beynəlxalq əlaqələr inkişaf etdikcə, biz bir növ mövcud bağlantı konsepsiyasına yeni elementlər əlavə edirik.

Əgər neft və qaz kəmərlərini artıq reallaşmış fakt hesab etmək olarsa, baxmayaraq ki, qaz nəqli infrastrukturumuzun genişləndirilməsinə ehtiyac var, əgər dəmir yolu əlaqələri ilə bağlı məsələlərin qismən həll olunduğunu nəzərə alsaq və Azərbaycanın nə tranzit daşımaların təmin edilməsində, nə də öz məhsullarının ixracında xüsusi çətinliklərlə üzləşmədiyini qeyd etsək, - hərçənd, Zəngəzur dəhlizi buna əlavə töhfə olacaq, - o zaman elektrik kabelləri, fiber-optik kabellər, məlumat mərkəzlərinin və süni intellektin fəaliyyəti nəticəsində informasiyanın ötürülməsi və tranziti ilə bağlı məsələlər hazırda konkret olaraq məşğul olduğumuz sahələrdir.

Bizim çox üstünlüklərimiz var: coğrafiya, həm Qərbdə, həm də Şərqdə qonşularla sıx əlaqələr, elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadrlar və bir çox digər üstünlüklər. Buna görə də bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir. Azərbaycanın öz təhlükəsizliyini və suverenliyini öz gücü ilə təmin etməsi nəzərə alınmaqla, təbii ki, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Buna görə də biz dəhlizlər haqqında danışarkən, əlbəttə ki, bu məsələyə daha geniş baxmalıyıq: yalnız dəmir yolu və yalnız avtomobil yolu deyil, həm də bağlantını təmin edən və müasir dünyanın tələblərinə cavab verən bütün istiqamətlər nəzərdə tutulmalıdır. Sağ olun.

# Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir

## Prezident İlham Əliyev Münxendə "France 24" telekanalına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə "France 24" telekanalına müsahibə verib.** AZƏRTAC **müsahibəni təqdim edir.**



***Müxbir:*** *Salam, "France 24" kanalının flaqmanı olan "Üzbəüz" verilişinə xoş gəlmisiniz. Bu gün bizim qonağımız Azərbaycan Prezidenti İlham Əliyevdir. Çox sağ olun, cənab Prezident.*

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

***Müxbir:*** *Avqustun 8-də Sizin, Ermənistanın Baş naziri Nikol Paşinyanın və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə üçtərəfli görüş keçirildi. Azərbaycan ilə Ermənistan arasında münaqişəyə son qoymaq, nəqliyyat marşrutlarının açılması və münasibətlərin normallaşdırılması haqqında bəyannamə imzalandı. Tam sülhün və tam normallaşmanın tezliklə olacağını düşünürsünüzmü?*

**Prezident İlham Əliyev:** Bəli, elə düşünürəm. Çünki bu tarixi sənədin Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə imzalanması o deməkdir ki, münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq. Yeri gəlmişkən, ABŞ Prezidenti Birgə Bəyannaməni də şahid qismində imzalamışdır. O vaxtdan bəri altı aydan çox müddət keçib və bizim Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq atəş açılmır, qurban vermirik, yaralananlar olmur. Azərbaycan birtərəfli qaydada Ermənistana malların tranziti üzərində olan məhdudiyyətləri aradan qaldırdı. Biz həmçinin Ermənistana vacib neft məhsullarını təchiz etməyə başladıq və bununla da bizim ticari münasibətlərimiz başladı. Beləliklə, görə bilərik ki, artıq sülhə nail olunub. Yekun sülh sazişini imzalamaq üçün müəyyən formal xarakter daşıyan məsələlər var. Lakin qeyd etdiyiniz bəyannamə ilə yanaşı, hər iki ölkənin xarici işlər naziri Vaşinqtonda sülh sazişinin mətnini də parafladılar. Beləliklə, mənim üçün bu, artıq bitmiş işdir. Hesab edirəm ki, Ermənistanın Baş naziri də mənimlə eyni fikirdədir. Biz elə indi sülh şəraitində yaşamağı öyrənirik və bu, çox yaxşı bir hissdir.

***Müxbir:*** *Bu, çox yaxşı bir hissdir. Lakin tam normallaşma üçün nə çatışmır? Belə başa düşürəm ki, Azərbaycan üçün məsələ Ermənistanın Konstitusiyası və orada Qarabağa aid ərazi iddiaları ilə bağlı mətnlə əlaqədardır. Bu, Sizin üçün mütləq qırmızı xətt deməkdir? Bu dəyişməsə, normallaşma olmayacaq?*

**Prezident İlham Əliyev:** Bəli, siz haqlısınız. Bu olmasa, sülh sazişi imzalanmayacaq. Mən normallaşmanı rəsmi sülh sazişindən ayırardım, çünki normallaşma artıq baş verir. Qeyd etdiyim kimi, müsbət məcrada inkişaf edən bütün hadisələr bunu göstərir. Lakin Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da "qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir" məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq.

***Müxbir:*** *Bu il?*

**Prezident İlham Əliyev:** Sözsüz ki.

***Müxbir:*** *Vitse-prezident Cey. Di. Vens hər iki ölkəyə səfər edib. Strateji tərəfdaşlıq münasibətləri elan edilib və bu tərəfdaşlıq çərçivəsində ABŞ indi Azərbaycana bütün növ silahları satacaq. Həmçinin TRIPP layihəsi, yaxud Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu var. Bu, Ermənistandan keçən və eksklavınız olan Naxçıvana gedən magistral yol və dəmir yoludur. Bu, sadəcə boş ümidlərdir, yoxsa həqiqətən baş verəcək və dinamikanı dəyişəcək?*

**Prezident İlham Əliyev:** Məndə bunun baş verəcəyinə dair heç bir şübhə yoxdur. Bunun səbəblərindən biri də odur ki, Amerika Birləşmiş Ştatları bu prosesdə çox vacib rol oynayır. Azərbaycanın iki ərazisini Ermənistan ərazisindən birləşdirəcək və hətta Avropa qitəsinə qədər uzanacaq marşrut Prezident Trampın adını daşıyır. Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutudur. Düşünürəm ki, ABŞ Prezidentinin şəxsən öz üzərinə götürdüyü bu öhdəlik və ABŞ hökumətinin gündəliyi TRIPP-ın inşa olunacağını göstərir. Bu, böyük məsafə deyil, cəmi 40 kilometrdən çoxdur. Yeri gəlmişkən, demək istərdim ki, hazırda Azərbaycanın paytaxtdan Ermənistan sərhədinədək inşa etməkdə olduğu dəmir yolu təxminən 400 kilometrdir. Üstəlik demək olar ki, 200 kilometrlik hissə bizim Naxçıvan eksklavında bərpa olunacaq. Beləliklə, bizim adlandırdığımız kimi, Zəngəzur dəhlizinin Ermənistan seqmenti çox qısadır. Əminəm ki, bu, həyata keçiriləcək.

Vitse-prezident Vensin səfəri ilə bağlı suala gəldikdə isə bəli, bu, çox mühüm bir səfər idi. Birləşmiş Ştatların vitse-prezidentinin səfəri özlüyündə istənilən ölkə üçün əhəmiyyətlidir. Hazırkı vəziyyətdə bu, Birləşmiş Ştatlar və Azərbaycan hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ilə əlamətdar oldu. Beləliklə, biz dünyanın ən güclü ölkəsinin rəsmi strateji tərəfdaşı olduq və bunu ölkəmiz üçün böyük uğur hesab edirik.

Bu Strateji Xartiya mətbuatda dərc olundu, o, müxtəlif bölmələrdən ibarətdir. Onlardan biri müdafiə məhsullarının satışı ilə bağlıdır, amma təkcə bu deyil. Buraya enerji, bağlantı, süni intellekt, investisiya və ticarət daxildir, həmçinin Azərbaycana silah tədarükü ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılıb.

***Müxbir:*** *Ölkənizdə hərbi məhkəmənin Qarabağ bölgəsinin 13 şəxsinə ağır həbs cəzaları, o cümlədən keçmiş liderinə ömürlük həbs cəzası verməsinə dair qərarına toxunmaq istəyirəm. ABŞ vitse-prezidentinin bu məsələ ilə bağlı danışdığı və bölgədə sülhə nail olunması məqsədilə Sizdən bəlkə də onları əfv etməyinizi istədiyi barədə məlumatlar var idi. O, bunu edibmi və Siz bunu edəcəksinizmi?*

**Prezident İlham Əliyev:** Vitse-prezidentlə bir neçə saat davam edən görüş zamanı digər məsələlərlə yanaşı, bu məsələ də onun tərəfindən qaldırıldı və mən bu məsələ ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim, vəssalam. Biz, əsasən, ikitərəfli əlaqələri, regional inkişafı, TRIPP və Ermənistanla rəsmi sülh perspektivlərini müzakirə etdik. Qeyd etdiyiniz bu insanlara gəldikdə isə, onlar bizim ərazimizdə, Ermənistan da daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren Azərbaycan dövlətinin ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin liderləridir.

Bu insanlar uzun illər ərzində azərbaycanlılara və Azərbaycana qarşı törədilən bütün müharibə cinayətlərinin təşkilatçıları olublar və məsuliyyətə cəlb ediliblər. Onlar bizim həyata keçirdiyimiz hərbi əməliyyat nəticəsində Qarabağda saxlanılıb məsuliyyətə cəlb olunublar. Onlar vəkillərlə təmin ediliblər. Məhkəmə prosesi tamamilə şəffaf keçib. Onların cinayətləri şahid ifadələri, çoxsaylı ifadələrlə sübuta yetirilib, hər hansı qanun pozuntusundan söhbət gedə bilməz.

***Müxbir:*** *Cənab Prezident, bəs Siz bununla bağlı nə isə edə bilərsinizmi?*

**Prezident İlham Əliyev:** Siz nəyi nəzərdə tutursunuz?

***Müxbir:*** *Yeni səhifə açıb onları əfv edə və ya buna bənzər nə isə bir jest edə bilərsiniz. Bu, Sizin səlahiyyətiniz daxilindədir.*

**Prezident İlham Əliyev:** Bilirsiniz, bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin.

***Müxbir:*** *Bu, Sizin üçün eyni şeydir?*

**Prezident İlham Əliyev:** Bəli, tamamilə. Hətta daha da pisdir, daha da pisdir. Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi.

***Müxbir:*** *Bəs, yeni səhifə açmaq baxımından, sonuncu müharibə nəticəsində Qarabağı tərk etmək məcburiyyətində qalan ermənilərə qarşı bir az mərhəmət hiss edirsinizmi?*

**Prezident İlham Əliyev:** Bizim bu məsələ ilə bağlı mövqeyimiz çox aydın olub. Bizim Qarabağda yaşayan bütün ermənilərə vətəndaşlıq və ya iş icazəsi üçün müraciət etməyi təklif etdiyimiz dəfələrlə səsləndirilib, o cümlədən veb-saytda dərc olunub. Qarabağ ermənilərinin nümayəndələri ilə bir neçə dəfə görüşlərimiz oldu, lakin onlar Ermənistana getmək seçimini üstün tutdular. Bugünkü Ermənistan ərazisindən deportasiya edilmiş və etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlımız var, lakin Ermənistan hökuməti onların geri qayıtması üçün heç vaxt heç bir təklif irəli sürməyib. Düşünürəm ki, bu məsələyə qarşılıqlı nöqteyi-nəzərindən yanaşmalıyıq. Qayıdış hüququ universal bir hüquqdur və əlbəttə ki, bizə belə bir müraciət olarsa, Azərbaycan bu hüquqa mütləq əməl edəcək. Lakin eyni zamanda 30 il Ermənistanla müharibə şəraitində olduğumuzu və 30 il ərzində onların ərazimizi işğal altında saxladığını nəzərə alsaq, qərbi azərbaycanlılar adlandırdığımız yüz minlərlə azərbaycanlıya qarşı da eyni münasibəti gözləyirik ki, bugünkü Ermənistana qayıda bilsinlər.

***Müxbir:*** *Mən qısaca olaraq, Fransa ilə münasibətlərə keçmək istəyirəm. Əlaqələr, xüsusən də son müharibə zamanı çox pis olub. Siz Fransanı Yeni Kaledoniyada, Korsikada müstəmləkə ölkəsi olaraq, çox ağır sözlərlə tənqid etdiniz. Bir neçə ay əvvəl, Fransa vətəndaşı Teo Klerk azad edildi. Hazırda digər vətəndaşın məhkəməsi gedir. "Avropa Siyasi Birliyi"nin Zirvə Görüşü çərçivəsində Sizin Fransa Prezidenti ilə qısa görüşünüz oldu. Deyə bilərsinizmi, münasibətlər öz məcrasına qayıdıb və ya Azərbaycan ilə Fransa arasında hələ problemlər qalır?*

**Prezident İlham Əliyev:** Bilirsiniz, Fransa ilə problemlərin kökü bizdən gəlmir. İkinci Qarabağ müharibəsindən əvvəl Fransa ilə çox yaxşı münasibətlərimiz var idi. Prezident Sarkozinin, Prezident Ollandın səfərləri olmuş, mənim Fransaya rəsmi səfərlərim həyata keçirilmişdir. Eyni zamanda mən Prezident Makronun hakimiyyəti dövründə Fransaya səfər etmişəm. Bizim çox mehriban münasibətlərimiz olub, çox biznes fəaliyyəti aparılıb, 10-dan artıq qardaşlaşmış şəhərlərimiz olub. İkinci Qarabağ müharibəsi başlayan zaman biz ərazi bütövlüyümüzün bərpasına start verdik. Əfsuslar olsun ki, Fransanın mövqeyi heç cür anlaşılan deyildi. Çünki Fransa bir tərəfdən, ölkələrin ərazi bütövlüyünü müdafiə edir, - o, öz ərazi bütövlüyünü müdafiə etməyə səy göstərir, hazırda Danimarkanın, Ukraynanın ərazi bütövlüyünü müdafiə edir, - lakin əfsuslar olsun ki, onlar separatçıların tərəfini tutdular. Milli Assambleya və Senat separatçılara dəstək məqsədilə 10-dan artıq qətnamə qəbul edib və Ermənistanın özü tanımasa belə, sizin parlament hətta qondarma "Dağlıq Qarabağ"ı tanıyıb. Həmçinin hökumətlə münasibətlər gərgin idi. Lakin bir daha deyirəm, biz həmin gərginliyin mənbəyi olmamışıq. Biz, sadəcə, öz suverenliyimizə hörmətlə yanaşmanı istəyirdik.

***Müxbir:*** *Axı, Siz çox ağır sözlərdən istifadə etdiniz...*

**Prezident İlham Əliyev:** Bilirsiniz, ağır sözlərdən istifadəni mən başlamamışam. İstəyirəm tam əmin olasınız, Azərbaycanın atdığı addımlar yalnız cavab idi. Bizdə Fransa Prezidentinin və bir çox fransız rəsmilərinin, o cümlədən Senatınızın sədrinin, Milli Assambleyanızın sədrinin, tanınan şəxslərin dövlətimizi və şəxsən məni təhqir etmək üçün istifadə etdikləri ağır sözlərdən kataloqumuz var. Bundan əlavə, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra və 2023-cü ildə antiterror əməliyyatından əvvəl xanım Pekres, cənab Barnye, cənab Retayyo kimi çox tanınan şəxslər, - bütün bu adlar auditoriyaya yaxşı məlumdur, - Qarabağa qeyri-qanuni səfərlər etmiş və separatçılara dəstək vermişlər. Bu, Azərbaycan dövlətçiliyinə açıq təhqir və tam hörmətsizlik əlaməti idi. Bizim tərəfimizdən deyilmiş sözlərin və ya atılmış addımların hamısı cavab olaraq baş vermişdir. Bəlkə də bu, ağır tərzdə olmuşdur. Ölçmək asan deyil. Lakin düşünürəm ki, bizim üçün vacib odur ki, qeyd etdiyiniz kimi, ötən ilin sonunda Prezident Makron ilə görüşüm oldu. Görüş çox müsbət keçdi və biz hər şeyi yenidən başlamaq razılığına gəldik. Biz buna hazırıq. Bizə hər hansı ölkə, o cümlədən Fransa ilə heç bir problem lazım deyil. Bir daha deyirəm, bu, bizim təşəbbüs deyildi, lakin indi düşünürəm ki, hər iki tərəf, xüsusən də Ermənistan ilə Azərbaycan arasında artıq əldə olunmuş sülhdən sonra normal münasibətlərə daha çox hazırdır.

***Müxbir:*** *Beləliklə, nəticə olaraq, biz yaxın gələcəkdə Fransa Prezidenti ilə Sizin görüşünüzü gözləyə bilərikmi?*

**Prezident İlham Əliyev:** Bəli, birmənalı olaraq. Yeri gəlmişkən, Kopenhagendə görüşümüz çox dostcasına keçdi. Əlbəttə ki, görüş baş tutduqdan bir neçə ay sonra heyətlərimiz arasında xeyli təmaslar olub. Onlar müntəzəm olaraq əlaqədədirlər. Bir neçə görüş baş tutub. Bəli, bəzi məsələlər hələ də qalır. Prezident Makron və mən onların hər iki tərəfdən həll olunmasını qeyd etmişik. Lakin bir daha anlamaq vacibdir ki, bu hərəkət qarşılıqlı olmalıdır. İki suveren dövlət kimi biz bir-birimizə hörmət etməliyik, hüquq sistemlərimizə hörmətlə yanaşmalıyıq və bir-birimizin işlərinə qarışmalı deyilik. Əgər sizin sözdən istifadə etsəm, Kaledoniya və sairə məsələləri biz birinci ortaya atmadıq. Məhz Fransa Qarabağ kimi daxili məsələmizə müdaxilə etməyə başladı. Bu, nəinki həmin mövzuya, hətta siyasi gündəliyimizə də şamil edildi. Bir sözlə, buna son qoyulmalıdır. Düşünürəm ki, hər iki tərəf bunu necə etməyi bilir.

***Müxbir:*** *Prezident Əliyev, qonağımız olduğunuza görə çox sağ olun. "France-24" kanalında "Üzbəüz" verilişinə baxdığınıza görə hamınıza minnətdarıq.*

**Prezident İlham Əliyev:** Sağ olun.

# Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransında Tramp Marşrutu layihəsinin əhəmiyyətindən danışıb

**Fevralın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Avrasiyanın Strateji Nizamının Müəyyənləşdirilməsi: Orta Dəhliz - Sabitlik, Sülh, Təhlükəsizlik və Bağlantılar üzrə Avropa Təhlükəsizlik Gündəliyi" mövzusunda panel müzakirələrində çıxış edib. Paneldə, həmçinin Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, Ceyhun Bayramov Cənubi Qafqazda davamlı sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ölkəmizin mövqeyi və xüsusilə də tarixi Vaşinqton Sammitindən sonra atılan addımlar, Azərbaycanın regional təhlükəsizlik və sabitlik istiqamətində həyata keçirdiyi siyasət barədə ətraflı məlumat verib.

Ermənistana istiqamətlənən yüklərə münasibətdə tranzit məhdudiyyətlərinin aradan qaldırılması, Azərbaycandan Ermənistana neft məhsullarının satışı istiqamətində atılan addımların son onilliklər ərzində görünməmiş dərəcədə sabit mühitin formalaşmasına töhfə verdiyi qeyd edilib.

Bununla yanaşı, Ermənistan tərəfindən də yüklərin Azərbaycandan keçməklə üçüncü ölkələrə ixrac edilməsinə müvafiq icazə verilməsinin, beyin mərkəzlərinin nümayəndələrinin və ekspertlərin görüşlərinin əhəmiyyətli etimad quruculuğu tədbirləri olduğu vurğulanıb.

Tərəflər arasında paraflanmış sülh sazişinin imzalanması və normallaşma gündəliyinin daha da irəli aparılması baxımından Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması və Vaşinqton Bəyannaməsinə uyğun olaraq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin icrasında real irəliləyişin əldə olunmasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Prezident İlham Əliyevin siyasətinin bölgəmizin regional rəqabət və konfrontasiya məkanına çevrilməməsi istiqamətində tədbirlərə kökləndiyi xatırladılıb.

Nazir panel müzakirələrində, həmçinin Azərbaycanın Orta dəhlizin gücləndirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı infrastruktur işləri, investisiyaları və regional tərəfdaşlarla normativ-hüquqi əlaqələndirmə tədbirləri barədə məlumat verib.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükaşırma prosedurlarının asanlaşdırılması məqsədilə Azərbaycan, Qazaxıstan, Türkiyə və Gürcüstan arasında birgə Yol Xəritəsinin qəbul edildiyi bildirilib, bunun nəticəsində tranzit müddətlərinin əhəmiyyətli dərəcədə azaldığı və yük daşımalarının həcminin artdığı qeyd edilib.

TRIPP təşəbbüsü də daxil olmaqla inklüziv bağlantı layihələrinin əhəmiyyəti diqqətə çatdırılıb, bu çərçivədə Avropa İttifaqının daha fəal iştirak potensialı, Türkiyənin və Gürcüstanın da regional nəqliyyat əlaqələrinin inkişafında vacib rolu qeyd edilib.

Bununla yanaşı, regional bağlantıların inkişafı istiqamətində ölkəmizin Mərkəzi Asiya ilə həyata keçirdiyi birgə layihələr və səylər diqqətə çatdırılıb.

Panel müzakirələri daha sonra sual-cavab sessiyası ilə davam edib.

## Milli Məclisin iclasında

# Bələdiyyələrin fəaliyyəti ilə bağlı məruzə dinlənilib

**Fevralın 13-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə rəsmi səfəri ilə bağlı fikirlərini bildirib.**




Tarixi əhəmiyyət daşıyan bu səfərin Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafında yeni mərhələ açdığını deyən Milli Məclisin Sədri qeyd edib ki, səfər çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası birgə əməkdaşlığın uzunmüddətli prioritetlərini müəyyən edir, energetika, iqtisadiyyat, investisiya qoyuluşu, kosmik sənaye, rəqəmsal infrastruktur, müdafiə, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın dərinləşməsinin möhkəm təməlini yaradır.

Sülh, sabitlik və dayanıqlı inkişaf sahəsində ümumi maraqlara əsaslanan Xartiya tərəflərin suverenliyə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına və milli maraqlara hörmət əsasında iş birliyini genişləndirmək niyyətini əks etdirir.

Spiker Sahibə Qafarova vurğulayıb ki, dünyanın ən qüdrətli dövləti ilə ölkəmizin əlaqələrinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və ardıcıl siyasəti sayəsində mümkün olub. Onun rəhbərliyi ilə Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, regional enerji-nəqliyyat layihələrinin əsas iştirakçısı, müstəqil xarici siyasət yeridən bir dövlət kimi böyük nüfuz qazanıb.

Milli Məclisin Sədri bildirib ki, bu gün bölgəmizin dərin dəyişikliklərə məruz qaldığı bir şəraitdə Azərbaycan konstruktivlik və məsuliyyətli tərəfdaşlıq prinsiplərinə əsaslanır. "Biz Ermənistanla Azərbaycan arasında sülh yaradılmasına Birləşmiş Ştatların, xüsusən Prezident cənab Donald Trampın verdiyi töhfəni yüksək qiymətləndiririk. ABŞ-nin dəstəyi Cənubi Qafqazda möhkəm və ədalətli sülhün bərqərar edilməsində müstəsna rol oynayır, iqtisadi inteqrasiya və əməkdaşlıq üçün yeni imkanlar açır" - deyə Milli Məclisin Sədri bildirib.

Spiker qeyd edib ki, vitse-prezident Vensin səfəri göstərdi ki, Azərbaycanın və ABŞ-nin Cənubi Qafqaz regionunun gələcək inkişafı ilə baxışları bir-birinə yaxındır. O bildirib ki, bizim əməkdaşlığımız təkcə iki ölkənin deyil, həm də Xəzər dənizindən Avropaya qədər geniş bir bölgənin maraqlarına xidmət edir.

Milli Məclisin Sədri çıxışının sonunda vitse-prezidentin səfəri çərçivəsində əldə edilmiş razılaşmaların Amerika-Azərbaycan münasibətlərinin ardıcıl və dinamik inkişafını təmin edəcəyinə, dövlətimizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə şərait yaradacağına əminliyini ifadə edib.

Sonra spiker Sahibə Qafarova gündəliyə 10 məsələnin daxil edildiyini diqqətə çatdırıb. O bildirib ki, gündəliyin birinci məsələsi Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəsidir.

Ədliyyə nazirinin müavini Toğrul Hüseynov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəni təqdim edib. Çıxışında 2025-ci ildə Azərbaycanın siyasi və diplomatik uğurlarından söz açan nazir müavini qeyd edib ki, ötən il ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da müsbət nəticələr əldə olunub. Yerli özünüidarəetmə sahəsində islahatların yeni mərhələsinə start verilib və bələdiyyələrin struktur islahatları nəticəsində onların sayı ölkə üzrə 685 vahid təşkil edib. Həmçinin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra ilk dəfə ötən ilin yanvarında bələdiyyə seçkiləri keçirilib, nəticədə bələdiyyələrin yeni tərkibi formalaşıb. Əvvəlki seçkilərdə olduğu kimi, yeni seçilən bələdiyyə üzvlərinin böyük hissəsini qadınlar və gənclər təşkil edib.

Diqqətə çatdırılıb ki, hesabat ilində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 81711, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 1935 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, nəticədə onların 97,2 faizinin qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Ümumilikdə həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı 1700-ə yaxın aktın dəyişdirilməsi və ya ləğv edilməsi aidiyyəti bələdiyyələrə təklif olunub. Bələdiyyələrin fəaliyyəti ilə bağlı baxılmış 4132 müraciətdən 313-ü təmin edilib. Şəhid ailəsi üzvlərinin, müharibə əlili və iştirakçılarının müraciətləri xüsusi nəzarətdə saxlanılıb və belə müraciətlərdən 65-i təmin olunub.

Qeyd olunub ki, inzibati nəzarət icraatı zamanı 62 halda cinayət əlamətləri aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib. Həmin materiallardan 14-ü üzrə cinayət işi başlanılıb, bir qismi üzrə qanun pozuntularının aradan qaldırılması barədə təqdimatlar verilib, digər materiallar isə istintaq orqanlarında baxılmaqdadır.

Torpaq sahələrinin qanunsuz ayrılması barədə bələdiyyə aktlarının ləğv edilməsi nəticəsində 3 min hektardan çox torpaq sahəsi bələdiyyə mülkiyyətinə qaytarılıb.

Bildirilib ki, 2025-ci ilin aprel ayında dərc olunan Dövlət Statistika Komitəsinin 2024-cü il üzrə bələdiyyə büdcəsinin icrası barədə məlumatına əsasən, ölkə üzrə bələdiyyələrin büdcə gəlirləri əvvəlki illə müqayisədə təxminən 7,9 milyon manat (14,4%) artaraq 63 milyon manata yaxın vəsait təşkil edib. Bələdiyyələrin vahid informasiya sistemindən əldə olunan məlumatlara əsasən, bu göstəricinin 2025-ci ilin yekunları üzrə də yüksək olması proqnozlaşdırılır.

Diqqətə çatdırılıb ki, keçən il qanunvericiliyə edilmiş müvafiq dəyişikliklərə uyğun olaraq "Elektron icra" informasiya sistemi ilə bələdiyyələrin icra sənədlərinin elektron kabinet vasitəsilə operativ şəkildə icraya yönəldilməsi, icra prosesinin izlənilməsi imkanı təmin olunub.

İl ərzində bələdiyyələr tərəfindən yerli əhalinin rifahının yaxşılaşdırılması və həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə sosialyönümlü layihələrin icrası prioritet istiqamətlərdən biri olub. Ötən il bələdiyyələr tərəfindən abadlıq işlərinə 10 milyon manata yaxın, sosial müdafiə və sosial təminatla bağlı xərclərə 1,7 milyon manatdan çox vəsait sərf olunub.

Nazir müavininin sözlərinə görə, 2025-ci ildə bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsi də diqqət mərkəzində saxlanılıb. Nazirlik tərəfindən yerli özünüidarəetmənin səmərəliliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi və onun müvafiq komitələri ilə sıx əməkdaşlıq davam etdirilib.

Vurğulanıb ki, ümumilikdə 2025-ci il ərzində görülən işlər ölkəmizdə bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və onların fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsinə xidmət edir.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi barədə bu komitənin rəyini diqqətə çatdırıb. Komitə sədri çıxışında ötən il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən söz açıb. O, 2025-ci ildə yerli özünüidarəetmə sahəsində də baş verən mühüm hadisələrdən bəhs edib. Qeyd olunub ki, 2025-ci ildən etibarən bələdiyyə aktlarının inzibati nəzarət qaydasında baxılması tam elektron mühitə keçirilmiş və ölkə üzrə bütün bələdiyyələrin aktları "Bələdiyyələrlə iş" informasiya sistemi vasitəsilə təqdim olunmağa başlanmışdır. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün bələdiyyələrin aktlarının da bu sistemə inteqrasiyası təmin edilmişdir.

Komitə sədri 2025-ci ildə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, nüfuzunun və maliyyə dayanıqlığının artırılması istiqamətində həyata keçirilən tədbirləri müsbət qiymətləndirib, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, həm də onlara metodoloji yardım üzrə il ərzində görülən işləri yüksək dəyərləndirib, yerli özünüidarəetmənin daha səmərəli və funksional işləməsi ilə bağlı fikirlərini bildirib, təkliflərini səsləndirib.

Məsələnin müzakirəsində çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, komitə sədri Fazil Mustafa, deputatlar Vüqar Bayramov, Vasif Qafarov, Kamran Bayramov, Azər Badamov, Elman Nəsirov illik məruzənin qənaətbəxş olduğunu söyləyiblər, bəzi fikir və qeydlərini bildiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxışında hesabatın ətraflı hazırlandığını bildirib. O, Milli Məclisin deputatlarının seçicilərlə mütəmadi görüşlər keçirdiyini, parlamentdə çoxsaylı dinləmələrin təşkil olunduğunu deyib. Spiker millət vəkillərinin yerlərdəki məsələlərlə yaxından tanış olduğunu qeyd edərək, müzakirələrdə deputatlar tərəfindən verilən təkliflərin gələcəkdə nəzərə alınacağına və öz səmərəsini verəcəyinə əminliyini bildirib.

İclasda nazir müavini Toğrul Hüseynov müzakirələr zamanı qaldırılan məsələlərə münasibətini bildirib, səsləndirilən fikirlər və təkliflərlə bağlı müvafiq işlərin görüləcəyini deyib.

Sonra Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzə səsə qoyularaq nəzərə alınıb.

İclasda Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında, Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə və "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Gömrük Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul olunub.

Parlamentin Sədri gündəliyin son 4 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu nəzərə çatdırıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd edib ki, qanun layihəsi cərimənin icrasında prioritet ardıcıllığın yenidən nəzərdən keçirilməsini, o cümlədən cərimənin, ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilməsini, icra prosesinin operativliyinin artırılmasını və cərimə məbləğinə ekvivalent olmayan əmlaka həbs qoyulmasını və satış zərurətinin minimuma endirilməsini təmin etmək məqsədilə hazırlanıb. Bildirilib ki, Məcəllənin yeni redaksiyada təklif olunan 24-cü maddəsinə əsasən, məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə, cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçirilir. Bu halda cərimə ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilir. Məhkumun əməkhaqqı və ya başqa qazancı olmadıqda, yaxud məhkumun əməkhaqqı və ya başqa qazancı cərimənin tamamilə ödənilməsi üçün kifayət etmədikdə, cərimə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilir və bu halda "İcra haqqında" qanunun tələbin borclunun əmlakına yönəldilməsi ilə bağlı müddəaları tətbiq olunur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumatı açıqlayıb. Diqqətə çatdırılıb ki, beynəlxalq aviasiya təşkilatlarının hava limanlarına dair tələblərinin həyata keçirilməsi, uçuşların təhlükəsizliyinin təmin edilməsinin təkmilləşdirilməsi, hava limanları ətrafında mühafizə olunan təhlükəsizlik zonalarının yaradılması, yeni uçuş-enmə zolaqlarının tikilməsi, uçuş-enmə zolaqların genişləndirilməsi çərçivəsində bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların alınması zərurəti yaranır.

Qeyd edilənləri və hava limanlarının xüsusi əhəmiyyətə malik obyektlər olduğunu nəzərə alaraq, layihədə dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və aerodromların inşasının torpağın alınmasına əsas verən dövlət ehtiyacları siyahısına daxil edilməsi təklif olunur.

Sənəddə həmçinin "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunun 3.1.5-ci maddəsindən irəli gələrək, uyğunlaşdırma çərçivəsində Mülki Məcəllənin 157.9-cu maddəsinə "dəniz limanının ərazisinin artırılması" sözləri əlavə edilir.

Nurlan Həsənov, habelə ölkə Prezidentinin sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edildiyini söyləyərək, hazırda köhnə və qəzalı vəziyyətdə olan tikililərin sökülməsi, müasir tipli yaşayış binalarının və qeyri-yaşayış sahələrinin tikilməsi, abadlıq işlərinin görülməsi məqsədilə həyata keçirilən tədbirlər və bu sahədə yaranmış durumla bağlı bəzi qeydlərini açıqlayıb.

Müzakirələr zamanı komitə sədrləri Siyavuş Novruzov və Fazil Mustafa məsələnin əhəmiyyəti barədə öz fikirlərini səsləndiriblər.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev sənədə dair bu komitənin rəyini bildirdikdən sonra, qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri bildirib ki, bu günlərdə ölkə Prezidentinin sədrliyi ilə keçirilmiş "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə dövlətimizin başçısı rəqəmsallaşma ilə bağlı islahatların gələcək fəaliyyətimizdə əsas prioritetlərdən olduğunu diqqətə çatdırıb və qarşıya yeni fundamental vəzifələr qoyub. O bildirib ki, Prezident dövlət idarəçiliyində və vətəndaşlara xidmət sahəsində ən müasir texnoloji yeniliklərin tətbiqinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir.

Musa Quliyev müzakirəyə təqdim olunan qanun layihəsinin Azərbaycan Prezidentinin qarşıya qoyduğu vəzifələrə uyğun olduğunu və dövlət idarəetməsində yeni dövrün çağırışlarına cavab verdiyini söyləyib. O qeyd edib ki, dövlət sosial sığorta sistemində elektron xidmətlərə keçidin sürətləndirilməsi və innovativ həllərin tətbiqi mütəmadi olaraq bu sistemlə bağlı dəyişikliklərin aparılmasını və təkmilləşdirilmələrin həyata keçirilməsini zəruri edir.

Komitə sədri deyib ki, hazırda sığortaedənlər tərəfindən muzdlu işlə əlaqədar vahid rüblük bəyannamə təqdim edilərkən SSN (sosial sığorta nömrəsi) və FİN (fərdi identifikasiya nömrəsi) məlumatlarının hər ikisinin daxil edilməsi əlavə iş yükü yaradır və sistemdə məlumat bazasının yüklənməsinə səbəb olur. O, habelə əksər dövlət orqanlarında məlumatların uçotunun FİN üzərindən aparıldığını söyləyib. Bildirilib ki, bunu nəzərə alaraq, qanun layihəsində sığortaolunanların sığortaçıda uçotunun yalnız FİN ilə aparılması təklif edilir. Bu dəyişikliklər sosial sığorta sistemində məlumatların idarə olunmasında vahidliyi və uyğunluğu təmin edəcək, qurumlar arasında məlumat mübadiləsini asanlaşdıraraq e-sistemlərin inteqrasiyasını sürətləndirəcək.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyətini açıqlayıb. O, layihənin qanunvericilik təşəbbüsü qaydasında komitə tərəfindən hazırlandığını, təklif olunan dəyişikliklərin qüvvədə olan qanunun "Milliləşdirmə və investisiyanın dövlət tərəfindən alınmasına qarşı təminat" adlanan 13-cü maddəsinə aid olduğunu söyləyib.

Komitə sədri qeyd edib ki, qanunvericiliyə görə investorun razılığı olmadan investisiyanın alınmasına və milliləşdirilməsinə yol verilmir. Hazırda investisiyalar investordan dövlət tərəfindən iki əsasla - dövlət ehtiyacları üçün və rekvizisiya məqsədilə (təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanlarının qərarı ilə cəmiyyətin mənafeləri üçün) alına bilər.

Bildirilib ki, təklif olunan dəyişiklik investisiyanın dövlət tərəfindən alınmasının yeni bir əsasını müəyyən edir. Bu, strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya milli maraqlara zidd olan müstəsna halların qarşısını almaq məqsədilə investisiyaların dövlət tərəfindən alınması və ya milliləşdirilməsidir. Layihənin müddəalarına görə, milliləşdirmə və alınma zamanı ədalətli bazar dəyəri əsasında kompensasiya ödənilir.

Diqqətə çatdırılıb ki, qanuna təklif olunan yeni 13.5-ci maddəyə əsasən, strateji əhəmiyyətə malik olan investisiyaların Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycan Respublikasının milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə milliləşdirilməsi və ya dövlət tərəfindən alınması Azərbaycan Respublikasının qanunları ilə həyata keçirilir. Bu dəyişiklik mahiyyətcə dövlətin milli və iqtisadi maraqlarının müdafiəsindən, milli və iqtisadi təhlükəsizliyin investor hüquqları ilə uzlaşdırılmasından ibarətdir.

Azər Əmiraslanov qanun layihəsi ilə bağlı bəzi məqamları nəzərə çatdıraraq bildirib ki, təqdim olunan sənəd investisiya fəaliyyətinin hüquqi əsaslarının təkmilləşdirilməsini nəzərdə tutur. O qeyd edib ki, strateji əhəmiyyətə malik investisiyalar dövlətin nəzarətindən kənarda qaldıqda iqtisadi asılılıq yaradır, mühüm infrastruktur obyektlərinə nəzarət riskini artırır və geosiyasi təsir alətinə çevrilə bilir. Bu baxımdan strateji risklərə qarşı hüquqi müdaxilə mexanizminin olmaması suverenlik üçün təhdidlər yarada bilər. Biz investisiyaları təşviq etməklə və bunun üçün hüquqi təminat yaratmaqla yanaşı, strateji sahələrdə də milli maraqlarımızı qorumalıyıq. Komitə sədri bununla bağlı beynəlxalq təcrübədə olan nümunələrdən söhbət açaraq, bunun təklif olunan dəyişikliklərdə nəzərə alındığını söyləyib.

Bildirilib ki, qanun layihəsinin müddəalarından göründüyü kimi, strateji investisiyalara münasibətdə dövlət maraqlarının qorunması hallarında belə, investorun hüquqlarının pozulmasına yol verilmir. Belə ki, qanunda mülkiyyətin toxunulmazlığı əsas prinsip kimi təsbit edilir, ədalətli kompensasiya və digər təminatlar verilir. Qeyd olunub ki, təklif edilən dəyişikliklər investisiya azadlığını məhdudlaşdırmır, onu yalnız dövlətin mənafeyi və maraqları ilə uzlaşdırır. Layihədə investorun hüququ qorunur, eyni zamanda dövlətin mənafeyi prioritet təşkil edir.

Müzakirələrdə deputat Qüdrət Həsənquliyev bəzi qeydlərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# İki ilin uğur salnaməsi və yeni strateji hədəflər

### Azərbaycan regional liderlikdən qlobal təhlükəsizlik və enerji arxitekturasının aparıcı aktoru statusuna yüksəlib



**2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri Azərbaycan xalqının Heydər Əliyev yoluna, Prezident İlham Əliyevin siyasi kursuna sonsuz etimadının təcəssümünə çevrildi. Xalqımız bu seçkidə də cənab İlham Əliyevin ətrafında sıx səfərbər oldu, Azərbaycana inkişaf və Zəfər bəxş edən siyasi kursun davamına səs verdi.**

Bu gün cənab İlham Əliyevin Azərbaycan Prezidenti kimi and içməsinin ikinci ili tamam olur. Möhtərəm İlham Əliyevin 2024-cü il fevralın 14-də Milli Məclisdə etdiyi fundamental çıxış Azərbaycan tarixində yeni dövrün başlanğıcı kimi xarakterizə olunur. Çünki proqram xarakterli çıxışında dövlət başçısının verdiyi mühüm mesajlar ölkəmizin gələcək inkişaf istiqamətlərini, daxili və beynəlxalq siyasi xəttin əsas cizgilərini dəqiq şəkildə müəyyənləşdirdi.

Dövlət başçımızın strateji əhəmiyyət daşıyan nitqi idarəçilik və xarici əlaqələrə dair ciddi məqamlardan, Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq proseslərindən tutmuş nəqliyyat qovşaqlarının bərpasına qədər geniş spektrli mövzuları əhatə etdi. Prezidentin çıxışı gələcək onilliklərdə respublikamızın inkişaf yolunu təyin edən proqram xarakterli mühüm yol xəritəsi idi.

2018-ci ildə andiçmə mərasimində cənab İlham Əliyev torpaqlarımızın azad ediləcəyini və Azərbaycanda separatizmə son qoyulacağını bəyan etmişdi. İki ildən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazandıq və 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızı azad etdik. Şanlı qələbəmizin ardından, 2023-cü ilin sentyabrında keçirilən birgünlük antiterror tədbirləri nəticəsində torpaqlarımızda separatizm yuvası tamamilə dağıdıldı və Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. 2024-cü il fevralın 7-də müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində seçkilər keçirildi və cənab İlham Əliyev xalqın yüksək etimadı ilə yenidən prezident seçildi. 2024-cü ilin 14 fevralında Prezident İlham Əliyevin Milli Məclisdə etdiyi proqram xarakterli çıxış əvvəlki dönəmdə qarşıya qoyulan vəzifələrin uğurla yekunlaşdırılmasının və Azərbaycanın hər sahədə tamamilə yeni tarixi mərhələyə qədəm qoymasının elanı idi.

Ötən iki il regionun geosiyasi mənzərəsini kökündən dəyişən mühüm hadisələrlə zəngin olmaqla yanaşı, strateji hədəflərin müəyyənləşdiyi səmərəli bir dövr kimi də əlamətdardır. Xatirimizdədir ki, cənab Prezident andiçmə mərasimində çıxışı zamanı bir neçə prioritet müəyyənləşdirdi. Onlardan biri milli həmrəylik ideologiyası idi. Qarabağ zəfərinə qədər milli ideologiyamızın əsasını torpaqlarımızın işğaldan azad edilməsi təşkil edirdi. Qələbədən sonra "güclü Azərbaycan, güclü türk dünyası" konsepsiyası ön plana çıxdı. Dövlətimizin başçısının "Bizim ailəmiz türk dünyasıdır" bəyanatı yeni ideologiyanın gündəmə gətirilməsi idi. Məhz ötən dövr ərzində Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq əlifba, ortaq tarix dərslikləri və mədəniyyət paytaxtları layihələri ilə xalqlararası əlaqələr rəsmiləşdirildi, türk xalqları arasında inteqrasiya dərinləşdi. Həmçinin daxili siyasətdə milli həmrəylik modelini möhkəmləndirmək üçün hakimiyyət və müxalifət arasında sağlam dialoq mühiti yaradıldı. Siyasi qüvvələrin Qarabağın bərpası məsələsində vahid mövqedən çıxış etməsi milli birliyi sarsılmaz etdi.

Prezidentin çıxışında vacib məqamlardan biri hərbi güc və müdafiə sənayesi sahəsi idi. Dövlət başçısı bəyan etdi ki, müharibənin bitməsinə baxmayaraq, ordu quruculuğu prosesi dayanmayacaq, əksinə, yeni təhdidlərə uyğun olaraq daha da sürətlənəcək. Keçən iki il ərzində bu istiqamətdə mühüm addımlar atıldı. Azərbaycan Ordusu 44 günlük müharibədən sonra tamamilə yeni struktur islahatına keçid etdi. Komando hərbi hissələrinin sayı və dislokasiyası artırıldı. Bir neçə ölkədən yeni hərbi texnikalar alındı. Eyni zamanda pilotsuz uçuş aparatlarının döyüş növbətçiliyinə qəbul edilməsi Azərbaycanın kəşfiyyat və zərbə gücünü artırdı. Türkiyə şirkətləri ilə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi arasında imzalanan sazişlər əsasında Bakıda birgə istehsal genişləndirildi. Bu gün Azərbaycan hərbi məhsullarının 30-dan çox ölkəyə satışı həyata keçirilir. Prezidentin rəhbərliyi ilə atılan addımlar sayəsində Azərbaycan Ordusu dünyanın ən modern ordulardan birinə çevrilib.

Dövlətimizin başçısının nitqində işğaldan azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin, Böyük qayıdışın milli hədəf kimi xarakterizə edilməsi bu proqramın sadəcə sosial layihə deyil, Azərbaycanın dövlətçilik qüdrətinin nümayişi olduğunu göstərdi. 2024-cü ildən etibarən köç prosesi kəndlərdən şəhər mərkəzlərinə keçib, minlərlə ailə hazırda müasir standartlara cavab verən çoxmənzilli binalarda məskunlaşıb. Qarabağ və Şərqi Zəngəzurda müasir infrastrukturun qurulması, Xankəndidə Qarabağ Universitetinin açılması bölgədə sosial dayanıqlığı təmin edən əsas amillərdir. Vətəndaşlarımızın öz yurdlarına geri dönməsi üçün mühüm şərtlərdən biri dayanıqlı məşğulluqdur. Bu məqsədlə işğaldan azad edilmiş zonalarda yüzlərlə müəssisələr fəaliyyətə başlayıb. Bu müəssisələr inşaat materiallarından tutmuş qida sənayesinə qədər geniş sahələri əhatə edir. Magistral yolların, habelə tunellərin inşası bölgənin logistik əlçatanlığını təmin edib.

2024-cü ilin noyabr ayında Bakıda keçirilən COP29 tədbiri Azərbaycanın həm xarici siyasətində, həm də iqtisadi modelində köklü transformasiyanın təsdiqi oldu. Prezident İlham Əliyevin andiçmə mərasimindəki yeni dövr hədəflərinin ən parlaq göstəricilərindən biri məhz bu tədbir idi. COP29 Azərbaycanı dünyanın iqlim siyasətinin mərkəzinə gətirdi və bir neçə mühüm nailiyyətlə yadda qaldı. Bakı neft-qaz ixracatçısı olan bir ölkənin eyni zamanda "yaşıl gündəliy"in ən fəal tərəfdarı ola biləcəyini dünyaya sübut etdi. COP29-un Bakıda keçirilməsi Azərbaycanın neft-qaz ölkəsindən "yaşıl enerji" qovşağına keçidini sürətləndirdi. Dövlətimiz 2030-cu ilə qədər bərpaolunan enerjinin payını ümumi gücdə 30 faizə çatdırmağı hədəfləyir.

Ötən müddətdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu daha da artıb, qlobal tranzit mərkəzi kimi mövqeyimiz möhkəmlənib. Bu gün 16 ölkəyə təbii qaz ixrac edirik və onların 10-u Avropa İttifaqının üzvüdür. Boru kəməri ilə qazın ixracının coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir.

Prezident İlham Əliyevin 2024-cü ildə müəyyən etdiyi hədəflər Azərbaycanın müdafiə qabiliyyətini artırmaq, diplomatik nüfuzunu qlobal səviyyəyə qaldırmaq və daxili sosial rifahı təmin etmək üzərində qurulmuşdu. Ötən iki ildə Azərbaycan postmünaqişə dövrünü geridə qoyaraq, Avrasiyanın mühüm siyasi və iqtisadi aktoru kimi öz yerini daha da möhkəmləndirdi.

Cənab Prezidentin xarici siyasətlə bağlı qoyduğu hədəflər, xüsusilə Ermənistanla sülh prosesinin irəliləməsi və münasibətlərin tənzimlənməsi, sərhədlərin delimitasiyası, eləcə də regional kommunikasiyaların açılması istiqamətindəki fəaliyyət son iki ildə özünün ən həlledici fazasına qədəm qoyub. 2024-cü ilin aprelində Rusiya sülhməramlı kontingentinin Qarabağı tərk etməsi Prezident İlham Əliyevin qətiyyətinin növbəti təntənəsi oldu. 2024-cü ilin mayında isə Ermənistanla delimitasiya prosesinin ilk praktiki və dinc nəticəsi olaraq Qazaxın 4 kəndi Azərbaycana qaytarıldı. Ən əsası isə Bakının təşəbbüsü ilə Azərbaycanla Ermənistan arasında vasitəçisiz, ikitərəfli danışıqlara start verildi. Azərbaycan ATƏT-in Minsk qrupunun rəsmən ləğvi kimi legitim tələblərini gündəmdə saxlayaraq, natamam sülhə razı olmayacağını nümayiş etdirdi. Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində yararsız quruma çevrilmiş Minsk qrupu və ona bağlı digər mənasız strukturlar ləğv edildi.

Sülh prosesində dönüş nöqtəsi isə 2025-ci il avqustun 8-də Vaşinqtonda reallaşan tarixi görüşlər və əldə edilən mühüm razılaşmalar oldu. ABŞ-nin regiondakı reallıqları qəbul edən obyektiv yanaşması ilə sülh danışıqları yeni müstəviyə daxil oldu. Vaşinqton görüşündə Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin paraflanması Azərbaycan diplomatiyasının güclü tərəf kimi daha bir qələbəsini rəsmiləşdirdi.

2026-cı ilin yanvarında Davos Dünya İqtisadi Forumundakı çıxışında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sülh yalnız sənəd üzərində qalmamalı, müştərək iqtisadi mənfəətlər, bərpaolunan kommunikasiyalar və ticarət əlaqələri ilə möhkəmlənməlidir. Bu baxımdan, Ermənistanla iqtisadi bağların bərpası və TRIPP layihəsinin (Zəngəzur dəhlizi) açılması yönündə atılan addımlar, sadəcə, nəqliyyat marşrutu deyil, həm də bəşəri sülhün unikal modeli kimi qəbul edilməyə başlandı.

Prezident İlham Əliyevin yeni dövrdəki strateji baxışı münaqişə və ədavət səhifəsini qapadaraq, Cənubi Qafqazı sülh və sabitlik məkanına, vahid iqtisadi sistemə çevirməkdən ibarətdir. Bu mənada dövlət başçısının 2026-cı il fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə səfəri və orada Şeyx Zayed Fondu tərəfindən təsis edilmiş nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunması Azərbaycan liderinin sülh modelinin qlobal miqyasda təsdiqlənməsidir. Bu önəmli mükafat sülh və əməkdaşlığın inkişafına töhfə verən seçilmiş şəxslərə verilir. Cənab İlham Əliyevin bu mükafata layiq görülməsi onun uzaqgörən diplomatiyasının, regional sülh və əməkdaşlıq təşəbbüslərinin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir. Bu onu təsdiqləyir ki, Azərbaycan qlobal geoiqtisadi və geosiyasi oyunçular üçün vacib mərkəz kimi qəbul olunur.

Dövlətimizin başçısının vurğuladığı kimi, hazırda Azərbaycan heç zaman görünmədiyi qədər mühüm tərəfdaşa çevrilir. Fevralın 10-da ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana yüksəksəviyyəli tarixi səfəri və tərəflər arasında böyük əhəmiyyət kəsb edən Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması Azərbaycanın xarici siyasətində yeni bir eranın başlanğıcı və ölkəmizin geosiyasi arenada artan çəkisinin bariz nümunəsidir. Bu səfər göstərir ki, Azərbaycan artıq sadəcə regional məsələlərdə deyil, qlobal əhəmiyyətli qərarların qəbulunda rəyi soruşulan və etibarlı tərəfdaş kimi qəbul edilən bir dövlətdir.

Bütövlükdə, cənab İlham Əliyevin ölkə Prezidenti kimi 2024-cü ilin fevralından start götürən yeni səlahiyyət dövrü Azərbaycanı daxildə daha sarsılmaz, beynəlxalq müstəvidə isə daha nüfuzlu bir dövlət halına gətirib. İki il öncə bəyan edilən hədəflər bu gün artıq Azərbaycanın yeni reallığıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət ölkəmizi regionun mütləq liderindən qlobal təhlükəsizlik və enerji arxitekturasının aparıcı aktoru statusuna yüksəldib. Bu, sadəcə bir dövrün yekunu deyil, Azərbaycanın daha qüdrətli gələcəyinin təminatıdır.

*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini*

# Azərbaycan məqsədlərinə doğru inamla irəliləyir

**Prezident İlham Əliyevin ardıcıl, məqsədyönlü və milli maraqlara əsaslanan siyasi kursu nəticəsində Azərbaycanda böyük iqtisadi potensial formalaşıb, müasir dövlət və cəmiyyət quruculuğu təmin edilib, təhlükəsizlik, sosial rifah və ordumuzun gücləndirilməsi sahələrində mühüm nailiyyətlər əldə olunub. Bu siyasət ölkəmizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artırılmasını, Azərbaycanın regional və qlobal miqyasda strateji əhəmiyyətinin yüksəldilməsini təmin edib.**

Prezident-xalq birliyinə söykənən bu siyasət nəticəsində Azərbaycan müstəqillik tarixinin ən mürəkkəb çağırışlarını uğurla dəf edərək suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdi. Şuşada, Ağdamda, Xankəndidə, Xocalıda, Cəbrayılda, Laçında, Kəlbəcərdə və digər tarixi torpaqlarımızda üçrəngli bayrağımız ucaldıldı. 2024-cü il fevralın 7-də keçirilmiş və xalqımız tərəfindən Zəfər seçkisi adını almış prezident seçkilərinin nəticələri isə xalqın Liderinə olan inamını, sevgisini aydın şəkildə göstərdi.

"Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar.... Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi". İki il öncə andiçmə mərasimindəki nitqində möhtərəm Prezidentimizin səsləndirdiyi bu fikir, eyni zamanda ölkəmiz üçün tarixi zəfərlərlə zəngin mühüm dövrdən inkişafın yeni mərhələsinə keçidi xarakterizə edir.

Müstəqilliyimizin ilk illərində Ermənistanın işğalçılıq siyasəti ilə üzləşən Azərbaycan təxminən 30 il ərzində böyük inkişaf yolu qət edərək, bütün sahələrdə mövqelərini gücləndirərək tarixi qələbəmizə doğru addım-addım irəlilədi. Vətən müharibəsi və antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam bərpa olundu. Dövlətimizin başçısı 2023-cü il oktyabrın 15-də - prezidentlik fəaliyyətinin 20-ci ilində Xankəndidə üçrəngli bayrağımızı ucaltdı, Azərbaycan ərazisində separatizmin kökü kəsildi.

Gücünü xalqın dəstəyindən alan dövlət başçısının qətiyyətli rəhbərliyi ilə bu gün Azərbaycan inkişafının yeni mərhələsində inamla addımlayır. Vətən müharibəsində qazanılan tarixi Zəfərimiz regionda yeni reallıqlar yaradaraq, qlobal əməkdaşlıq üçün geniş imkanlar açıb, Azərbaycanın irəli sürdüyü sülh gündəliyi beynəlxalq ictimaiyyət tərəfindən də qəbul olunub.

Azərbaycanın iqtisadi qüdrətinin, milli həmrəyliyinin təzahürü kimi Qarabağ və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa və yenidənqurma işləri xalqımızın quruculuq əzmini bütün dünyaya nümayiş etdirir. Doğma torpaqlarımızda 70 mindən çox insan böyük qürur hissi ilə yaşayır, çalışır və ya təhsil alır.

Bu gün azad torpaqlarımız artıq mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilir. İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Sammitinin, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün, Türkiyə-Azərbaycan-Pakistan liderlərinin üçtərəfli görüşünün azad və çiçəklənən Qarabağda və Şərqi Zəngəzurda keçirilməsi, çoxsaylı dövlət və hökumət başçılarının tarixi torpaqlarımıza səfərləri Azərbaycanın siyasi, diplomatik və geostrateji uğurlarının rəmzidir.

Regional və qlobal əhəmiyyətli layihələrin təşəbbüskarı və iştirakçısı kimi Azərbaycan bu gün qlobal enerji təhlükəsizliyinin etibarlı təminatçılarından birinə çevrilib. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi enerji strategiyası Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun olaraq, təkmilləşdirilir. Bu gün Azərbaycan dünyanın 16 ölkəsinə qaz ixrac edir. Müxtəlif ölkələrdə həyata keçirilən layihələrdə uğurla iştirak edir.

Eyni zamanda aparılan fəal siyasi dialoqlar, qurulan əməkdaşlıqlar, icra olunan nəhəng layihələr ölkəmizin regionda əsas tranzit və logistika mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir. Bu gün regionumuzda yeni əməkdaşlıq üçün yaxşı imkanlar yaranıb. Məhz Azərbaycanın təşəbbüsü ilə Ermənistanla sülhün və sabitliyin bərqərar olması regionu xarici investorlar üçün daha da cəlbedici edir.

Beləliklə, Zəfər seçkisində öz Liderinə sarsılmaz inamını bir daha ifadə edən Azərbaycan xalqı milli həmrəylik ruhunda yeni hədəflərə doğru inamla irəliləyir. Xalqın güclü siyasi iradəsi və dəstəyi ölkəmizin qarşısında duran strateji vəzifələrin ardıcıl və qətiyyətlə həyata keçirilməsinə möhkəm zəmin yaradır.

*Şahin İSMAYILOV,*
*Milli Məclisin Gənclər və idman komitəsinin sədri*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş siyasət, düzgün taktika*

## Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atır

**2024-cü il fevralın 7-də ilk dəfə müstəqil həyatımızda bütün ərazilərimizdə Zəfər seçkiləri keçirildi və Müzəffər Ali Baş Komandan İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Fevralın 14-də keçirilən andiçmə mərasimində isə cənab İlham Əliyev qarşıdakı dövrün əsas prioritetlərini açıqladı. Bununla da Azərbaycanın dünyadakı nüfuzunun daha da möhkəmlənməsi prosesi sürətləndi. Azərbaycan son illər sülh, sabitlik və əmin-amanlığın təminatına ciddi töhfə verməklə regional siyasətin formalaşdırılmasında mühüm rol oynayan dövlətə çevrilib. Bu, Prezident İlham Əliyevin zəngin liderlik bacarığı, praqmatik xarici siyasətinin nəticəsidir.**

Həqiqətən bugünkü mürəkkəb geosiyasi şəraitdə liderlik əsas faktordur, çünki xaos, vətəndaş qarşıdurması baş verən dövlətlərə diqqət yetirdikdə problemin kökündə dayanan əsas səbəbin normal siyasi lider çatışmazlığı olduğunu görürük. Dövlət başçısı zəif olduqda, öz dövlətini, xalqını müdafiə edə bilmədikdə, böyük güclərin əlində marionetə çevrildikdə xalqlar çox böyük faciələrlə üzləşir. İstər Cənubi Qafqazda, istər postsovet məkanında, eləcə də digər regionlarda biz belə neqativ nümunələrə rast gəlirik. Eyni zamanda liderlərin hakimiyyətə gələrkən verdikləri vədləri yerinə yetirməsi də olduqca vacibdir. Dövlətimizin başçısı hər zaman bəyan edir ki, xalqa yalan vədlər verməyin sonu yoxdur. Əsas uğur verilən vədlərin yerinə yetirilməsi ilə bağlıdır.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atır. Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.

İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə regionun lideri, eyni zamanda qlobal aktor kimi qəbul olunur.

Son 2 il isə Azərbaycan üçün həm daxili inkişaf, həm də beynəlxalq mövqelərin möhkəmləndirilməsi baxımından mühüm mərhələ kimi xarakterizə olunur. Dövlət idarəçiliyində islahatların davamı, regional diplomatiyada fəallıq və iqtisadi sabitliyin qorunması ötən dövrün əsas istiqamətlərini təşkil edib.

Azərbaycanın xarici siyasətində prioritetlərdən biri regionda davamlı sülhün təmin edilməsidir. Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atılan praktik addımlar Cənubi Qafqazda yeni siyasi konfiqurasiyanın formalaşmasına zəmin yaradıb, bölgədə sabitlik perspektivlərini gücləndirib. Belə ki, 2025-ci ilin avqustunda Azərbaycan və Ermənistan liderləri, şahid qismində ABŞ Prezidenti Donald Trampın da iştirakı ilə Birgə Bəyannamə imzalanıb. Sənəddə Ermənistan ərazisində xüsusi bağlantı layihəsi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun həyata keçirilməsi təsbit olunub. Bu müddəa Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur. Həmçinin "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb və rəsmi Bakının haqlı tələbinə uyğun olaraq, ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb. 2025-ci il dekabrın 1-də isə Minsk prosesi və onun əlaqədar strukturlarının bağlanması yekunlaşıb. Məhz cənab Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər və diplomatik addımlar regional sabitliyin təmin olunması baxımından həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə yüksək qiymətləndirilir.

Sülh təşəbbüsləri yalnız iki ölkə arasında münasibətlərin normallaşdırılması ilə məhdudlaşmır. Kommunikasiyaların açılması, nəqliyyat və iqtisadi əlaqələrin genişlənməsi Cənubi Qafqazı tranzit və əməkdaşlıq məkanına çevirmək potensialına malikdir. Bu isə həm regional dövlətlər, həm də daha geniş Avrasiya məkanı üçün yeni imkanlar yaradır. Qlobal sülh gündəliyində Azərbaycanın artan rolu fonunda Prezident İlham Əliyevin Misirdə keçirilən Sülh konfransında iştirakı, həmçinin Azərbaycanın beynəlxalq Sülh Şurasına üzv seçilməsi və dövlət başçısının "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi eyni siyasi xəttin - qlobal sülh, dialoq və multikultural dəyərlərin təşviqi siyasətinin məntiqi davamı kimi qiymətləndirilə bilər.

Azərbaycan, eyni zamanda ABŞ, Çin başda olmaqla, dünyanın aparıcı güc mərkəzləri ilə imzalanmış strateji tərəfdaşlıq formatında çalışır. Rəsmi Bakı Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatı, D-8 və digər beynəlxalq platformalarda fəallığını artıraraq çoxtərəfli diplomatiyada mövqelərini möhkəmləndirib.

Ötən iki ilin ən mühüm hadisələrindən biri Azərbaycanın beynəlxalq iqlim gündəliyində aparıcı rol oynaması oldu. COP29 kimi qlobal əhəmiyyətli tədbirə evsahibliyi ölkəmizin diplomatik potensialını və təşkilatçılıq imkanlarını nümayiş etdirdi. Bu, Azərbaycanın təkcə enerji ixracatçısı deyil, həm də "yaşıl enerji" keçidində məsuliyyətli tərəfdaş kimi çıxış etdiyini göstərdi. Eyni zamanda Orta dəhliz çərçivəsində tranzit imkanlarının genişlənməsi Azərbaycanın Avropa ilə Asiya arasında strateji körpü rolunu daha da gücləndirdi.

Qlobal iqtisadi çağırışlara baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılıb. Qeyri-neft sektorunun inkişafı, rəqəmsallaşma və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində addımlar davam etdirilib. Sosial sahədə əməkhaqqı və pensiyaların artırılması, sosial müavinətlərin genişləndirilməsi və həssas qruplara dəstək proqramları əhalinin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edib. Rəqəmsal dövlət xidmətlərinin genişlənməsi isə vətəndaşların gündəlik həyatını daha rahat və əlçatan edib.

İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri son iki ildə daha geniş vüsət alıb. Yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun qurulması, məktəb və xəstəxanaların istifadəyə verilməsi Böyük qayıdış proqramının mərhələli şəkildə uğurla icra olunduğunu göstərir. Həyata keçirilən layihələr regionun iqtisadi və sosial reinteqrasiyasına təkan verir.

Azərbaycan ənənəvi enerji ixracatçısı olmaqla yanaşı, alternativ və bərpaolunan enerji mənbələrinə sərmayəni artırır. Günəş və külək enerjisi layihələri, xüsusilə Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanda "yaşıl enerji zonaları" ölkənin uzunmüddətli enerji strategiyasının mühüm hissəsinə çevrilib.

Prezident İlham Əliyevin andiçmə mərasimindən ötən iki il Azərbaycan üçün sabitlik, diplomatik fəallıq və inkişaf kursunun davamı ilə xarakterizə olunur. Regional sülh təşəbbüsləri, beynəlxalq nüfuzun artması, sosial rifahın gücləndirilməsi və azad edilmiş ərazilərdə aparılan quruculuq işləri bu dövrün əsas istiqamətləridir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini***



**İki il öncə - 14 fevral 2024-cü ildə Prezident İlham Əliyev Milli Məclisdə and içərkən Azərbaycanın qarşısında duran hədəf və məqsədləri çox aydın, korrekt və sistemli halda diqqətə çatdırdı. İlk növbədə seçicilərin böyük etimad və dəstəyini qazanması münasibətilə Azərbaycan xalqına öz təşəkkürünü bildirməsi bir liderin xalqa arxalanmasından və onun güvənini qazanıb güc almasından xəbər verir.**

## Arzuları reallığa çevirən güclü Lider

2024-cü ilin 7 fevral tarixi Azərbaycan xalqı üçün sadə bir prezident seçkisi deyildi. Bu seçkilər Azərbaycan xalqının liderinə məhəbbətinin, sədaqətinin, etimadının ən ali forması idi. Çünki cənab İlham Əliyev xalqına tarixi Zəfər yaşatmış liderdir.

Hələ 2018-ci ildə dövlət başçımız Milli Məclis kürsüsündə andiçmə mərasimi zamanı bildirmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Azərbaycan xalqı heç bir zaman öz tarixi torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. O gündən az bir zaman keçməsinə baxmayaraq, Azərbaycan xalqı birlik nümayiş etdirərək Vətən müharibəsini Zəfərlə başa vurdu. Mərd oğullarımız qan tökərək, torpaqlarımız uğrunda canlarından keçərək tarix ədaləti bərpa etdilər.

İkinci Qarabağ müharibəsi Azərbaycanın şanlı tarixidir. Bu savaş həm də dünya tarixinə yazılan bir müharibədir. Azərbaycanın döyüş qabiliyyəti, əsgərlərimizin, zabitlərimizin göstərdiyi qəhrəmanlıq dünyanın nüfuzlu hərbi məktəbləri tərəfindən də bu gün öyrənilir. Bu istiqamətdə fundamental araşdırmalar aparılır. Azərbaycanın uğurunu təmin edən digər amillərdən biri ondan ibarətdir ki, xalqımız müdriklik və təmkin göstərdi, liderinə güvəndi. Cənab Prezident İlham Əliyev hər bir kürsüdən Azərbaycanın haqq səsini çatdırdı və bütün platformalarda bildirirdi ki, artıq tarixə qovuşmuş hərbi rejim Azərbaycan xalqına qarşı o cinayətləri törətməyi təkbaşına bacarmazdı. Direktivlər birbaşa Ermənistan rəhbərliyi tərəfindən gəlirdi, qondarma qurum Ermənistan tərəfindən idarə olunurdu.

44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri, zabiti görünməmiş qəhrəmanlıq göstərdi. Ermənistan tərəfində isə 12 mindən çox fərari var idi. Döyüşən əsgərlərimiz qan tökərək 5-6 müdafiə xəttini aşaraq sübut etdilər ki, torpaq uğrunda ölmək nə deməkdir. 44 gün ərzində tarixi və strateji vəzifələr yerinə yetirildi və Azərbaycan Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etdi. Təbii ki, müharibədən sonrakı dövr də asan deyildi. Azərbaycana qarşı siyasi təzyiqlər, təhdidlər davam edir, bunların ardı-arası kəsilmirdi. Ermənistan kapitulyasiya aktında ehtiva edilən məsələlərin icrasını biləraəkdən gecikdirirdi. Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında yol bağlantılarının təmin edilməsi ilə bağlı Ermənistanın öhdəliyi var idi. Lakin bununla bağlı İrəvan nə bir siyasi iradə ortaya qoyurdu, nə də texniki əsaslandırma işinə başlayırdı. O zaman dünyada baş verən hadisələr də təbii ki, Cənubi Qafqaza təsirsiz ötüşmür. Odur ki, Azərbaycan diplomatiyanın fərqli üsul və metodlarına əl atırdı.

İkinci Qarabağ müharibəsindən sonra lokal xarakterli antiterror əməliyyatları ilə ölkəmiz demək olar ki, bütün təhlükələri Qarabağdan uzaqlaşdırdı. 2023-cü ilin 20 sentyabr tarixində qondarma rejim məhv edildi.

Azərbaycan Cənubi Qafqaza sülh gətirib. Azərbaycan bütün gücünü səfərbər edib ki, Cənubi Qafqaz regionunda sabitlik bərqərar olsun.

Qarşıda dayanan əsas məsələ Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Hazırda Böyük qayıdış proqramı uğurla icra edilir. Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işləri həyata keçirilir. Bu gün dövlət büdcəmizdə ən böyük vəsait hərbi xərclərə yönəldilib. Digər tərəfdən, Azərbaycan güclü hərbi sənaye kompleksi yaradır. Müdafiə sənayemiz yerli istehsal baxımından inkişaf etdir, dünyanın böyük dövlətləri ilə müqavilələr imzalanır. Dövlətimizin başçısı bildirir ki, regional sabitlik bizim üçün əsas faktordur. Cənubi Qafqazın artıq münaqişə və müharibələrdən uzaqlaşması son dərəcə labüddür.

Ölkəmiz iqtisadi cəhətdən də güclənir. Azərbaycanın valyuta ehtiyatları tarixi rekord həddə çatıb. Belə ki, bu ehtiyatlar 80 milyard dollardan artıqdır. Xarici borcumuz isə aşağı düşüb. Bu, ümumdaxili məhsulumuzun cəmi 6,3 faizini təşkil edir. Bir çox inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faizdir. Valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir.

Azərbaycan ABŞ ilə münasibətlərini tamamilə yeni bir mərhələdə inkişaf etdirir. 8 avqust tarixində Vaşinqtonda əldə edilmiş razılaşmalar sadəcə Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına xidmət etmir, həm də münasibətlərin müəyyənləşdirilməsi və önə aparılması baxımından yol xəritəsi oldu. Bu həm də ABŞ investisiyasının regiona gəlməsi demək idi. Cənubi Qafqazdakı bu reallıqların əsasını qoyan tərəf Azərbaycandır.

Azərbaycan Mərkəzi Asiyanın tamhüquqlu üzvünə çevrilib. Mərkəzi Asiyanın resursları uğrunda gedən mübarizədə Azərbaycan uzlaşdırma mövqeyində dayanır, aktorlar arasında körpü rolunu oynayır. Bu körpü sadəcə coğrafi mövqe baxımından deyil, həm də diplomatiya üzərindən dəyərləndirilir. Bunların hər biri tarixi hadisələrdir. Vaxtilə bunlar xəyal kimi görünsə də, indi reallıqdır. Bu reallığı təmin edən isə Müzəffər Liderimiz cənab İlham Əliyevdir.

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı***

## Prezident İlham Əliyev bəyan etdiyi məqsədlərə ardıcıllıqla nail olur

**"Prezident İlham Əliyevin ötən illər ərzində həyata keçirdiyi müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilib. Ən əsası Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Məhz bütün bunların nəticəsidir ki, 2024-cü il fevralın 7-də keçirilmiş və tariximizə Zəfər seçkisi kimi yazılmış prezident seçkilərində xalqımız öz Liderinə - cənab İlham Əliyevə bir daha sonsuz inam və etimadını ifadə etdi. Həmin il fevralın 14-də Prezident İlham Əliyev Vətənə, dövlətə və xalqa sədaqət andı içdi. Dövlətimizin başçısı andiçmə mərasimində çıxışı zamanı qarşıda dayanan vəzifələr və hədəflərdən ətraflı bəhs etdi. Bununla da, müasir müstəqil Azərbaycanın tarixində yeni mərhələ başladı".**

Bu fikirləri Milli Məclisin deputatı Samir Vəliyev deyib. Deputat bildirib ki, Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında ölkəmizin gələcək inkişafına, regionda mövcud vəziyyətə və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına geniş yer verib. Prezident İlham Əliyev haqlı olaraq vurğulamışdı ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesini tərəflər özləri aparmalıdırlar. Proseslər göstərdi ki, həqiqətən də ikitərəfli dialoq sülh prosesində ən optimal yol idi. Belə ki, birbaşa dialoq nəticəsində ötən ilin martında sülh sazişinin layihəsi razılaşdırıldı, avqust ayında isə Vaşinqtonda bu sənəd paraflandı.

Millət vəkilinin sözlərinə görə, Azərbaycan müstəqil siyasi kurs həyata keçirir. Ölkəmizin reallaşdırdığı siyasət sırf müstəqillik və suverenlik kimi fundamental prinsiplərə əsaslanır. Prezident İlham Əliyev andiçmə mərasimində söylədiyi nitqində ölkəmizin xarici siyasət kursu ilə bağlı strateji seçiminə bir daha diqqət çəkdi. Azərbaycanın müəyyənləşdirdiyi çoxvektorlu xarici siyasət kursunun əsas mahiyyəti ondan ibarətdir ki, burada milli maraqlar əsas götürülür, eyni zamanda tərəfdaşlara böyük hörmət bəslənilir və onlarla qarşılıqlı maraqlar əsasında sıx əməkdaşlıq qurulur. Belə effektiv siyasətin nəticəsidir ki, hazırda respublikamıza və onun lideri İlham Əliyevə həm yerləşdiyi coğrafiyada, həm də uzaq xaricdə böyük hörmət bəslənilir. Azərbaycan Rusiya, Gürcüstan, Türkiyə, İran və Ermənistanla quru sərhədlərinə malikdir. Mərkəzi Asiyadakı ayrı-ayrı ölkələrlə isə bizi Xəzər dənizi birləşdirir. Ölkəmizin qonşuluq siyasəti səmimilik, xoş niyyət və beynəlxalq hüquq normalarına əsaslanır.

Respublikamızın nüfuzlu beynəlxalq təşkilatlarda yüksək fəallığı da diqqəti cəlb edir. Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul olunub. Ölkəmizin Qoşulmama Hərəkatında təmsilçiliyi uzun zaman müddətini əhatə etməsə də, öz səmərəliliyi və məhsuldarlığı ilə diqqət çəkdi. Azərbaycanın Qoşulmama Hərəkatının prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də ölkəmizə böyük etimad və nüfuz qazandırıb. Bunun nəticəsidir ki, Hərəkata üzv ölkələrin 2016-cı ildə keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edildi. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olundu. Eyni zamanda Qoşulmama Hərəkatına üzv dövlətlər quruma 3 illik sədrliyi 2022-ci ildə başa çatan Azərbaycana Hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanladılar və bu, respublikamız tərəfindən müsbət dəyərləndirildi. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu oldu və qurumun nüfuzunu, funksionallığını əhəmiyyətli dərəcədə artırdı. Dünya birliyinin BMT-nin ən genişmiqyaslı tədbirlərindən sayılan COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməsi beynəlxalq səviyyədə ölkəmizə inamın artmasının daha bir ifadəsidir. Azərbaycan mühüm ekoloji çağırışların, "yaşıl enerji" gündəliyinin müzakirə olunduğu bu tədbirə də yüksək səviyyədə evsahibliyi etmək əzmində idi. Nəhayət, 2024-cü ilin noyabrında baş tutan tədbir böyük uğurlarla yadda qaldı.

Samir Vəliyev qeyd edib ki, yeni dövrdə xarici siyasətimizin əsas prioritetlərindən biri türk dünyasına inteqrasiyanın dərinləşdirilməsidir. Bunula bağlı Prezident İlham Əliyev andiçmə mərasimində tarixi fikir söyləmişdir: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır". Prezident İlham Əliyevin yeni dövrdə ölkəmizin xarici siyasət kursunun əsas prioritetlərindən biri kimi türk dövlətləri ilə inteqrasiyanın dərinləşdirilməsinin zəruriliyini önə çəkməsi heç də təsadüfi deyil. Dövlətimizin başçısı andiçmə mərasimindəki nitqində açıq demişdir ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər: "Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayrıcı xətlərin əleyhinəyik. Biz hətta cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq!" Türk dünyası isə bizim üçün doğmadır və burada biz özümüzü, Prezident İlham Əliyevin bildirdiyi kimi, çox yaxşı hiss edirik.

"Andiçmə mərasimində çıxışı zamanı Prezident İlham Əliyev suverenliyimizin tam bərpa olunmasını yeni dövrün başlanğıcı kimi səciyyələndirib. Bu mənada 7 fevral seçkilərində cənab İlham Əliyevin seçki kampaniyasının "Yeni hədəflərə doğru!" şüarı ilə həyata keçirilməsi təbii qanunauyğunluq idi. Azərbaycan xalqı seçkilərdə cənab İlham Əliyevə səs verməklə məhz özünün güclü Lideri ilə yeni hədəflərə çatacağını təsdiqləmiş oldu. Cənab Prezident andiçmə mərasimində bəyan etdiyi məqsədlərə ardıcıllıqla nail olur. Bu, o deməkdir ki, Azərbaycan bundan sonra da yeni-yeni zəfərlər qazanacaq ", - deyə Samir Vəliyev vurğulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş siyasət, düzgün taktika*




# Azərbaycanın inkişaf tarixinin qürurverici dövrü

**2024-cü ilin növbədənkənar prezident seçkilərindən iki il ötdü. Prezident İlham Əliyevin misilsiz liderliyi, şəhidlərimizin, qazilərimizin, Azərbaycan Silahlı Qüvvələrinin şücaəti, yenilməz iradəsi, xalq və dövlətin sarsılmaz birliyi sayəsində torpaqlarımızın işğaldan azad olunmasından sonra, 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri - Zəfər seçkisi ilk dəfə olaraq müstəqil Azərbaycanın bütün ərazilərində baş tutdu. 2024-cü il fevralın 14-də isə bu seçkidə xalqın etimadını qazanan cənab İlham Əliyev Milli Məclisdə and içdi.**

Prezident İlham Əliyevin bu seçkilərdə inamlı qələbəsi xalqımızın öz liderinə ehtiram və sevgisinin növbəti sübutu oldu. Seçkilərin nəticələri Azərbaycan xalqının liderinə inamını bir daha təsdiqlədi. Aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları təbrik məktublarında yer alan səmimi ifadələr də dövlət başçımızın qlobal miqyasda nüfuzlu siyasətçi olmasının nümayişi idi.

Prezident İlham Əliyevin seçki platformasında qarşıya qoyulmuş hədəflər - hər bir vətəndaşın rifahının davamlı yaxşılaşdırılması, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan dayanıqlı iqtisadi artım, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış, milli maraqlara söykənən müstəqil xarici siyasət, milli təhlükəsizlik və müasir ordu quruculuğu, innovativ təhsil, qabaqcıl səhiyyə, milli köklərə bağlı, vətənpərvər gəncliyin inkişafı, demokratik inkişaf, insan hüquq və azadlıqlarının təmin edilməsi kimi prinsiplər dövlətimizin başçısının Azərbaycanın dayanıqlı inkişafı naminə strateji məqsədlərini bir daha ortaya qoyur.

Ölkəmiz üçün ən mühüm siyasi hadisələrdən biri olan Zəfər seçkisindən sonrakı 2 il ərzində Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Prezident İlham Əliyevin iqtisadi siyasəti dayanıqlı inkişaf və şaxələndirmə prinsipləri üzərində qurulub. Enerji sahəsinin imkanlarından səmərəli istifadə ilə yanaşı, qeyri-neft sektorunun inkişafı strateji prioritetlərdən biri olaraq müəyyənləşdirilib. İqtisadiyyatda qeyri-neft sektorundan asılılığın ilbəil azaldılması da məhz bu siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. Bu isə öz növbəsində ölkənin iqtisadi təhlükəsizliyini möhkəmləndirmiş və uzunmüddətli perspektivdə sabit iqtisadi inkişaf modelinin bərqərar olmasına imkan vermişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verdi. Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə, nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillikdir, iqtisadi gücümüzdür və siyasi iradədir".

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dövlətimizin başçısının xalqa müraciətində iqtisadi sahədə əldə edilmiş nəticələr xüsusi yer tutmuşdu. Hazırda valyuta ehtiyatlarımızın 80 milyard dolları ötərək tarixi maksimum səviyyəyə çatması və xarici borcumuzdan 16 dəfə çox olması, xarici borcun ÜDM-in 6,3 faizini təşkil etməsi məhz uğurlu iqtisadi siyasətin göstəricisi olmaqla, ölkənin maliyyə dayanıqlılığını və iqtisadi müstəqilliyini nümayiş etdirir. Bu göstəricilər beynəlxalq reytinq agentlikləri tərəfindən də müsbət qiymətləndirilib və Azərbaycanın kredit reytinqi yüksəldilib.

Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla da ədaləti bərpa etmiş və beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərini təmin etmiş qalib dövlət olan Azərbaycan, eyni zamanda vətəndaşlarının sosial rifahının yüksəldilməsi istiqamətində mühüm irəliləyişlərə yol açan səmərəli sosial siyasət yürüdür. Həyata keçirilən sosial siyasət hər bir vətəndaşın həyat səviyyəsinin yüksəlməsinə, Azərbaycanın sosial dövlət kimi mövqeyinin möhkəmlənməsinə xidmət edir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik.

Son yeddi il ərzində ümumilikdə 5 sosial islahat paketi icra olunub. Bu islahatların əhatə dairəsi 4 milyon insandır və təqribən 8 milyard manata yaxın olan vəsaitdir. Qeyd edilən sosial islahat paketləri əməkhaqqı, pensiya və digər sosial ödənişlərdə ciddi artımlara, o cümlədən minimum əməkhaqqında 3,1 dəfə, orta aylıq əməkhaqqında 2 dəfə, minimum pensiyada 3 dəfəyə yaxın, orta aylıq pensiyada 2,6 dəfə, sosial müavinət, təqaüd ödənişləri üçün ayrılan illik vəsaitdə 5 dəfə, ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləği 2,4 dəfə artıma imkan verib.

Ölkə əhalisinin, xüsusilə aztəminatlı ailələrin sosial rifah halının yüksəldilməsini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" 2025-ci il 22 dekabr tarixli sərəncamı ilə 2025-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 manat məbləğində birdəfəlik maddi yardım verilməsi ilə bağlı qərar qəbul edib. 76 min ailəni, o cümlədən 335 min 200 nəfər ailə üzvünü əhatə edən bu sərəncamın aztəminatlı ailələrin sosial müdafiəsi baxımından mühüm əhəmiyyəti var.

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərin bərpa və yenidən qurulması qarşıda duran əsas hədəflərdəndir və hazırda bu ərazilərdə irimiqyaslı layihələr gerçəkləşdirilməkdədir. Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" sərəncamı və Böyük qayıdışın davamlılığının təmin edilməsi məqsədilə 2025-ci il 30 may tarixində imzaladığı sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanması üçün tapşırıq verilməsi bu məqsədə xidmət edir. Dövlət proqramında Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən layihələr postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir. Ümumilikdə, 2020-ci ildən bəri 2026-cı ildə daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpasına büdcədən 25 milyard manatdan çox vəsait ayrılıb. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına əsaslanan layihələr regionda dayanıqlı məskunlaşma modelinin formalaşdırılmasına xidmət edir. Müasir avtomobil yolları, beynəlxalq hava limanları, enerji və kommunikasiya xətləri inşa olunub, yaşayış məntəqələrinin yenidən qurulması istiqamətində mühüm addımlar atılıb. Füzuli, Zəngilan və Laçında tikilmiş beynəlxalq hava limanları regionun nəqliyyat-logistika imkanlarını genişləndirərək iqtisadi fəallığın artmasına əlavə stimul verib.

Beynəlxalq müstəvidə uğurla gerçəkləşdirilən prinsipial və müstəqil xarici siyasət kursu dövlətimizin nüfuzunu davamlı olaraq artırır. Dünyanın əksər ölkəsi ilə istər ikitərəfli, istərsə də çoxtərəfli formatda qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsipləri üzərində qurulan əlaqələrimiz öz bəhrəsini verməkdədir.

Azərbaycan hazırda qardaş türk dövlətləri ilə uğurlu əməkdaşlığı davam etdirir. Prezident İlham Əliyevin yeni dövrdə ölkəmizin xarici siyasət kursunun prioritetlərindən biri kimi türk dövlətləri ilə inteqrasiyanın dərinləşdirilməsinin zəruriliyini önə çəkməsi xüsusi əhəmiyyət kəsb edir. Andiçmə mərasimində dövlətimizin başçısının vurğuladığı kimi, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimiz davam etdiriləcək və bu təşkilat bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz davam edir və əsas hədəf Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilməsidir.

Ümumi evimiz olan Yer kürəsində iqlim dəyişikliyinin əsas çağırışlardan birinə çevrildiyi bir dönəmdə ölkəmizin milli prioritetləri sırasında "yaşıl gündəliy"in yer alması və 2023-cü ilin dekabr ayında 200-dək ölkənin yekdil qərarı ilə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına 2024-cü ildə uğurlu evsahibliyi etməsi dövlətimizin qlobal problemlərin həllində mühüm aktorlardan birinə çevrildiyini bir daha nümayiş etdirdi. Beynəlxalq miqyasda ən mötəbər tədbirlərdən biri olan COP29-un Azərbaycanda keçirilməsi, eyni zamanda tədbirdə 196 ölkəni təmsil edən 76 min iştirakçının qeydiyyata alınması və 80 prezident, vitse-prezident və baş nazirin sammitdə iştirak etməsi müdrik liderimizin rəhbərliyi ilə ölkəmizin beynəlxalq müstəvidəki növbəti böyük siyasi qələbəsi, nəhəng diplomatik uğuru oldu. Sessiyanın yekununda qəbul edilən qərarlar - Bakı Maliyyə Məqsədi, Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsi, İtki və Zərər Fondunun institutlaşdırılmasının yekunlaşması, Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması və digər vacib nəticələr bəşəriyyətin gələcəyi üçün müstəsna əhəmiyyət daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu, bu kimi nəhəng tədbirlərin keçirilməsində yüksək təşkilatçılıq qabiliyyətini bir daha təsdiqlədi.

Xüsusilə qeyd edilməlidir ki, ölkəmiz sədrlik etdiyi və ya üzv qəbul olunduğu beynəlxalq təşkilatlarda daim öz fəallığı ilə seçilmiş və bu təşkilatların fəaliyyətinə əhəmiyyətli töhfə vermişdir. Bu baxımdan, ölkəmizin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi, 2025-ci ildə inkişaf etməkdə olan səkkiz islam ölkəsini birləşdirən D-8 beynəlxalq təşkilatına üzv qəbul edilməsi, Orta Asiya ölkələrinin Məşvərət Şurasında tamhüquqlu üzv statusu qazanması Azərbaycanın beynəlxalq nüfuzunun artdığını göstərir və qeyd olunan təşkilatların fəaliyyətinin intensivləşməsində vacib rol oynayacağı şübhə doğurmur.

2025-ci ildə Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya istiqamətinin intensivləşməsi xüsusi əhəmiyyət kəsb etdi. Tarixi, mədəni və strateji bağlara əsaslanan bu münasibətlər artıq institusional əməkdaşlıq mərhələsinə keçib. Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünün yekun bəyanatında vurğulandığı kimi, "Mərkəzi Asiya və Azərbaycan Respublikası dövlətlərinin möhkəm dostluq əlaqələri, qarşılıqlı faydalı tərəfdaşlıq və strateji maraqlarını nəzərə alaraq, tərəflər Azərbaycan Respublikasının Mərkəzi Asiyanın dövlət başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakını alqışlayırlar". Bu qərar Azərbaycanın Mərkəzi Asiya regionunun siyasi, iqtisadi və nəqliyyat-logistika proseslərinin ayrılmaz hissəsinə çevrildiyini təsdiqləyir. Azərbaycan Xəzər hövzəsində yerləşən aparıcı dövlətlərdən biri kimi, Mərkəzi Asiya ölkələri üçün Avropaya çıxış qapısı rolunu oynayır. Orta dəhliz layihəsi çərçivəsində Çin-Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz-Avropa xətti üzrə yükdaşımaların artması Azərbaycanın strateji əhəmiyyətini daha da gücləndirir. Bu əməkdaşlıq regionlararası inteqrasiyanın real mexanizminə çevrilir və Prezident İlham Əliyevin uzaqgörən xarici siyasət kursunun mühüm nəticələrindən biri kimi çıxış edir.

Ermənistanla Azərbaycan arasında normallaşma prosesində önəmli razılaşmalar əldə edilməsi baxımından 2025-ci il xüsusilə tarixi dönüş ili hesab edilə bilər. Sülh gündəliyinin formalaşmasında ölkəmizin, şəxsən Prezident İlham Əliyevin rolu əvəzsizdir. 2025-ci ilin mart ayında razılaşdırılan 17 maddədən ibarət sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanıb və əsas kimi ölkəmizin irəli sürdüyü 5 baza prinsipi üzərində formalaşıb.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra Prezident İlham Əliyev tərəfindən irəli sürülən sülh gündəliyi, normallaşma prosesi ilə bağlı ölkəmiz tərəfindən atılan addımlar son nəticədə 8 avqust tarixdə Vaşinqtonda ABŞ Prezidentinin vasitəçiliyi və şahidliyi ilə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması və ATƏT-in Minsk qrupu və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubunun ünvanlanmasından sonra, 2025-ci il noyabrın 30-da saat 23:59-da bu səmərəsiz strukturların ləğv olunması ilə nəticələndi. Bu isə öz növbəsində, ümumilikdə regionumuzda sülh və sabitliyin, inklüziv inkişafın təmin olunması üçün əlverişli şərait yaratdı. Vaşinqton görüşü çərçivəsində imzalanmış Birgə Bəyannamə Azərbaycanın, Prezident İlham Əliyevin növbəti qələbəsi idi və məhz dövlətimizin başçısının qətiyyətli mövqeyi sayəsində milli maraqlarımıza xidmət edən müddəalar bəyannamədə öz əksini tapdı. Həmçinin Zəngəzur dəhlizinin açılması artıq reallığa çevrilir. Prezident İlham Əliyev daim vurğulayırdı ki, Zəngəzur dəhlizi açılmalıdır və açılacaq. Azərbaycan Vaşinqtonda bu məqsədinə də nail oldu. Vaşinqtonda imzalanmış Birgə Bəyannamə ilə regionda Azərbaycanın yaratdığı status-kvo bir daha təsbit olundu, beynəlxalq ictimaiyyət, o cümlədən ABŞ yeni reallığı qəbul etdi.

Azərbaycanın sülh təşəbbüsləri təkcə siyasi-hüquqi normaların müəyyənləşdirilməsi ilə məhdudlaşmır. Bu təşəbbüslər həm də regionun iqtisadi xəritəsinin yenilənməsi, inteqrasiya layihələrinin genişləndirilməsi və yeni nəqliyyat-kommunikasiya bağlantılarının qurulması baxımından geniş perspektivlər yaradır. Cənubi Qafqaz qitələrarası nəqliyyat yollarının kəsişməsində yerləşən mühüm regiondur və xüsusi olaraq vurğulanmalıdır ki, bu bölgənin aparıcı və lider dövləti olan Azərbaycan son illər ərzində qlobal logistika xəritəsində strateji tranzit ölkə kimi çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Trans-Xəzər marşrutu, Orta dəhliz kimi irimiqyaslı layihələr Azərbaycanın regiondakı rolunu gücləndirib, ölkəmizi enerji və nəqliyyat bağlantılarının etibarlı mərkəzinə çevirib. Ermənistanla sülhün təmin olunması bu layihələrin daha da genişlənməsinə, regionun bütövlükdə Avrasiya nəqliyyat şəbəkəsinə inteqrasiyasına, iqtisadi əməkdaşlığın yeni mərhələyə keçməsinə imkan verəcək. Bu isə öz növbəsində təkcə Azərbaycan üçün deyil, Ermənistan, Gürcüstan, Türkiyə, hətta İran və Mərkəzi Asiya ölkələri üçün də əlavə iqtisadi üstünlüklər yaradacaq, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat qovşağında yerləşən Cənubi Qafqazı beynəlxalq ticarətin daha mühüm halqasına çevirəcək. Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti, beynəlxalq oyunçularla qarşılıqlı hörmətə və milli maraqlara əsaslanan səmərəli əməkdaşlıq qurmaq bacarığı proseslərin bu şəkildə inkişafında əvəzsiz rol oynayıb.

2025-ci ilin əsas nailiyyətlərindən biri kimi Azərbaycan-ABŞ münasibətlərində əldə olunmuş tarixi uğur xüsusilə qeyd edilməlidir. Vaşinqton səfərinin nəticəsi olaraq Azərbaycan-ABŞ münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoymaqla, enerji, nəqliyyat, ticarət, investisiya, süni intellekt, texnoloji infrastruktur və təhlükəsizlik sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına geniş imkanlar açdı. Səfər çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlığın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun təsis edilməsinə dair müvafiq sənədin imzalanması, 907-ci düzəlişin tətbiqinin dayandırılması ilə bağlı qərar qəbul edilməsi Prezident İlham Əliyevin son dərəcə uğurlu xarici siyasət kursunun təntənəsi olaraq qiymətləndirilməlidir.

Vaşinqton səfərini Azərbaycan-ABŞ münasibətlərinin bir sıra vacib istiqamətlər üzrə inkişaf etdirilməsi üçün ən uğurlu səfərlərdən hesab etmək olar. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaşa çevrilməsini, müstəqil, balanslı və prinsipial xarici siyasət kursu yürütməsini nəzərə alsaq, ABŞ-nin Cənubi Qafqaz və Mərkəzi Asiyaya yönəlik siyasətində və planlarında ölkəmizin rolunun əhəmiyyətli dərəcədə artacağı ehtimalı yüksəkdir. Bu səfər Azərbaycanın ABŞ üçün enerji və nəqliyyat qovşağı kimi əhəmiyyətini möhkəmləndirməklə yanaşı, beynəlxalq güc mərkəzlərinin rəsmi Bakıya diqqətini daha da artıracaq. Vaşinqtonun Bakı ilə əlaqələri gücləndirməsi, Cənubi Qafqazda sülh təşəbbüsünün dəstəklənməsi və postmünaqişə mərhələsində iqtisadi inteqrasiyanın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu səfər həmçinin regionda geosiyasi güc balansına təsir edəcək mühüm diplomatik addım kimi dəyərləndirilməlidir.

Azərbaycan və ABŞ liderlərinin praqmatik və prinsipial mövqe sərgiləməsi, oxşar dəyərləri üstün tutması münasibətlərin gələcək inkişafında mühüm rol oynaya bilər. Məhz bu kimi amillər Azərbaycan-ABŞ münasibətlərinin qarşıdan gələn illərdə yüksələn xətlə inkişaf edəcəyini deməyə əsas verir. Azərbaycan və ABŞ arasında aparılan səmərəli müzakirələr qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı və iştirakçısı olan ölkəmizə siyasi və iqtisadi dividendlər gətirməklə yanaşı, ölkəmizin regional liderliyini və beynəlxalq nüfuzunu, regional təhlükəsizlik arxitekturasında rolunu, diplomatik manevr imkanlarını daha da artıracaq, Qərb diplomatiyası istiqamətində mövqeyini daha da gücləndirəcək.

Prezident İlham Əliyevin mükəmməl liderlik bacarığı, xalq-iqtidar və vətəndaş-dövlət birliyinin, beynəlxalq platformalarda son dərəcə məharətli, uzaqgörən və milli maraqlara əsaslanan diplomatik fəaliyyətin nümunəvi modeli sayəsində son 2 il Azərbaycanın şanlı inkişaf tarixinə daha bir qürurverici dövr olaraq yazılmışdır.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# Xalq-Prezident birliyi möhtəşəm uğurlara yol açıb

**Fevralın 14-ü Azərbaycan üçün həm rəmzi, həm də tarixi əhəmiyyəti ilə seçilən bir gündür. Həmin gün ölkənin ali rəhbəri, Müzəffər Ali Baş Komandan və dünyada sözünün bütövlüyü, qətiyyəti ilə seçilən və hörmət edilən nüfuzlu dövlət xadimi İlham Əliyevin növbəti prezidentlik dövrünün başlanğıcı kimi yaddaşlara yazıldı. Cənab İlham Əliyevin andiçmə mərasimi yalnız konstitusion prosedur deyil, müstəqil Azərbaycanın son illərdə inkişaf yolunun siyasi hesabatı və yeni mərhələnin başlanğıcının manifesti kimi qiymətləndirilməlidir.**



Azərbaycanın zəfərlə başa çatan mübarizə mərhələsindən quruculuq və qlobal təşəbbüskarlıq mərhələsinə keçidi məhz bu çıxışda aydın konturlarla ifadə olundu. Burada dövlətin gücünün mənbəyi göstərilməklə gələcəyin prioritetləri müəyyən edildi. Bu baxımdan həmin mərasim təkcə bir siyasi hadisə deyil, Azərbaycan tarixində yeni dövrün ideoloji və strateji başlanğıc nöqtəsi kimi dəyərləndirilə bilər.

Birmənalı şəkildə qeyd edə bilərik ki, cənab İlham Əliyevin xarakterindəki qətiyyət, prinsipiallıq və xalqına olan dərin inam onun siyasətinin əsasını təşkil edir. Hakimiyyətə gəldiyi ilk günlərdən etibarən dövlətimizin başçısı açıq bəyan etmişdir ki, Azərbaycan xalqı öz torpaqlarının bir qarışını belə heç kimə güzəştə getməyəcək, öz torpaqlarını azad edəcək. Bunun üçün ölkənin güclü iqtisadiyyatı, möhkəm ordusu və strateji diplomatiyası olduğunu əsas götürən dövlətimizin başçısı bütün fəaliyyətini məhz bu prinsip üzərində quraraq hər bir addımını və strategiyasını Azərbaycanın müstəqilliyi və xalqının təhlükəsizliyi üçün istiqamətləndirdi.

Ötən illər ərzində İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi və hərbi sahələrində regionun lider dövləti kimi mövqeyinin möhkəmləndirilməsi istiqamətində ciddi addımlar ataraq, ölkəmizi dünya arenasında ləyaqətlə təmsil etmişdir. Bu illər ərzində qazanılan tarixi zəfərlər, işğaldan azad edilmiş torpaqlar və ordumuzun döyüş meydanındakı qətiyyətli qələbəsi, 44 günlük Vətən müharibəsində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etməsi, İlham Əliyevin uzaqgörənliyinin, strateji düşüncəsinin və sarsılmaz iradəsinin ən parlaq nümunəsidir.

2024-cü ilin Zəfər seçkisi sadəcə siyasi bir hadisə deyildi. Bu, dövlətimizin başçısının xalqın qarşısında gördüyü işlərin hesabatı, xalqın isə ona olan sevgisinin, etimadının və dəstəyinin açıq ifadəsi idi. Bu illər Azərbaycan xalqının iradəsi ilə Prezidentin liderliyinin və qətiyyətinin birləşdiyi, dövlətçilik maraqlarının hər zaman ön planda saxlandığı bir dövr kimi tarixə düşdü. Cənab İlham Əliyev sözlə deyil, əməli fəaliyyəti ilə təsdiq etmişdir ki, Azərbaycan xalqının, dövlətinin maraqları onun üçün hər zaman hər şeydən üstündür. Onun qətiyyətli, uzaqgörən və prinsipial rəhbərliyi Azərbaycanı bu gün müstəqil, güclü və etibarlı dövlət kimi dünya xəritəsində möhkəmləndirmişdir.

Növbəti andiçmə mərasiminə sadəcə hakimiyyətin davamlılığı kimi yanaşmaq hadisənin mahiyyətini kiçiltmək olardı. Əslində, burada söhbət bir dövrün yekunlaşmasından və başqa bir tarixi mərhələnin başlanmasından gedir. 2003-cü ildən bu günə qədər formalaşan siyasi kurs, iqtisadi inkişaf modeli, hərbi quruculuq strategiyası və milli birlik konsepsiyası artıq öz real nəticəsini verərək Azərbaycanı regionun güc mərkəzinə çevirmişdir. Bu baxımdan, andiçmə mərasimi həm siyasi sabitliyin təsdiqi, həm də gələcəyin proqram sənədinin müəyyənləşdirilməsi idi. Səslənən fikirlər keçilmiş yolun xronikası olmaqla yanaşı, qarşıdakı illərin strateji xəritəsini də müəyyən edirdi.

Fevralın 14-ü həm də bir xatırlatmadır: Azərbaycan xalqı və onun Ali Baş Komandanı birlikdə güclü, əzmkar və məqsədyönlüdür. Bu gün biz yalnız tarixə nəzər yetirmirik, gələcəyə, müstəqil, ləyaqətli, etibarlı və parlaq Azərbaycanın perspektivinə baxırıq.

Cənab İlham Əliyevin təkrar prezident seçilməsi yalnız seçkinin nəticəsi deyil, bu, xalqın dövlət başçısına verdiyi siyasi etimadın, görülən işlərin dəyərləndirilməsinin və gələcəyə olan inamın ifadəsi idi. Bu etimadın əsasını son illər həyata keçirilən böyük layihələr, bərpaolunan ərazilər, güclənən ordu və müstəqil xarici siyasət xətti təşkil edir.

2003-cü ildə siyasi sabitliyin qorunması, iqtisadi inkişafın təmin edilməsi, sosial rifahın yüksəldilməsi, ən əsası, ərazi bütövlüyünün bərpası qarşıda duran başlıca vəzifələr idi. Bu, dövlətin konkret planlı və mərhələli strategiyası idi. Sözsüz ki, güclü iqtisadiyyat olmadan güclü ordu qurmaq mümkün deyildi. Güclü diplomatiya olmadan beynəlxalq dəstək və neytrallıq təmin edilə bilməzdi. Daxili sabitlik olmadan isə heç bir milli məqsəd reallaşmır. Məhz bu ardıcıl məntiq bizi 2020-ci ildə tarixi Zəfərə gətirib çıxardı. Azərbaycan dövləti illər boyu iqtisadi resurslarını gücləndirdi, ordu quruculuğuna investisiya yatırdı, hərbi sənayeni inkişaf etdirdi və diplomatik müstəvidə mövqelərini möhkəmləndirdi. Müharibə başladığı gün Azərbaycan artıq zəif tərəf deyildi. O, regionun ən güclü iqtisadiyyatına, müasir ordusuna və möhkəm siyasi iradəyə malik dövlət idi. Qələbə yalnız hərbi üstünlük deyil, həm də siyasi liderliyin, xalq-ordu birliyinin və milli həmrəyliyin təntənəsi idi. Ərazi bütövlüyünün bərpası ilə Azərbaycan yeni, işğaldan azad olunan ərazilərimizdə quruculuq mərhələsinə qədəm qoydu.

Azad edilmiş ərazilərdəki mənzərə yalnız fiziki dağıntı deyildi. Bu, illərlə aparılmış vandalizmin nəticəsi idi. Şəhərlər, kəndlər, tarixi abidələr, məscidlər və qəbiristanlıqlar dağıdılmışdı. Buna baxmayaraq, Prezident İlham Əliyev siyasətini intiqam üzərində deyil, quruculuq üzərində qurdu.

Prezident İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlər tarixi zəfərin fəlsəfəsini ortaya qoyur: "İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir... Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur". Dövlətimizin başçısının ilk gündən qarşıya qoyduğu əsas vəzifə - ölkəmizin ərazi bütövlüyünün bərpası, qətiyyətli siyasət, güclü iqtisadi təməl və möhkəm ordu quruculuğu sayəsində reallığa çevrildi. Məhz iqtisadi gücün artması, sosial proqramların genişlənməsi, vətəndaş rifahının yüksəlməsi, infrastruktur layihələrinin uğurla icrası Azərbaycanı böyük Zəfərə aparan strateji dayaqlar oldu.

Cənab İlham Əliyevin andiçmə mərasimində vurğuladığı kimi: "Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir… bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir". Həqiqətən də bu gün azad edilmiş torpaqlarda həyata keçirilən genişmiqyaslı quruculuq işləri miqyasına və tempinə görə dünya təcrübəsində nadir nümunələrdəndir. Qısa zaman ərzində işğaldan azad edilmiş ərazilərdə müasir infrastruktur qurulmuş, beynəlxalq hava limanları istifadəyə verilmiş, yollar, tunellər, elektrik stansiyaları, məktəblər və xəstəxanalar inşa edilmiş, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri reallaşdırılmışdır. Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlər doğma yurdlarına dönür, bir zamanlar xarabalığa çevrilmiş şəhər və kəndlər yenidən dirçələrək əsl cənnət məkanına çevrilir. Bu gün Qarabağ və Şərqi Zəngəzur yalnız bərpaolunan ərazi deyil, həm də turistlərin və xarici qonaqların görmək istədiyi müasir, abad və təhlükəsiz bölgədir. Vaxtilə separatizm yuvası kimi təqdim edilən Xankəndi artıq yeni inkişaf mərhələsinə qədəm qoyaraq tələbə şəhəri statusu qazanmış, elm və təhsilin mərkəzinə çevrilməkdədir. Bütün bunlar Azərbaycanın siyasi iradəsinin, iqtisadi gücünün və milli həmrəyliyinin təntənəsidir.

Müasir dünya yeni çağırışlarla üz-üzədir. Enerji təhlükəsizliyi və ekoloji davamlılıq artıq qlobal siyasətin əsas istiqamətlərindəndir. Azərbaycan isə bu prosesdə passiv müşahidəçi deyil, fəal iştirakçıdır. Prezident İlham Əliyevin andiçmə mərasimində vurğuladığı kimi, "2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri yaradılmalıdır" hədəfi artıq real layihələr və konkret müqavilələrlə gerçəkləşməkdədir. Qarabağın "yaşıl enerji zonası" elan edilməsi strateji qərardır. Günəş, külək və su-elektrik stansiyalarının qurulması ölkənin enerji balansını şaxələndirir və gələcək nəsillər üçün dayanıqlı model formalaşdırır.

2030-cu ilə qədər minlərlə meqavat bərpaolunan enerji gücünün yaradılması planı Azərbaycanın yalnız enerji ixracatçısı deyil, həm də "yaşıl transformasiya"nın iştirakçısı olduğunu göstərir. Bu siyasət iqtisadi gəlir, ekoloji məsuliyyət və texnoloji inkişafın sintezidir.

Güclü dövlət güclü iqtisadiyyata söykənir. Son illər həyata keçirilən islahatlar Azərbaycan iqtisadiyyatını daha şaxəli və davamlı etmişdir. Neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafı, sənayeləşmə siyasəti və kənd təsərrüfatının modernləşdirilməsi ölkənin iqtisadi dayaqlarını möhkəmləndirib. Regionların sosial-iqtisadi inkişaf proqramları infrastrukturun yenilənməsinə, yeni iş yerlərinin açılmasına və əhalinin rifahının yüksəlməsinə xidmət edir. Sosial layihələr - maaş və pensiyaların artırılması, şəhid ailələrinə və qazilərə göstərilən dəstək dövlət siyasətinin insan mərkəzli olduğunu göstərir. İqtisadi sabitlik siyasi müstəqilliyin əsas şərtidir. Azərbaycan bu balansı qorumağı bacaran nadir ölkələrdəndir.

Qloballaşan dünyada milli kimliyin qorunması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dövləti modernləşmə ilə milli-mənəvi dəyərlərin vəhdətini təmin etməyi bacarıb. Ailə institutu, milli adət-ənənələr, dini tolerantlıq və multikultural dəyərlər cəmiyyətin ideoloji dayağıdır. Gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi, tarixə və milli kimliyə bağlılığın qorunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Xalq-Prezident birliyi məhz bu dəyərlər üzərində formalaşıb. 44 günlük müharibə dövründə cəmiyyətin bir amal ətrafında birləşməsi bunun ən parlaq sübutu oldu.

Azərbaycan xarici siyasətdə praqmatik və balanslı xətt yürüdür. Müxtəlif siyasi qütblər arasında körpü rolunu oynamaq bacarığı ölkənin beynəlxalq nüfuzunu artırıb. Azərbaycan həm Şərq, həm Qərb, həm də regional tərəfdaşlarla qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurur. Bu siyasət asılılıq deyil, milli maraqlara əsaslanan müstəqil qərarvermə modelidir. Beynəlxalq təşkilatlarda fəal iştirak, qlobal tədbirlərə evsahibliyi və humanitar təşəbbüslər ölkəmizin diplomatik çəkisini artırıb. Azərbaycan artıq təkcə regional deyil, qlobal proseslərdə də söz sahibi olan dövlətdir.

Prezident İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi "Biz çox güclü hərbi sənaye kompleksi yaradırıq… siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq" fikirləri Azərbaycanın müdafiə strategiyasının mahiyyətini aydın şəkildə ortaya qoyur. Müharibədən sonra da ordu quruculuğu prosesi dayanmadı. Yeni hərbi hissələr, "Komando" birlikləri, müdafiə sənayesinin genişləndirilməsi və müasir texnologiyaların tətbiqi Azərbaycanın təhlükəsizlik strategiyasının davamlı olduğunu göstərir.

Hərbi güc təcavüz üçün deyil, sülhün qorunması üçün əsas vasitədir. Güclü ordu regionda sabitliyin təminatçısına çevrilir. Prezident İlham Əliyevin andiçmə mərasimində vurğuladığı kimi, Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Prezidentin "Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir" fikirləri ölkəmizin artan geostrateji əhəmiyyətini bir daha ifadə edir. İftixarla qeyd edə bilərik ki, Azərbaycan coğrafi mövqeyini strateji üstünlüyə çevirə bilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəni beynəlxalq tranzit mərkəzinə çevirir. Bu bir həqiqətdir ki, Bakı limanı, dəmir yolu layihələri və logistika infrastrukturu regionun iqtisadi xəritəsini dəyişir. Bu layihələr təkcə iqtisadi deyil, həm də siyasi əhəmiyyət daşıyır. Azərbaycan qlobal ticarət zəncirində mühüm halqaya çevrilir və regional əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir.

2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirləri ilə Azərbaycanın suverenliyi tam bərpa olundu. Bu hadisə uzun illər davam edən münaqişə mərhələsinin hüquqi və siyasi cəhətdən tamamilə bağlanması demək idi. Artıq ölkə qarşısında duran əsas vəzifə postmünaqişə dövrünün quruculuq və inteqrasiya mərhələsini uğurla başa çatdırmaqdır. Dövlətin məqsədi bölgədə davamlı sülhün və sabitliyin təmin olunmasıdır.

Andiçmə mərasimində səslənən fikirlər bir daha göstərdi ki, qarşıdakı illərin əsas prioritetləri aydındır - Qarabağın tam bərpası, "yaşıl enerji" strategiyasının genişləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, hərbi modernləşmənin davamı, milli-mənəvi dəyərlərin qorunması. Bu prioritetlər Azərbaycanın uzunmüddətli inkişaf modelini formalaşdırır.

Son illərin təcrübəsi göstərdi ki, səbir, siyasi qətiyyət və milli birlik böyük nəticələr doğurur. Azərbaycan bu illər ərzində münaqişə vəziyyətində olan ölkədən qalib dövlətə, regional iştirakçıdan regional liderə çevrildi.

Bu gün Azərbaycan güclü iqtisadiyyata, müasir orduya, bərpaolunan torpaqlara, artan beynəlxalq nüfuza, ən əsası, öz liderinə inanan xalqa malikdir. Xalq-Prezident birliyi isə bütün bu uğurların əsas təminatıdır. Tarix artıq öz hökmünü verib - Azərbaycan qalib dövlətdir. İndi isə qarşıda duran vəzifə bu qələbəni davamlı inkişaf, sosial rifah və uzunmüddətli sabitliklə möhkəmləndirməkdir. Bu yol inam yoludur. Bu yol quruculuq yoludur. Bu yol güclü və suveren Azərbaycanın yoludur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Yeni dövrün hədəfləri reallıqda öz təsdiqini tapır

**Zəfər seçkisindən ötən iki il Azərbaycanın dövlətçilik salnaməsində yeni və mühüm nailiyyətlərin əldə olunduğu mərhələ kimi dəyərləndirilməlidir. Bu müddət ərzində ölkəmiz həm daxili inkişaf, həm də xarici siyasət müstəvisində yeni zirvələr fəth edib, möhkəmlənən suverenliyini real nəticələrlə təsdiqləyib.**

Prezident İlham Əliyevin şəxsi əzmi, qətiyyəti və siyasi iradəsi nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə milli maraqlarımız qətiyyətlə təmin olunub, dövlətimizin beynəlxalq nüfuzu daha da artıb. İndi Azərbaycan təkcə Cənubi Qafqazın aparıcı aktoru deyil, həm də qlobal müstəvidə söz sahibi olan güclü və etibarlı tərəfdaş kimi qəbul edilir. Parçalanmış və ziddiyyətlərlə dolu beynəlxalq mühitdə balanslaşdırılmış siyasət yürüdərək bütün qütblərlə eyni məsafədə dayanmaq bacarığı məhz Prezident İlham Əliyevin məharətli diplomatiyasının nəticəsidir.

Geosiyasi prosesləri dərindən təhlil edən dövlət başçısı praqmatik və uzaqgörən addımları ilə ölkəmizə ardıcıl tarixi qələbələr qazandırıb.

## Zəfər seçkisindən inkişaf zirvəsinə

Təsadüfi deyil ki, 2024-cü il 7 fevral tarixində keçirilən prezident seçkilərində xalq növbəti dəfə İlham Əliyevə yüksək etimad göstərdi. Bu seçkilər bütöv Azərbaycanda keçirilən Zəfər seçkisi kimi tarixə düşdü. Müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzurda vətəndaşlarımız səsvermədə iştirak etdilər. Xankəndidə səs verən dövlət başçısının bu addımı isə həm siyasi, həm də rəmzi baxımdan xüsusi məna daşıyırdı.

Zəfər seçkisi ilə ölkəmizin həyatında daha bir mərhələ uğurla başa çatdı, yeni hədəflərə istiqamətlənən yeni dövr başlandı. 2024-cü il fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər bu mərhələnin ideya-siyasi mahiyyətini aydın ifadə edirdi: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur".

Ötən iki ildə bu fikirlərin real nəticələrdə öz əksini tapdığını görürük. Andiçmə mərasimində qarşıya qoyulan prioritetlərdən biri Ordunun və Silahlı Qüvvələrin daha da gücləndirilməsi idi. Bu istiqamətdə mühüm addımlar atılıb, sərhədlərimizin mühafizəsi daha da möhkəmləndirilib.

Dövlət başçısının həmin mərasimdə vurğuladığı digər mühüm məsələ milli birliyin qorunması və gənc nəslin milli-mənəvi dəyərlər əsasında formalaşdırılması idi: "Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır... ...Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun".

Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində həyata keçirilən genişmiqyaslı quruculuq işləri artıq real nəticələr verir. Bu gün işğaldan azad olunmuş ərazilərdə 27 mindən çox keçmiş məcburi köçkün 8 şəhər, 3 qəsəbə və 26 kənddə məskunlaşdırılıb. İnfrastruktur layihələri, sosial obyektlərin tikintisi və iqtisadi fəaliyyətin bərpası həmin bölgələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.

İqtisadiyyatın şaxələndirilməsi, yoxsulluq və işsizliklə mübarizə, şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi də prioritet istiqamətlər kimi diqqət mərkəzində saxlanılıb.

Bərpaolunan enerji sahəsində mühüm layihələr həyata keçirilib, Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayı artaraq 16-ya çatıb. Onların 11-nin NATO üzvü olması ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rolu daha da artırır.

Nəqliyyat və logistika imkanlarının genişləndirilməsi nəticəsində Azərbaycan artıq qlobal nəqliyyat mərkəzlərindən biri kimi qəbul edilir. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji coğrafi mövqe real iqtisadi üstünlüyə çevrilib.

## Sülh və əməkdaşlıq

Son iki ilin mühüm nəticələrindən biri Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün yaranan yeni imkanlardır. Ötən il 8 avqust tarixində Vaşinqtonda Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin mətninin paraflanması və əldə olunan razılaşmalar bölgədə yeni reallıq yaratdı. Zəngəzur dəhlizinin (TRIPP -The Trump route for international peace and prosperity) açılması ilə bağlı razılaşma regionun iqtisadi gələcəyinə mühüm töhfədir və kommunikasiyaların bərpası ümumi rifaha xidmət edir.

Xarici siyasətdə də Azərbaycan mühüm nailiyyətlər qazanıb. Çin və ABŞ kimi qlobal güclərlə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi dövlətimizin artan nüfuzunun göstəricisidir.

Ötən il Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanması böyük uğurdur.

Eləcə də bu il fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması çoxşaxəli və balanslı diplomatiyanın mühüm nəticəsidir.

Fevralın 10-da ABŞ-nin vitse-prezidenti Cey.Di.Venslə birgə mətbuata bəyanat zamanı Prezident İlham Əliyev dedi: "Bizim üçün dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik".

Beynəlxalq təşkilatlar çərçivəsində də fəallıq artıb. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən XII Zirvə Görüşü əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm mərhələ olub.

Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi, həmçinin Orta Asiya ölkələrinin Məşvərət Şurasında tamhüquqlu üzv statusu qazanması ölkəmizə göstərilən etimadın göstəricisidir.

Qeyd edək ki, 8 böyük müsəlman ölkəsini birləşdirən və 30 ilə yaxın fəaliyyət göstərən bu təşkilata ötən illər ərzində əlavə üzv qəbul edilməmişdi və birinci genişlənmə qərarından sonra qəbul edilən üzv məhz Azərbaycan oldu.

BMT Baş Assambleyasının 80-ci sessiyası, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı və digər beynəlxalq platformalarda Prezident İlham Əliyev tərəfindən səsləndirilən mesajlar Azərbaycanın qlobal gündəlikdə fəal rolunu nümayiş etdirir. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasında iştirak isə ölkəmizin qlobal sülh təşəbbüslərində rolunu daha da möhkəmləndirib.

Sülhü yalnız sözdə deyil, konkret addımları, diplomatik təşəbbüsləri və tərəfdaşlıq layihələri ilə əyani şəkildə dəstəkləyən Bakı daim dialoq və əməkdaşlığı prioritet hesab edir, siyasi iradə və məsuliyyətli siyasətlə barışın mümkün olduğunu ortaya qoyur.

Bütün bu faktlar göstərir ki, son iki il Azərbaycan üçün sadəcə zaman kəsiyi deyil, yeni inkişaf mərhələsinin möhkəm təməlidir. Güclü iqtisadiyyat, qüdrətli ordu, daxili sabitlik və xalq-iqtidar birliyi üzərində qurulan bu siyasət ölkəmizi daha böyük hədəflərə aparır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq yeni üfüqlərə doğru inamla irəliləyir və əldə olunan nailiyyətlər gələcək uğurların da təminatına çevrilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Xarici ölkənin xüsusi xidmət orqanları ilə gizli əlaqəyə girənlər ifşa olundu

**Dövlət və dövlətçilik əleyhinə xəyanətlər bütün zamanlarda xalq və cəmiyyət tərəfindən pislənib, heç vaxt bağışlanmayıb. Buna cəhd edənlər, gizli plan quranlar isə gec-tez hüquq-mühafizə orqanları tərəfindən aşkarlanaraq həbs olunublar, törətdikləri cinayət əməllərinə görə layiq olduqları cəzalarını alıblar. Təəssüflər olsun ki, bundan dərs götürməyənlər hələ də var.**

Fevral ayının 12-də Dövlət Təhlükəsizliyi Xidməti bir qrup şəxsin dövlətə qarşı cinayət törətməkdə şübhəli bilindikləri barədə məlumat yayıb. Məlumatda bildirilir ki, xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və başqalarının hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranıb.

Təqsirləndirilən şəxslərə elan edilmiş ittihamla tanış olanda məlum olur ki, onların qanunazidd əməlləri təzə deyil. Xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə yaradılaraq 4 iyul 2012-ci ildə xarici ölkədə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı" adı altında qeydiyyatdan keçirilmiş və "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşiblər.

Onlar 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində xarici ölkə vətəndaşı Rüstəm İbrahimbəyovun namizədliyini irəli sürən "Demokratik Qüvvələrin Milli Şurası" (Milli Şura) adlı təşkilat yaratdıqdan sonra xarici xüsusi xidmət orqanlarının maddi yardımı və digər formalarda təşkilati dəstəyi ilə dövlət hakimiyyətinin zorla ələ keçirilməsi üçün kütləvi iğtişaşların törədilməsi, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olunmaması, ictimai qaydanın, nəqliyyat, müəssisə, idarə və təşkilatların işinin pozulması istiqamətində fəaliyyət göstərib, həmçinin bu məqsədlə respublikanın müxtəlif rayonlarından insanların cəlb edilməsi üçün AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul etdikləri 933,8 min manat məbləğində pul vəsaitini, o cümlədən Ramiz Mehdiyevdən və Abbas Abbasovdan əldə edilən maddi vəsaitləri qeyd olunan əməllərin törədilməsinə yönəldiblər.

Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin xarici xidmət orqanları ilə əməkdaşlıq edən bir neçə şəxslə telefon danışığı da onun dövlətçiliyimizə xəyanət etdiyini təsdiq edən sübutlardan biridir. Ramiz Mehdiyev danışdığı şəxslərə Azərbaycanda dövlət idarəçiliyi sisteminin yenidən qurulması ilə bağlı təklifi olduğunu deyir. Sonra da həmin sənədi poçtla göndərəcəyini bildirir.

Dövlət Təhlükəsizliyi Xidmətinin məlumatında qeyd olunur ki, cinayət işinin materiallarına əlavə edilmiş texniki sübutlara əsasən, "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici ölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə Prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumlarını və yaxınlarını cəlb edərək xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilib.

Araşdırma zamanı o da məlum olub ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, "Milli Şura"nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda "şura"nın fəaliyyətinin dəstəklənməsi xahiş edilib, həmin ölkədə aparılan "islahatlar"ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilib.

İrəli sürülən ittihama əsasən, Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparıb, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilməsi üçün müraciət edib, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyini konkret detallar sadalamaqla vəd edib, eləcə də tərəflər Əli Kərimli hakimiyyətə gələcəyi halda Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşıblar.

Ramiz Mehdiyev 13 oktyabr 2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17 milyon manatdan artıq pul vəsaitini leqallaşdırıb. Yayımlanan çəkilişlərdə keçmiş administrasiya rəhbərinin evində aparılmış əməliyyatın görüntüləri öz əksini tapıb.

İttihamda o da vurğulanır ki, Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakıda yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib.

Dövlət Təhlükəsizliyi Xidmətinin ayıq-sayıqlığı nəticəsində aşkarlanmış bütün bu qanunazidd hərəkətlər dövlətçiliyimizə və xalqımıza xəyanətdir. Xəyanət isə cəzasız qalmır. Müxtəlif cinayət əməllərində təqsirli bilinən bu şəxslər həm qanun, həm də xalq qarşısında cavab verməlidirlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Xəyanətkar Mehdiyev-Kərimli ittifaqı qanun qarşısında cavab verəcək

**Azərbaycanın müasir dövlətçilik tarixində milli maraqlara xəyanət və hakimiyyəti qeyri-qanuni yollarla ələ keçirmək cəhdləri hər zaman xalqın və dövlətin qətiyyətli müqaviməti ilə üzləşib. Lakin son günlər ictimaiyyətə açıqlanan faktlar, xüsusilə Ramiz Mehdiyev və digər şəxslər ətrafında cərəyan edən hüquqi proseslər xəyanətin miqyasının təsəvvür ediləndən daha dərin olduğunu göstərir.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, vətənə xəyanət və cinayət yolu ilə əldə edilmiş külli miqdarda vəsaitin leqallaşdırılması kimi ağır ittihamlarla üzləşən R.Mehdiyevin dövlət çevrilişinə cəhd planlarını ehtiva edən məktubunun üzə çıxması, illərdir davam edən bir "siyasi teatrın" pərdəarxasını ifşa etdi. Bu məktub sadəcə bir şəxsin ambisiyalarını deyil, eyni zamanda özünü "demokratiya carçısı" kimi təqdim edən dağıdıcı müxalifət düşərgəsinin, xüsusilə AXCP sədri Əli Kərimli və onun rəhbərlik etdiyi radikal dəstənin gizli əlaqələrini gün işığına çıxardı. "İllərdir fərqli cəbhələrdə görünsələr də, eyni məkrli mərkəzlərdən təlimat alan Ramiz Mehdiyev, Əli Kərimli və Abbas Abbasov kimi fiqurların antimilli fəaliyyəti, onların ölkəmizin əleyhdarları ilə vahid bir müstəvidə birləşdiyini təsdiqləyir. Aparılan kompleks istintaq tədbirləri və üzə çıxan təkzibolunmaz faktlar göstərir ki, bu çirkin ittifaqın kökləri hələ 2012-ci ildə xarici paytaxtlarda Azərbaycanın suverenliyinə qarşı cızılan məkrli planlara qədər uzanır. Həmin dövrdə xarici xüsusi xidmət orqanlarının birbaşa himayəsi və təlimatı ilə yaradılan, ictimaiyyətə isə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı" və ya "Milyarderlər İttifaqı" kimi təqdim olunan qurum, əslində, dövlət çevrilişi ssenarisinin maliyyə və siyasi mərkəzi rolunu oynayırdı. Abbas Abbasov və Rüstəm İbrahimbəyov kimi şəxslərin rəhbərliyi altında fəaliyyət göstərən bu təşkilat xarici güclərin Azərbaycandakı siyasi proseslərə kobud müdaxiləsi üçün bir alətə çevrilmişdi. Lakin ən dəhşətli məqam ondan ibarətdir ki, bu xarici layihə daxildəki "beşinci kolon"la, yəni uzun illər Prezident Administrasiyasına rəhbərlik etmiş Ramiz Mehdiyev və AXCP sədri Əli Kərimli kimi simalarla vahid bir cinayətkar şəbəkədə birləşib", - deyə o əlavə edib.

Deputat diqqətə çatdırıb ki, istintaq materialları və elan olunmuş ittihamlar sübut edir ki, Ramiz Mehdiyev, Əli Kərimli, Fuad Qəhrəmanlı, Qənimət Zayıdov və onların ətrafındakı digər xəyanətkar ünsürlər dövlət hakimiyyətinin zorla ələ keçirilməsi və mövcud konstitusiya quruluşunun devrilməsi barədə gizli sövdələşməyə giriblər. İstintaq materialları və texniki sübutlar göstərir ki, 2013-cü il prezident seçkiləri ərəfəsində "Milyarderlər İttifaqı" xarici ölkələrdəki imkanlarından istifadə edərək, minlərlə Azərbaycan vətəndaşını kütləvi iğtişaşlara sövq etmək üçün xüsusi təlimatlandırılmış qüvvə kimi hazırlayıb. Bu çirkin planın siyasi qanadı olan "Milli Şura"nın həmin dövrdə xarici dövlət rəhbərliyinə ünvanladığı gizli məktub, milli maraqların necə açıq şəkildə satıldığının rəsmi sənədidir. Azərbaycan dövlətinə xarici təzyiq göstərilməsini xahiş edən bu qüvvələr, hakimiyyət ambisiyaları naminə ölkənin müstəqil siyasətini qurban verməyə hazır olduqlarını nümayiş etdiriblər. Xüsusilə Əli Kərimli tərəfindən Qənimət Zayıdov vasitəsilə aparılan gizli danışıqlar xəyanətin miqyasını daha da böyüdür. Xarici xüsusi xidmət orqanları ilə əldə olunan razılaşmaya əsasən, Əli Kərimli hakimiyyətə gətiriləcəyi təqdirdə, Azərbaycanın strateji maraqlarını və təhlükəsizlik memarlığını tamamilə xarici güclərin nəzarətinə verməyi, ölkəni Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olmasını vəd edib. Bu faktlar sübut edir ki, radikal müxalifət və onlarla əlbir olan qaranlıq güclər üçün Azərbaycanın dövlət müstəqilliyi sadəcə xarici ağalarına təqdim ediləcək bir alver predmetidir.

K.Bayramov vurğulayıb ki, istintaq materialları Əli Kərimli və əlaltılarının xəyanət planlarının ən iyrənc tərəfini, xalqın vətənpərvərlik hisslərindən dövlətə qarşı istifadə cəhdini də ifşa edib: "2020-ci ilin iyul ayında ordumuza dəstək yürüşü zamanı Fuad Qəhrəmanlı və digərlərinə verilən xüsusi tapşırıq, təmiz hisslərlə küçələrə çıxan kütləni təxribata çəkmək və xaotik vəziyyət yaratmaqdan ibarət olub. Planın əsas hədəfi vətənpərvərlik şüarlarını dövlət əleyhinə çağırışlarla əvəz edərək, Milli Məclis və AzTV kimi strateji dövlət obyektlərini güclə ələ keçirmək idi. Məqsəd kütləvi informasiya vasitələri ilə hakimiyyətin qeyri-qanuni şəkildə zəbt olunduğunu bəyan etmək olub. Bu faktlar bir daha təsdiqləyir ki, xəyanətkar şəbəkə üçün Qarabağ dərdi və orduya sevgi sadəcə riyakar maraqlar üçün bir vasitə, Azərbaycan dövlətçiliyi isə birbaşa hədəf olub".

Deputat qeyd edib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin 12 fevral tarixində yaydığı rəsmi məlumata əsasən, R.Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında "Dövlət idarəetmə sisteminin yenidən qurulması" adı altında dövlət hakimiyyətinin devrilməsini nəzərdə tutan məxfi plan hazırlayıb. O, bu planı razılaşdırmaq üçün köməkçisi Eldar Əmirov vasitəsilə Əli Kərimliyə ötürüb, yekun nüsxəni isə şəxsən əlaqədə olduğu xarici xüsusi xidmət orqanlarına göndərib. Bu xəyanətkar fəaliyyət dövlət orqanları tərəfindən texniki vasitələrlə qeydə alınaraq tam sübuta yetirilib. R. Mehdiyev xarici kəşfiyyatla işbirliyi quraraq Azərbaycanın milli təhlükəsizlik maraqlarına zidd hərəkət etməkdə və konstitusiya quruluşunu zorla dəyişdirməyə cəhddə ittiham olunur. Eyni zamanda onun 17 milyon manatdan artıq cinayət yolu ilə əldə edilmiş vəsaiti leqallaşdırdığı da müəyyən edilib. Bu faktlar illərlə dövlətdə yüksək vəzifə tutan şəxsin həm iqtisadi, həm də siyasi cinayətlər vasitəsilə vətənə xəyanət yolunu seçdiyini təsdiqləyir. İstintaq tərəfindən toplanmış təkzibolunmaz sübutlar əsasında, Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş xəyanət şəbəkəsinin üzvlərinə qarşı ağır maddələrlə rəsmi ittihamlar irəli sürülüb.

K.Bayramov əlavə edib ki, açıqlanan faktlar və davam edən istintaq prosesi Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş hər bir xəyanət ssenarisinin gec-tez ifşaya məhkum olduğunu bir daha təsdiqləyir. Anti-Azərbaycan şəbəkənin maşaları, "beşinci kolon"un quyruqbulayanları və xarici mərkəzlərdən yallananlar öz çirkin əməlləri ilə heç nəyə nail ola bilməyəcəklər. Öz cılız ambisiyalarını və məkrli niyyətlərini reallaşdırmaq üçün milli maraqları heçə sayan, erməni lobbisinin mənafelərinə xidmət edən bu dağıdıcı ünsürlər növbəti dəfə iflasa uğradılar.

Deputat bildirib ki, Azərbaycan xalqı və dövləti bu cür xəyanətkar ittifaqlara qarşı hər zaman sarsılmaz birlik nümayiş etdirib: "Dövlətimizin suverenliyini hədəf alan, xalqın vətənpərvərlik hissləri ilə manipulyasiya etməyə çalışan və hakimiyyəti qeyri-qanuni yollarla qəsb etmək xəyalları quran hər bir şəxs qanun qarşısında cavab verəcək. Bu xəyanət şəbəkəsinin üzvləri tarixin yaddaşında xalqın nifrəti ilə qalacaq və tarixin zibilliyinə gömüləcəklər. Azərbaycan isə öz müstəqil yolu ilə daha da güclənərək irəliləməyə davam edəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İnformasiya təhlükəsizliyi hər zaman prioritetdir

**Bu gün dünya əvvəlki dövrlərlə müqayisədə tamamilə fərqli bir mərhələdədir. İndi müharibələr sadəcə döyüş meydanında getmir. İnternet resursları, sosial şəbəkələr, müxtəlif rəqəmsal informasiya platformaları informasiya müharibələrinin getdiyi meydana çevrilib. Hazırda informasiya daha böyük bir güc kimi özünü göstərir.**




Azərbaycan da qlobal informasiya məkanının bir hissəsidir. İnternet, sosial şəbəkələr və süni intellekt əsaslı sistemlər gündəlik həyatımızın ayrılmaz parçasıdır. Bir tərəfdən bu, məlumatlara çıxışı asanlaşdırır, digər tərəfdən, vətəndaşlara yeni imkanlar yaradır. Eyni zamanda məlumat bolluğu içərisində həqiqəti seçmək getdikcə çətinləşir. Təhrif olunmuş xəbərlər, emosiyalara əsaslanan başlıqlar, manipulyativ videolar, süni intellekt vasitəsilə hazırlanmış saxta görüntülər insanlarda psixoloji təsir gücünə malikdir. Bu proses isə təsadüfi deyil.

Müasir dövrdə "hibrid müharibə" ifadəsi formalaşıb. Buraya dezinformasiya kampaniyaları, kiberhücumlar, iqtisadi təzyiq vasitələri, sosial şəbəkələr üzərindən psixoloji təsir, dini və ideoloji manipulyasiyalar daxildir. Bütün bunların məqsədi isə informasiya hücumu ilə cəmiyyəti zəiflətmək, çaşqınlıq yaratmaq və dövlətə olan etimadı sarsıtmaqdır.

Onu da vurğulamalıyıq ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan həm döyüş meydanında, həm də informasiya cəbhəsində mübarizə aparırdı. Sosial şəbəkələrdə və xarici media qurumlarında antiazərbaycançı şəbəkə tərəfindən ölkəmizin haqlı mübarizəsi ilə bağlı saxta xəbərlər tirajlanırdı. Bu məlumatlar, əsasən, erməni təəssübkeşləri, antimilli ünsürlər tərəfindən yayılırdı.

Həmin ərəfədə Prezident İlham Əliyev xarici media orqanlarına verdiyi müsahibələrində ölkəmizin mövqeyini beynəlxalq ictimaiyyətə çatdıraraq Vətən müharibəsinin hüquqi əsasları və gedişatı barədə dolğun məlumatlar təqdim edirdi. Dövlətimizin başçısının müxtəlif nüfuzlu media qurumlarına müsahibələri haqlı mövqeyimizi dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılaraq informasiya müharibəsindəki qələbəmizi təmin etdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın həm də informasiya strategiyası baxımından da uğurlu təcrübəsi kimi qiymətləndirilə bilər. Bu proses müasir dövrdə informasiya cəbhəsində qazanılan üstünlüyün inkişafın mühüm tərkib hissəsi olduğunun göstəricisidir.

Fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev kibertəhlükəsizlik məsələlərinə xüsusilə toxunaraq bildirib: "Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır". Dövlətimizin başçısının fikirlərinə əsaslanaraq deyə bilərik ki, kibertəhlükəsizlik dövlət təhlükəsizliyinin əsas sütunlarından biridir.

Ölkəmizdə təkmil siyasət informasiya təhlükəsizliyini uğurla təmin edir. Belə ki, informasiya təhlükəsizliyinin qorunması ölkəmiz üçün strateji əhəmiyyət daşıyır. Azərbaycanda informasiya resurslarının mühafizəsi, kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılır. Həmçinin qanunvericilik bazası təkmilləşdirilir, qabaqlayıcı mexanizmlər tətbiq olunur və beynəlxalq əməkdaşlıq genişləndirilir. Bütün bunlar mümkün informasiya təhdidlərinin vaxtında qarşısını almağa xidmət edir.

Görülən işlər Azərbaycanın informasiya məkanında daha güclü və təhlükəsiz mövqe tutmasına imkan yaradır. İnformasiya təhlükəsizliyinin möhkəmləndirilməsi isə ölkəmizin sabitliyinə, dayanıqlı inkişafına və milli maraqlarının qorunmasına töhfə verir. Buna görə də informasiya məkanını bundan sonra da göz bəbəyi kimi qorumaq lazımdır. Mükəmməl qanunvericilik, effektiv kibertəhlükəsizlik sistemi və məsuliyyətli vətəndaş mövqeyi bu sahədə əsas dayaqlardır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Mədəni irsimizi əks etdirən ekran yaddaşı

**Azərbaycan mediasının tarixində birəsrlik səs, 70 illik ekran salnaməsi - Azərbaycan Teleradiosunun 100 illiyi və Azərbaycan Televiziyasının 70 illik yubileyi qeyd olunur. Bu yubiley xalqın düşüncəsinin, tarix yaddaşının, milli kimliyin, mədəniyyət və maarifçilik ənənələrinin inkişaf tarixidir.**

1926-cı ildə efirə yayılan ilk radio siqnalı Azərbaycan insanının dünyaya yetişən səsinə çevrildi. O səs ki, çətin illərdə ümid, müharibə illərində ruh yüksəkliyi, quruculuq dövründə inam, çağdaş dövrdə müstəqillik ideallarının carçısı oldu. Radio dalğaları vasitəsilə yayılan söz milli şüurun formalaşmasında, dilimizin saflığının qorunmasında və inkişafında əvəzsiz rol oynadı.

1956-cı ildə Azərbaycan Televiziyasının ilk yayımı isə artıq səsə görüntü qataraq ekranı xalqın güzgüsünə çevirdi. Bu ekran illər boyu tarixi hadisələri lentə aldı, sənəti, ədəbiyyatı, elmi, ictimai-siyasi prosesləri tamaşaçıya dolğun şəkildə çatdırdı. Azərbaycan Televiziyası milli-mənəvi dəyərlərin qoruyucusu, maarifçilik missiyasının daşıyıcısı oldu.




Azərbaycan Televiziyası son illər yenilənmə görkəmi, çağdaşçı mövqeyi, vizual tərəqqisi və milli ənənələrə sadiqliyi ilə öz missiyasına yeni tərz qazandırıb. Milli-mənəvi dəyərlərimizi ehtiva edərək 50 milyonluq bütöv bir xalqın aynasına, təkcə yaxın keçmişimizin deyil, həm də bu günümüzün haqq səsinə çevrilib. Mənəvi irsimizin layiqli daşıyıcısı olan milli teleradio dövlət-millət vəhdətini təcəssüm etdirməklə, xalqımızın tarixində birəsrlik salnamə, mədəni irsimizi əks etdirən ekran yaddaşıdır.

Ana televiziyamız 44 günlük Zəfər savaşımızda ən dəqiq operativ xəbər mənbəyi kimi çıxış etdi. Xalqımıza gecə-gündüz cəbhə bölgələrindən alınan yeniliklər çatdırdı, Azərbaycan auditoriyasını işğaldan azad edilmiş torpaqlarımızla qovuşdurmağa nail oldu.

Vətən müharibəsindən sonra Azərbaycan Televiziyasında yayımlanan sənədli filmlər Zəfər salnaməsinin ekran təcəssümüdür. Bu filmlər şəhidlərin xatirəsini əbədiləşdirir, qazilərin qəhrəmanlığını, ordumuzun şücaətini, Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbənin strateji və siyasi əhəmiyyətini tamaşaçıya yüksək peşəkarlıqla təqdim edir. Zəfər tariximizin sənədlərə, faktlara əsaslanan formada təqdim olunması həm gələcək nəsillər üçün arxiv materialı, həm də milli qürur mənbəyidir. Tamaşaçılar tərəfindən böyük maraqla izlənilən bu ekran əsərləri vətənpərvərlik ruhunu hər keçən gün daha da gücləndirir.

Bu gün "Azərbaycan Televiziyası və Radio Verilişləri" QSC müasir texniki imkanlar, peşəkar jurnalist və yaradıcı heyətlə dövlətçilik ənənələrinə sadiq qalır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri, milli maraqların qorunması, tariximizin düzgün təqdimatı, vətənpərvərlik ruhunun gücləndirilməsi, multikultural dəyərlərin təşviqi, televiziya və radio proqramlarında öz əksini tapır. Efir siyasətində milli ideologiyanın təbliği, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması prioritet istiqamət kimi müəyyənləşdirilir.

Azərbaycan Teleradiosu müasir dövrdə dövlətçilik mövqeyini qoruyaraq informasiya təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Qlobal informasiya müharibələrinin getdiyi bir dövrdə milli medianın məsuliyyəti daha da artır. Bu baxımdan, Azərbaycan Televiziyası obyektivlik, operativlik və milli maraqlar prinsipi çərçivəsində fəaliyyət göstərir və dövlətin informasiya siyasətinin etibarlı dayaqlarından biri kimi çıxış edir. Xüsusilə informasiya-analitik proqramlar sırasında "Həftə", "Hədəf", "Tarixin izi ilə" və digər verilişlər ictimai-siyasi proseslərin obyektiv təhlili və milli məfkurəsi ilə seçilir. Faktların sənədli materiallar və mütəxəssis rəyləri əsasında təqdim olunması bu istiqamətli proqramları elmi əsaslı və etibarlı mənbəyə çevirir. Ortaq türk kimliyi, mədəni bağlar və tarixi irs kontekstində geniş auditoriyanın marağına səbəb olan "Türk yurdu", "Anın tarixi" kimi verilişlər, sənədli layihələr türk dünyası ilə inteqrasiyanın ideoloji əsaslarını möhkəmləndirir. Bundan başqa, milli kimlik və vətəndaşlıq şüurunun formalaşmasına mühüm töhfə verir.

Eyni zamanda mədəniyyətin, musiqinin, ədəbiyyatın, teatr və kino sənətinin təbliği istiqamətində həyata keçirilən layihələr milli irsin qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir. Radio və televiziya fondunda qorunan arxiv materialları Azərbaycan tarixinin canlı yaddaşıdır. Bu arxivlər tədqiqatçılar, tarixçilər və mədəniyyət xadimləri üçün qiymətli mənbə, qızıl fond dəyərindədir.

70 illik televiziya və 100 illik radio yolunun hər mərhələsində onlarla jurnalist, aparıcı, rejissor, operator, səs mühəndisi və digər yaradıcı insanın zəhməti dayanır. Onların peşəkarlığı nəticəsində Azərbaycan Teleradiosu bu gün də xalqın etimadını qoruyub saxlayır.

*Əlibala MƏHƏRRƏMZADƏ,*
*Milli Məclisin deputatı,*
*professor*

# Lahıcda zamanın səsi: 77 yaşlı sakinin radio muzeyi

**Bir zamanlar radio hər evin ən qiymətli əşyalarından sayılırdı. Şkafın üzərində və ya evin ən diqqətçəkən hissəsində saxlanılan bu cihazın ətrafına axşamlar bütün ailə üzvləri toplaşardı. Paytaxtdan gələn son xəbərlər, uzaq şəhərlərin sədası və sevilən ifaçıların mahnıları məhz bu "sehirli qutu"dan yayılardı. Radio açılanda evdə hamı susar, o danışardı...**









Bu gün informasiya saniyələr içində yayılsa da, 13 Fevral - Ümumdünya Radio Günü səsli medianın cəmiyyət həyatındakı əvəzsiz rolunu bizə yenidən xatırladır.

AZƏRTAC-ın bölgə müxbiri dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, İsmayıllı rayonunun tarixi Lahıc qəsəbəsində olub, burada radio və televiziya tarixini yaşadan qeyri-adi bir ünvandan reportaj hazırlayıb.

77 yaşlı Lahıc sakini Raci Baxışovun həyəti artıq uzun illərdir ki, qeyri-rəsmi muzeyi xatırladır. Burada müxtəlif dövrlərin şahidi olan radioqəbuledicilər, lampalı qurğular, iriölçülü köhnə televizorlar, lentli maqnitofonlar və antikvar telefon aparatları qorunur.

İxtisasca mühasib olan Raci dayı həm də mahir radio və televiziya ustasıdır. O, istifadə olunmayan bu cihazları zibilliyə atmağa qıymayıb, əksinə, onlara ikinci həyat bəxş edib. Beləliklə, kiçik bir maraq zamanla zəngin bir kolleksiyaya çevrilib.

"Bu cihazların əksəriyyəti ötən əsrin istehsalıdır. Məsələn, bu gördüyünüz 1954-cü ilin radiosudur - bizim evimizin ilk radiosu olub. O vaxtlar siqnal zəif idi, damda hündür antennalar qururduq. Səsi tutanda uşaq kimi sevinirdik", - deyə kolleksiyaçı xatirələrini bölüşür.

Bu kolleksiyanı unikal edən əsas cəhət eksponatların sadəcə vitrin bəzəyi olmamasıdır. Raci Baxışovun toxunuşu ilə onların demək olar ki, hamısı işlək vəziyyətdədir.

"Bir çox muzeydə əşyalar cansızdır, sadəcə baxmaq üçündür. Amma mən istəyirəm ki, insanlar o səsi duysunlar. Qonaqlar gələndə yarım əsr əvvəlin texnologiyasının hələ də cızıltısız səslənməsinə heyrət edirlər", - deyə usta vurğulayır.

Raci dayı üçün radio həm də bir təxəyyül mənbəyidir. Onun fikrincə, radio görüntü vermədiyi üçün insan eşitdiklərini öz xəyalında canlandırır və bu, hər kəsdə fərqli bir dünya yaradır. O, bu gün də Azərbaycanın radio kanallarını mütəmadi olaraq dinlədiyini deyir.

Texnologiya nə qədər sürətlə inkişaf etsə də, radionun yeri fərqlidir. Sosial şəbəkələr sürət vəd edir, radio isə səmimiyyət və canlı ünsiyyət. Lahıcın daş döşənmiş dar küçələrində at nalının səsi duyulanda hiss edirsən ki, bəzi dəyərlər illərə meydan oxuyur.

Lahıcdakı bu kiçik muzey bizə bir daha sübut edir ki, zaman dəyişsə də, insan ruhuna toxunan səmimi bir səsin oyatdığı duyğular dəyişmir.

# Uzun yolun qısa xülasəsi

**Bir əsr əvvəl olduğu kimi, bu gün də kimsənin radionu xəbər, əyləncə və informasiya kontenti olaraq müasir kütləvi kommunikasiya sistemindən kənarda təsəvvür etməsi mümkün deyil. Yayımları da daxil olmaqla, müasir media mənzərəsində öz yerini saxlayan Azərbaycan radiosu sosial kommunikasiya vasitəsi kimi həyatımıza daxil olan, fəaliyyət göstərdiyi birəsrlik zaman müstəvisində texnoloji proseslərdən geri qalmayan tribunalardan biri kimi sözünü deməkdədir.**




Kütləvi auditoriyası və əlçatanlığı ilə müasir həyatın bir hissəsinə çevrilən radio, nəinki onun XXI əsrdə gələcəyinin olmadığını iddia edən skeptiklərin dediyi kimi yerini kompüter və şəbəkə texnologiyalarına verərək məğlub vəziyyətdə bazarı tərk etdi, əksinə, onların bu dəfə də açıq şəkildə yanıldıqlarını göstərərək yeni layihələrin etibarlı kontetlərindən biri kimi ortaya qoydu. O spektiklər növbəti dəfə sürətli texnoloji irəliləyişlərin ictimai kommunikasiyanın əsas kanallarından biri olduğunu, radio yayımının kütləvi cəlbediciliyini və hər yerdə mövcudluğunun fakta çevrildiyini qəbul etmək zorunda qaldılar. Bugünkü çoxtərəfli informasiyanın qarşılıqlı əlaqəsi sistemində radio yayımı populyarlığını qorumaqla yanaşı, həm də yeni üsullar (məlumat-əyləncə, interaktivlik) və fəaliyyət formaları (yayım formatları) əldə etdi. İnternet sayəsində radio yayımının əhatə dairəsini genişləndirmək, dinləyicilərin populyarlığını daha da artırmaq və təşkilati, struktur və peşəkar-yaradıcı potensialını reallaşdırmaq gücündə olduğunu təsdiqlədi. Hələlik əldə edilən nəticə onu göstərir ki, kütləvi kommunikasiya bu gün ən geniş şəkildə radio yayımı ilə təmsil olunur və bu, peyk rabitəsinin və internetin inkişafından yeni təkan alaraq demək olar ki, hər yerdə yayıla bilib.

Bütün bunlar 1926-cı il noyabrın 6-da Azərbaycan radiosunun "Diqqət, danışır Bakı" sözləri ilə yayımlanması fonunda növbəti dəfə regionda "ilk"ə imza atmasından qərinələr keçəndən sonra ortaya çıxan gerçəkliklər fonunda üzbəüz qaldığımız reallığa dönəcək. İrəli getmədən o məsələni qeyd edək ki, həmin tarix nəinki Azərbaycanda, habelə Yaxın Şərqdə ilk radio yayımı günü kimi mədəniyyət salnaməmizə yazıldı. Paytaxtın küçə və meydanlarında quraşdırılan reproduktorlardan yayılan o səs ancaq ingilis fiziki Uilyam Kruksun 54 il əvvəl elektromaqnit dalğalarından istifadə edərək yaratdığı simsiz teleqraf rabitəsinin praktik təcrübələrinin tətbiqi deyildi. Bu, unudulmaz azərbaycanlı maarifpərvər, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin görmək istədiyi mətbuatın irəliyə doğru atdığı möhtəşəm addım idi.

Fəaliyyətə başladığı ilk vaxtlardan insanların "sehirli qutu" adlandırdığı radio ancaq əsas informasiya mənbəyi olmadı, o, maarifçiliyin tribunasına çevrildi. Radio öz dinləyiciləri arasında nitq mədəniyyətini formalaşdıran, ayaq aça bildiyi bütün coğrafiyada Azərbaycan ədəbi dilinin yayılmasını təşviq edən müəllim oldu. Oxumaq-yazmaq bilməyən və ya bunları öyrənməkdə çətinlik çəkən insanların böyük əksəriyyət təşkil etdiyi mühitdə bunun nə qədər vacib olduğunu söyləmək belə, artıqdır. Bu həm də sosial ünsiyyətin ilkin kərpicləri idi və cəmiyyətdə o kərpiclərin qoyulmasında radionun təsəvvürolunmaz xidmətləri əvəzolunmaz idi. Bir sözlə, radio həmin dövrlərdə və ondan sonrakı mərhələdə ən vacib sosial-siyasi, iqtisadi və mənəvi problemləri ortaya qoymaq, işıqlandırmaq və aradan qaldırmaq prosesində bütün sosial qurumların və sistemlərin nümayəndələri - jurnalistlərlə vətəndaşlar, həmçinin müxtəlif elm-sənət adamlarının birgə yaradıcılıq emalatxanasına çevrildi.

Bütün bunları haqlı olaraq onun meydana çıxdığı vaxtdan 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başlayan Azərbaycan Televiziyasına gedən yolun başlanğıcı kimi də qəbul edənlər var və fikrimizcə, bu qənaətdə olanlar tamamilə haqlıdırlar. Nəticədə televiziya və radio jurnalistikamızda və ictimai həyatımızda başlıca informasiya təminatçısına çevrilməklə maarifləndirici, əyləndirici funksiyasında əsas ağırlığı öz üzərinə götürmüş, sosial və siyasi proseslərə təsir göstərməkdə alternativsizliyini ortaya qoymuşdur. Təsadüfi deyil ki, kommunikativ və təşkilati funksiyada dialoq platforması kimi çıxış edən bu tandem vaxtaşırı televiziya və radio mütəxəssislərinin nəzəri mülahizələrinin əsas subyektinə çevrilmişdir.

Bu yazıda müasir mühitdə TV-nin nə dərəcədə aktual olduğunu araşdırmağa başlamazdan əvvəl onu bildirək ki, sürətlə dəyişən media mənzərəsində Azərbaycan telekanalları rəqəmsal mühitə assimilyasiya olunur. Bu onun üçündür ki, televiziyanın texniki və funksional təkamülünü izləməklə sosial şəbəkələrdə televiziya mediasının yaranmasına nəyin səbəb olduğunu və inkişaf tendensiyalarını proqnozlaşdıra bilmək, televiziyalar arasında oxşarlıq və əsas fərqləri müəyyənləşdirərək nəticələri perspektiv fəaliyyətimizdə tətbiq etmək, mövcud yerli və xarici analoji seqmentlərdə monitorinqlərin aparılmasını metodiki olaraq həyata keçirmək qaçılmazdır.

Sosial təfəkkürdə televiziya istehsalının böyük əksəriyyətində məzmunun aşağı səviyyədə olmasından narahatlıq ifadə olunur, digərləri isə televiziyanın sosial şəbəkə mediasından geri qalma riski barədə fikirləşirlər. Nəticədə neçə illərdir qaçılmaz yeniliklərlə "əbədi funksionallıq qaynağı" olan klassiklər arasında müasir televiziyanın inkişaf tendensiyaları ətrafındakı "Nə etməli?" sualı aktual olaraq qalır.

Müasir telekanalların proqramlaşdırılması prinsiplərinin dəyişdirilməsi, dominantlıq yayım şəbəkəsinin strukturlaşdırılmasında reytinq yanaşması siyasətində media bazarına əsaslı təsir edən tendensiyaların dəyişməsi qaçılmazdır. O dəyişikliklərdən yayınmaq intuitiv olaraq ortaya çıxan gerçəklik effektini saxlayır və bunun bariz ifadəsinin necə baş verdiyini 2026-cı ildə 70 və 100 yaşını qeyd etməyə hazırlaşan Azərbaycan Televiziyasının və Azərbaycan Radiosunun nümunəsində müşahidə edilir.

"Böyük dövlət xadimlərinin fəaliyyətlərinin izləri hər bir xalqın həyatının bütün sahələrində özünü göstərir" - deyimini xatırlatmaqla onu qeyd etmək yerinə düşər ki, ana televiziyamızın inkişafında yaddaqalan hadisələr Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmə düşür. Ovaxtkı Azərbaycanın ictimai-siyasi və mədəni həyatına yeni texniki vasitə olaraq daxil olan Azərbaycan Televiziyası təkcə Azərbaycan xalqını keçmiş tarixinin ən parlaq səhifələrinin təbliği ilə məşğul olmur, həm də milli-mənəvi dəyərlərimizin, yetişən gəncliyin şüurunda özünə yuva qurmasında başlıca missiyanı yerinə yetirirdi.

Azərbaycan Televiziya və Radiosu milli dəyərlər və dövlətçilik təfəkkürü əsasında yaradılmış məktəbə çevrilib və bu gün də ölkənin televiziya məkanında aparıcı rolunu saxlamaqdadır. İstər özünün maddi-texniki bazasının zənginliyi, istərsə də uzun illərdən bəri formalaşan ənənələr əsasında yetişən peşəkar yaradıcı heyəti ilə AZTV rəngarəng mövzuları, təqdimat formaları ilə seçilən, teleməkanda öz auditoriyasını qazanan, iddiaları ilə inkişaf yolunda yeni addımlar atan, gündən-günə mövqelərini möhkəmləndirməkdə olan quruma çevrilməkdədir. Prezident İlham Əliyevin hamiliyi ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin bazasında 2009-cu il fevral ayının 1-də yaradılan "İdman", 2011-ci il fevral ayının 14-də təsis olunan "Mədəniyyət" telekanallarının fəaliyyətinin, xüsusilə, Azərbaycan Televiziyasında zamanın tələblərinə uyğun olaraq aparılan islahatların nəticəsidir ki, onun efirində təqdim edilən, müxtəlif formatlarda və aktual mövzularda hazırlanan proqramlar nəinki tamaşaçıların maraqla qarşıladıqları, həmçinin etimad göstərdiyi verilişlərə çevrilib. Bu sırada İctimai-siyasi proqramlar studiyasının hazırladığı, ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda baş verən aktual ictimai-siyasi hadisələrin təhlil olunduğu "Həftə", ölkədə baş verən diqqətçəkən məsələlər üzərində qurulan və aparıcıların qonaqlarla birlikdə baş verən hadisəni canlı olaraq müzakirə olunduğu "Hədəf" və digər verilişləri ancaq informativ deyil, həm də maarifçilik yükü olan proqramlardandır. Hər gün 12 dəfə efirə çıxan "AZTV XƏBƏR" proqramının ancaq ölkə daxilində deyil, həmçinin ölkə xaricində də auditoriyası olması informasiyanın operativ və peşəkarlıqla çatdırılması ilə izah oluna bilər.

İnternet resurslarının başlıca hərəkətverici qüvvəsi olaraq qəbul edilən sosial şəbəkələrdə televiziya yayımının spesifik xüsusiyyətləri hələ də Azərbaycanda elmin tədqiqat obyektinə çevrilməyib. Təkəm-seyrək bu istiqamətdəki yazılar ən yaxşı halda mövcud faktların təhlili ilə kifayətlənir, perspektiv inkişaf yollarının elmi əsasları nadir hallarda qeyd edilir. Televiziya mediasının sosial şəbəkələrdə aparıcı platformalara çevrilməsi üçün praktiki tövsiyələrin hazırlanmasında teletənqidçilərimizin və bu yöndəki elm adamlarımızın lokomotiv olaraq rolu ya hiss edilmir, ya da qabarıq görünmür. Bu isə informasiya üstünlüklərinin öyrənilməsinə fəlsəfi yanaşmaların televiziya və sosial şəbəkələrdə kortəbii yaranan tendensiyaların yer tutmasına gətirib çıxarır.

Son olaraq qeyd edək ki, televiziyanın sosial şəbəkə seqmentlərində yeri və aktuallığı günümüzün əsas çağırışına çevrilib və bu amili günümüzün əsas amili kimi qəbul etməmək heç bir televiziya üçün yaxşı nə isə vəd etmir. Buna görədir ki, AZTV üçün sosial şəbəkələrdəki alqoritmin öyrənilməsi taktiki deyil, strateji mahiyyət daşıyır. Bizim üçün sosial şəbəkələrin siyasi, iqtisadi, sosioloji, kulturoloji-ümumən, elmi təhlili ondan ibarətdir ki, yaşadığımız informasiya reallığında seytnot vəziyyəti ilə üzbəüz qalmayaq. Bu, ən azı, gələcək fəaliyyətimiz üçün növbəti addımlarımızı atmaq üçün həyati əhəmiyyət daşıyır. Ona görədir ki, hər bir televiziya üçün sosial dünyanın inkişafı ilə bağlı vəziyyəti düzgün qiymətləndirməmək, sosial şəbəkə platformalarının müasir insanın həyatındakı rolunu qəbul etməmək, sadəcə olaraq, mövcud olmaq perspektivini itirəcək qədər riskli davranışdır və biz fəaliyyətimizi bu gerçəkliyin diktəsi əsasında qururuq.

*Elməddin QULİYEV,*
*"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin şöbə rəisi*

# "Şəfəq"dən Macarıstan şirkətinə də pay düşdü

## Cəbrayılda tikilən günəş-elektrik stansiyasında işlər qrafik üzrə gedir

**Cəbrayıl rayonunda tikilən 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasında işlər nəzərdə tutulan qrafikə uyğun davam edir. Bu layihə çərçivəsində ildə təxminən 500 QVt/saat bərpaolunan enerji istehsal ediləcəyi gözlənilir.**



"Şəfəq" layihəsi Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək.

Layihənin operatoru BP şirkətindən aldığımız məlumatlarda "Şəfəq"dəki yeniliklərdən ətraflı bəhs olunur. Onlardan biri budur ki, BP "Shafag Jabrayil Solar Limited" (SJSL) şirkəti 10 faiz iştirak payını "MVM Energetika Zrt." (MVM) şirkətinə satıb. Bununla da BP-nin həyata keçirdiyi həmin layihəni maliyyələşdirən birgə müəssisədəki tərəfdaşlıq daha da güclənmiş olur. Bu sövdələşmədən sonra BP-nin SJSL-dəki iştirak payı 40,01 faiz olur. Qalan paylar isə "SOCAR Green" şirkətinə (39,99 faiz), Azərbaycan Biznesinin İnkişafı Fonduna (10 faiz) və MVM-ə (10 faiz) məxsusdur.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bununla bağlı deyib: "MVM şirkətinin "Şəfəq" günəş enerjisi layihəsi üzrə birgə müəssisəyə qoşulmasından çox məmnunuq. MVM bu layihəyə enerji sistemlərinin istismarı və ötürülməsinin idarə edilməsi sahəsində öz geniş təcrübəsi ilə gəlir. İnanırıq ki, onların bu birgə müəssisəyə qoşulması ilə elə bir əməkdaşlıq nümunəsi yaranır ki, orada biz layihənin ümumi dəyərini, dayanıqlılığını və uzunmüddətli fəaliyyətini daha da artırmaq məqsədilə bir-birimizdən öyrənə bilərik".

Əməliyyatçı şirkətin 2025-ci ilin yekunlarına həsr olunmuş hesabatında da "Şəfəq" və STEL layihələrində işlərin gedişi öz əksini tapır. Belə ki, keçən ilin iyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra "Şəfəq" layihəsi üzrə biri mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edən, digəri isə modul təchizatı üçün olan iki əsas müqavilə imzalanıb. Bu müqavilələr çərçivəsində ötən il layihə sahəsində hazırlıq işləri tamamlanıb və tikinti işlərinə başlanıb. Eyni zamanda modul təchizatı üzrə işlərə də start verilib və ilk panellər avqust ayında uğurla əraziyə çatdırılıb.

Layihə üzrə tikinti işlərinin 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır. Bu işlərin aparılmasında yerli resurslardan maksimum dərəcədə istifadə etməyə xüsusi diqqət yetirilir. Tikintinin pik dövründə layihədə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

İyunun 2-də isə Səngəçal terminalının investorları STEL layihəsini təsdiqləyiblər. Deyildiyi kimi, 230 milyon dollar dəyərində olan bu layihə ilə terminal "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq.

Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və STEL layihələrinin reallaşması Səngəçal terminalının gələcək istismarı dövründə buradakı əməliyyatlardan yaranan emissiyaların təxminən yarıbayarı azaldılması ilə nəticələnəcək.

Xatırladaq ki, hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə söküləcək və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

Keçən il STEL layihəsi üzrə üç əsas müqavilə imzalanıb. Hazırda bu müqavilələr üzrə iş həcminə daxil olan fəaliyyətlər, o cümlədən mühəndis-layihələndirmə, təchizat, quraşdırma və tikinti işləri təhlükəsiz şəkildə və qrafikə uyğun davam edir.

Layihə üzrə tikinti işlərinin iki mərhələdə aparılacağı nəzərdə tutulur. Birinci mərhələ 2027-ci ilin ortalarında, ikinci mərhələ isə 2028-ci ilin sonunadək başa çatacaq.

Beləliklə, BP-nin strategiyası apstrim fəaliyyətlərini genişləndirmək, daunstrim biznesində diqqəti seçilmiş sahələrə yönəltmək və enerji keçidinə öz investisiyasını intizamla aparmaqla səhmdarlar üçün uzunmüddətli dəyəri artırmaqdır. Yeri gəlmişkən: apstrim (yuxarı axın) neft və qaz sənayesində xam neft və təbii qazın axtarılması, kəşf edilməsi, quyuların qazılması və karbohidrogenlərin çıxarılması (istehsalı) ilə bağlı bütün fəaliyyətləri əhatə edən sektorun adıdır. Yəni apstrim yerin təkində və ya dənizin dibində olan karbohidrogenin yerin üstünə çıxarılana qədər bütün mərhələləri birləşdirir.

Neft-qaz sənayesində xammalın (neft və qaz) hasilatdan sonra emalı, satışı və paylanması ilə məşğul olan son mərhələ isə daunstrim adlanır. Bu sektor benzin, dizel, plastiklər və digər neft-kimya məhsullarının istehsalı, saxlanılması və istehlakçıya çatdırılması proseslərini əhatə edir. Daunstrim sözü aşağı axın mənasını verir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Vensin səfəri Tramp administrasiyasının Ağ Evdə bağlanmış tarixi sülh müqaviləsinin tam arxasında dayandığını göstərir"




**"Vitse-prezident Vensin Cənubi Qafqaza səfəri tarixi bir səfərdir və bu, Tramp administrasiyasının 2025-ci ilin avqust ayında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında ABŞ-nin vasitəçiliyi ilə Ağ Evdə bağlanmış tarixi sülh müqaviləsinin tam arxasında dayandığını göstərir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında amerikalı ekspert Ariel Kohen deyib. Onun sözlərinə görə, bu, həm də ABŞ-nin regionda təkcə diplomatik yolla deyil, həm də enerji, təhlükəsizlik, müdafiə, investisiya və s. baxımından mövcud olacağı deməkdir. O, Azərbaycan, Ermənistan və bəlkə də Gürcüstanın bir gün bütün istiqamətlərlə, dünyanın bütün hissələri ilə, Çin, Rusiya, eləcə də Avropa və ABŞ ilə əlaqədə olacağını bildirib.

"Bu, Mərkəzi Asiyada gördüyümüz çoxvektorlu siyasətdir və buna görə də bu, Azərbaycan üçün yaxşıdır. Bu, Prezident İlham Əliyev və onun diplomatiyasının, eyni zamanda ABŞ-nin qələbəsidir", - deyə ekspert əlavə edib.

O, TRIPP layihəsinin strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb. "TRIPP Azərbaycanı Naxçıvanla birləşdirir və sonra İrana və Ermənistan vasitəsilə Türkiyəyə qoşula bilər və bu, konteynerlərin və yüklərin Orta dəhlizdən keçmə müddətini qısaltmağa imkan verir. Bu halda yükdaşıyanlar üçün pula qənaət etmiş olursunuz. Dəhliz təkcə nəqliyyat arteriyası deyil, həm də sənayenin inkişafıdır. Bu sülh həm Ermənistan, həm də Azərbaycan üçün dividend təşkil edir", - deyə ekspert vurğulayıb.

# Paşinyanın sülh sınağı

**Ermənistanın Baş naziri Nikol Paşinyan parlament seçkilərinə qədər Azərbaycanla sülh müqaviləsinin imzalanması niyyətini açıqlayıb. Hökumət başçısı qeyd edib ki, sülh sazişinin imzalanması İrəvanın əsas gündəliyindədir.**

Baş nazir bildirib ki, əslində, bu sənədin ötən ilin dekabr, yanvar və ya aprel aylarında imzalanması da gündəmdə idi, çünki layihə üzrə əsas müzakirələr hələ ötən ilin martında yekunlaşıb: "Biz bu istiqamətdə işləməyə davam edəcəyik". Məlumat üçün bildirək ki, Ermənistanda növbəti parlament seçkiləri bu il iyunun 7-nə təyin edilib.

Görünən odur ki, Paşinyan parlament seçkilərinə qədər sülh sazişini imzalamaqla həm daxili auditoriyaya "sülh gətirən lider" mesajını vermək, həm də ölkəsinin iqtisadi təcridinə son qoymaq niyyətindədir. Yəni Baş nazir seçkilərə "dördüncü respublikanın qurucusu" və müharibə səhifəsini qapatmış rəhbər kimi qatılmağı hədəfləyir. Ona görə də sülhün Ermənistana iqtisadi rifah və təhlükəsizlik gətirəcəyi tezisini hərarətlə müdafiə edir. Ancaq Baş nazir fərqindədir ki, sülhün insanların həyatında və cibində hiss olunmaması onu hədəflərinə çatdırmayacaq. O səbəbdən ABŞ-nin dəstəklədiyi TRIPP layihəsinin icrasına və prosesin sürətlənməsinə önəm verir. Xüsusən Türkiyə ilə sərhədlərin açılmasına, Azərbaycanla ticarət əlaqələrinin genişlənməsinə səy göstərir. Həmçinin çıxışlarında 2025-ci ili "itki verilməyən ilk il" kimi xarakterizə edir, hərbi xidmətin müddətini azaldaraq topluma "müharibə bitdi" mesajını ötürür.

Bakı ilə İrəvan arasında yekun sülhün önündəki yeganə əngəl Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən bəndlərin qalmasıdır. Konstitusiyanın preambulasında ölkənin müstəqillik bəyannaməsinə istinad edilir. Həmin bəyannamədə isə "Qarabağın Ermənistana birləşməsinə dair" sərsəm "miatsum" ideologiyası əksini tapıb. Ona görə də Azərbaycan tərəfi birmənalı şəkildə sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməsi şərtini irəli sürüb. Bu tələb, sadəcə, diplomatik şərt deyil, gələcəkdə yarana biləcək revanşizm cəhdinin qarşısının alınmasının hüquqi sığortasıdır. Çünki Ermənistanda sonradan hakimiyyətə gələn hər hansı qüvvə sülh sazişinin daxili qanunvericiliyə zidd olduğunu iddia edə bilər. Azərbaycanın bu məsələdəki prinsipial və güzəştsiz mövqeyi Ermənistana "yarımçıq sülh" manipulyasiyası üçün heç bir boşluq buraxmır.

İrəvan yeni konstitusiya layihəsinin mətnini 2026-cı ilin martında dərc etməyi planlaşdırır. Paşinyan Bakının şərtini yerinə yetirmək üçün parlament seçkilərini bir növ "referendum sınağı" kimi görür və daxili auditoriyaya belə bir seçim təqdim edir: köhnə konstitusiya daimi müharibə, blokada və qeyri-müəyyənlik, yeni konstitusiya isə sülh, iqtisadi rifah və beynəlxalq sərhədlərin toxunulmazlığı deməkdir. Əslində, 2025-ci ilin avqustunda Vaşinqtonda sülh sənədinin paraflanması ilə İrəvan bu problemi həll edəcəyinə dair öhdəlik götürüb. Azərbaycanın prinsipial mövqeyi regionda qalıcı sülh konsepsiyasına xidmət edir. Paşinyan nə qədər "müharibə bitdi" desə də, hüquqi təməli olmayan kövrək sülh növbəti müharibəyə qədər verilən fasilə olar. Paşinyanın cəmiyyəti fundamental dəyişikliyə razı salmağı bacarıb-bacarmayacağı Ermənistan hökumətinin ən kritik və çətin tapmacasıdır. Çünki bu, sadəcə, qanunvericilikdə dəyişiklik yox, erməni təfəkkürünün düşmənçilik mərhələsindən əməkdaşlığa keçidi olacaq.

Hələlik Paşinyan müxalifətin bütün oxlarını üzərinə çəkməmək üçün konstitusiya dəyişikliyi tələbini Azərbaycanın şərti kimi deyil, Ermənistanın suverenliyini qorumaq və gələcəkdə yeni müharibələrin qarşısını almaq üçün yeganə yol kimi cəmiyyətə təqdim edir. Revanşistlər konstitusiya dəyişikliyinə qarşı çıxsalar da, Paşinyana alternativ olaraq daha yaxşı həyat vəd edə bilmirlər. Kilsə və dəstəkçilərinin də 2024-2025-ci illərdə Paşinyanı devirə bilməməsi göstərdi ki, erməni cəmiyyəti köhnə ideoloji şüarlardan, Koçaryan-Sarkisyan cütlüyünün miflərindən bezib.

Nəticə etibarilə sülh müqaviləsi Azərbaycan üçün ərazi bütövlüyünün hüquqi təsbiti ilə yanaşı, Ermənistan üçün otuz illik iqtisadi təcriddən qurtulmağın və dövlət kimi ayaqda qalmağın yeganə çıxış yoludur.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Bakıdakı Zəfər parkından Bolqarıstandakı Şuşa parkına

## Hər iki park şəhərsalmada milli tarixin və mədəniyyətin təqdimatıdır





**Müasir şəhərsalma artıq yalnız fiziki planlaşdırma və infrastruktur quruculuğu ilə məhdudlaşmır. Şəhər məkanı həm də sosial münasibətlərin, siyasi ideyaların və kollektiv yaddaşın formalaşdığı canlı bir mühitdir. Burada cəmiyyətin düşüncə tərzi, siyasi baxışları və ortaq yaddaşı da əks olunur. Bu baxımdan parklar, meydanlar və memorial zonalar da xüsusi diqqət çəkir. Axı bu yerlər təkcə istirahət üçün nəzərdə tutulmayıb. Açıq ictimai məkanlar cəmiyyətin dəyərlərini, baxışlarını və tarixi yaddaşını ifadə edir.**

Şəhərsalma praktikasında bu tendensiya aydın müşahidə olunur. Şəhidlərin xatirəsinə həsr edilmiş parklar, tarixi şəxsiyyətlərin adını daşıyan prospektlər və milli simvolika ilə formalaşdırılmış meydanlar kollektiv yaddaşın məkanlaşdırılması prosesinin tərkib hissəsidir. Məsələn, Bayraq Meydanı milli simvolikanın, bayraq və heykəllərin vasitəsilə azərbycanlı kimliyinin nümayiş olunduğu bir məkandır. Burada keçirilən tədbirlər, mərasimlər və bayram şənlikləri meydanın həm rəmzi, həm də sosial funksiyasını gücləndirir.

Bənzər şəkildə Zəfər parkının haqqında da deyə bilərik ki, bu məkan, sadəcə, istirahət yeri olmaqdan çox abidələr, xatirə lövhələri və simvolik elementlər vasitəsilə cəmiyyətin milli mübarizəyə verdiyi önəmi ifadə edir. Park həm də ictimai toplantıların keçirildiyi, xalqa tarixini xatırladan və onu gənc nəslə ötürən bir məkan kimi diqqət çəkir. İnsanlar burada gəzir, düşünür, ailələri ilə birlikdə zaman keçirirlər.

Zəfər parkının dizaynı göstərir ki, şəhərsalma yalnız yollar və binalardan ibarət deyil, eyni zamanda ictimai həyatın, tarixi yaddaşın və cəmiyyətin dəyərlərinin əks olunduğu məkandır. O, cəmiyyətin tarixini və dəyərlərini yaşadan açıq sahədir.

Eyni məntiq və prinsiplər beynəlxalq layihələrdə də öz əksini tapır, milli dəyərlərin, tarix və kimliyin şəhər məkanında ifadə olunmasına xidmət edir. Məsələn, yaxın zamanda Bolqarıstanın Veliko Tırnovo şəhərində salınacaq Şuşa parkı Zəfər parkı kimi cəmiyyətin yaddaşını və milli kimliyini açıq şəkildə əks etdirən bir məkan olacaq. Qeyd edək ki, park layihəsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzdində fəaliyyət göstərən "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanıb, hərtərəfli layihələndirmə işlərini isə komitənin sifarişi əsasında Bolqarıstanın "DAD Studio" LTD şirkəti icra edib.

Veliko Tırnovonun mərkəzində 1,81 hektarlıq ərazini əhatə edən Şuşa parkı həm şəhər sakinləri, həm də qonaqlar üçün müasir ictimai məkan kimi layihələndirilib. Parkda funksional zonalar, piyada yolları, istirahət yerləri, süni su hövzəsi və musiqili fəvvarə nəzərdə tutulub. Məkanın bədii həllində Nizami Gəncəvinin abidəsi, Şuşa mənzərələri və xarıbülbül motivləri yer alacaq. Parkın yaşıllaşdırılması və abadlıq işləri də yerli iqlim şəraitinə uyğun həyata keçiriləcək. Veliko Tırnovo şəhərində yaradılan Şuşa parkı Azərbaycan ilə Bolqarıstan arasında dostluq və tərəfdaşlıq münasibətlərini gücləndirməklə yanaşı, milli-mədəni dəyərlərimizin beynəlxalq səviyyədə tanıdılmasına da xidmət edəcək.

Bolqarıstandakı Şuşa parkı ilə Azərbycandakı Zəfər parkı arasında aydın oxşarlıqlar var. Zəfər parkında olduğu kimi, Şuşa parkında da abidələr, sənət quraşdırmaları və milli motivlər vasitəsilə Azərbaycan xalqının tarixi və mədəniyyətinə dair mesajlar verilir. Bundan başqa, hər iki park ictimai funksiyaya malikdir: insanlar burada toplaşır, tədbirlər keçirir, tarixi və milli dəyərləri öyrənir, eləcə də paylaşırlar. Zəfər parkı yerli icma üçün milli qürur məkanıdırsa, Şuşa parkı eyni ideyanı beynəlxalq məkanda davam etdirəcək. Bir sözlə, Şuşa parkı Zəfər parkının beynəlxalq ekvivalenti olaraq, diplomatik mesaj daşıyan bir məkan kimi şəhərsalmada yeni bir nümunə təqdim edəcək. Park vasitəsilə tarixi rəmzlər, ictimai funksiyalar və mədəni mesajlar bir araya gətirilərək daxili şəhərsalma prinsiplərinin beynəlxalq səviyyədə davamı olacaq.

Hər bir abidə, incəsənət əsəri, heykəl və ya dekorativ elementin məkan daxilində yerləşdirilməsi həm yerli yaddaşı, həm də xarici ictimaiyyətə ötürülən mesajı gücləndirir. Bu mənada daxildəki məkanlardan fərqli olaraq xarici ölkələrdə salınan parklar xarici icma ilə qarşılıqlı mədəni əlaqələr üçün vasitə rolunu oynayır. Daxildə salınan parklar insanların gəzinti və qarşılıqlı fəaliyyətlərinə şərait yaradır, ekoloji balansı qoruyur və şəhər mərkəzlərində yaşıl sahələrin artırılmasına xidmət edir. Bolqarıstanda salınmağa başlayan Şuşa parkı isə eyni prinsipin beynəlxalq səviyyədə təzahürü olacaq, "yumşaq güc" və mədəni diplomatiya alətinə çevriləcək. Nəzərdə tutulub ki, parkın dizaynı, bədii elementləri və yaşıllaşdırılması yerli iqlimə uyğunlaşdırılsın.

Beləliklə, Azərbaycanda və digər xarici bir ölkədə salınmasından asılı olmayaraq parklar coğrafi və kontekst baxımından fərqlənsələr də, qalan bütün hallarda şəhərsalmanın funksional, estetik və mədəni aspektlərini birləşdirən mühüm element kimi çıxış edir. Bu yanaşma göstərir ki, parklar, sadəcə, şəhərsalmanın fiziki elementləri deyil. Onlar yerli və beynəlxalq səviyyədə mədəni dəyərlərin, sosial əlaqələrin və milli kimliyin açıq ifadəsi rolunu oynayan strateji məkanlardır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Qazaxın işğaldan azad olunmuş kəndlərinin sakinləri tezliklə doğma ocaqlarına dönəcəklər

**Qazaxın Aşağı Əskipara, Bağanıs Ayrım, Qızılhacılı və Xeyrımlı kəndlərinin hərbi əməliyyatsız, bir güllə belə atılmadan Azərbaycana geri qaytarılması dövlətimizin daha bir qələbəsi idi. Bu qələbəni bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev və güclü ordumuz bəxş etmişdir.**




Bu günlər Qazax Rayon İcra Hakimiyyətində həmin kəndlərin bir qrup sakini ilə görüş keçirilmişdir. Görüşdə RİH-in başçısı Rəcəb Babaşov çıxış edərək uzun illər vətən həsrəti çəkən sakinləri doğma kəndlərinin qaytarılması münasibətilə bir daha təbrik etmiş və 2024-cü ilin 19 aprel, 15 və 24 may tarixlərində doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayan sakinlərin yaddaşına qızıl hərflərlə əbədi həkk olunduğunu bildirmişdir. Qeyd etmişdir ki, Müzəffər Ali Baş Komandanın uzaqgörən və düşünülmüş siyasəti sayəsində aprel ayının 19-da Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar zamanı Qazaxın dörd kəndi hərbi əməliyyatsız, bir güllə belə atılmadan Azərbaycana geri qaytarılmışdır. R.Babaşov həmçinin Şərqi Zəngəzurda və Qarabağda həyata keçirilən quruculuq işlərindən danışmış və tezliklə Qazaxın 4 kəndinin də yenidən qurulacağını, sakinlərin doğma yurdlarına qayıdacaqlarını söyləmişdir.

Görüşdə kənd sakinləri çıxış edərək hər zaman Müzəffər Ali Baş Komandana inandıqlarını, onun müdrik siyasəti, qətiyyətli mövqeyi sayəsində işğal altında olan bütün torpaqlarımızın, o cümlədən Qazaxın kəndlərinin qaytarılacağına hər zaman əmin olduqlarını söyləmişlər. Onlar hazırda doğma yurda qovuşmağın sevincini yaşadıqlarını dilə gətirərək, o günü səbirsizliklə gözlədiklərini ifadə etmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Burzubənd artıq ucqar dağ kəndi sayılmır

### Kəndin asfalt yolu, daimi qazı, işığı, suyu, interneti var



**Burzubənd kəndi Kijəbə qəsəbə inzibati ərazi dairəsinə aiddir. Kənddə son illər əhalini rahatsız edən əksər problemlər həll olunub.**

Kənddə, ümumilikdə inzibati ərazi dairəsində müasir tipli məktəb binaları tikilib, avtomobil yolları asfaltlaşdırılıb, yaşayış məntəqələrinin çoxu qazlaşdırılıb, sürətli internet şəbəkəsi yaradılıb, suvarma suyu çəkilib. Burzubənd kənd tam orta məktəbi 5-6 il əvvəl köhnə, istismar müddətini başa vurmuş binada yerləşirdi. Müəllimlər tədris aparmaqda çətinlik çəkir, şagirdlər keyfiyyətli təhsil ala bilmirdilər. Ölkə rəhbərinin imzaladığı sərəncamla ayrılan vəsait hesabına kənddə müasir tipli məktəb binası inşa edildi. İndi müasir tədris ocağında təhsil alan şagirdlərin uğurları ildən-ilə artır. Yeniyetmələr burada elmi biliklərə yiyələnməklə yanaşı, həm də vətənpərvər ruhda böyüyürlər. Vətən müharibəsi bunu sübut etdi. Rayonun bütün gəncləri kimi, bu kəndin cavanları da heç bir çağırış gözləmədən könüllü müraciət edərək Vətənin müdafiəsinə yollandılar və torpaqlarımızın işğaldan azad edilməsində fədakarlıq göstərdilər. Bu məktəbin məzunları arasında şəhidlər də, qazilər də oldu.

Burzubənd və ətraf kəndlərin sakinlərinin əsas məşğuliyyəti sitrusçuluqdur. Bununla onlar həm ölkədə ərzaq bolluğu yaradır, həm də ailə büdcələrini formalaşdırırlar. Amma bir neçə il öncə meyvə bağlarının suvarılmasında çətinliklər var idi. Sakinlər hər görüşdə bu barədə rayon rəhbərliyinə müraciət edirdilər. Nəhayət, Lovayın su anbarından kəndə yeni suvarma xətti çəkilməklə su anbarı tikildi. Bununla böyük bir problem həllini tapdı. Gələcəkdə su anbarının həcmi artırılmaqla qonşu kəndlərə də suvarma suyu veriləcək.

Burzubənd səfalı kənddir. Turistlərin maraq göstərdiyi yaşayış məntəqələrindən sayılır. Yol infrastrukturu yeniləndən sonra Burzubəndlə yanaşı, ən ucqar kəndlərə də ilin bütün fəsillərində turist və qonaqlar gəlir. Bu da sözsüz ki, sakinlərə ailə büdcələrini artırmağa imkan verir.

Bunlarla yanaşı, kəndin bəzi problemləri də var. Bəzi məhəllələrdə elektrik enerjisi gərginliyinin aşağı olması, yeni məhəllələrə qaz xəttinin çəkilməməsi, dağlıq ərazilərdə elektrik xətlərində qəza baş verən zaman kəndlərdə elektrik verilişində fasilələrin yaranması həmin problemlərin sırasındadır. Sakinlər bu barədə rayon rəhbərliyinin kənddə keçirdiyi görüş zamanı məsələ qaldırıblar və ümid edirlər ki, sözügedən problemlər də operativ həll ediləcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Naxçıvan ölkədə birinci yerdədir

**"Naxçıvan ölkəmizdə bir kvadratmetr əraziyə düşən Günəş işığına görə birinci yerdədir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri "Merlər razılaşması-Şərq tərəfdaşlığı" təşəbbüsü ilə bağlı Naxçıvanda keçirilən tədbirdə çıxışı zamanı Energetika Nazirliyinin Enerji səmərəliliyi şöbəsinin müdiri Cahid Mikayılov söyləyib.



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının da "yaşıl enerji" zonası elan edildiyini xatırladan şöbə müdiri bildirib ki, enerji səmərəliliyi iqtisadi faydalar, ətraf mühitin qorunması və gələcək nəsillərə daha sağlam mühitin ötürülməsi deməkdir.

## Neftçalada yazlıq və çoxillik əkinlərinin bəyan edilməsinə dair maarifləndirici tədbir olub

**Rayon icra hakimiyyətinin, Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə inzibati ərazi dairə üzrə nümayəndələrin, bələdiyyə sədrlərinin, Sudan İstifadəedənlər Birlikləri rəhbərlərinin, fermerlərin iştirakı ilə yazlıq və çoxillik əkinlərin bəyan edilməsi mövzusunda maarifləndirmə tədbiri keçirilib.**



RİH başçısının müavini - Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Burcalı Ağayev tədbiri giriş sözü ilə açaraq ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün həyata keçirilən tədbirlərdən biri kimi kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması barədə məlumat verib. Prezidentin 27 iyun 2019-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən, ölkə ərazisində bütün növ subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi üzərindən həyata keçirilməsi, yazlıq və çoxillik əkin bəyanlarının başlanmasının və cari il mayın sonuna qədər davam edəcəyi barədə rayon ərazisində fəaliyyət göstərən fermerlərin eagro.az saytı vasitəsilə onlayn şəkildə bilavasitə özləri tərəfindən, eyni zamanda DAİM-ə, eləcə də regional "ASAN xidmət" mərkəzlərinə və KOB evlərinə müraciət etməklə əkinlərini bəyan edə bilmələri barədə məlumatlandırılması və bu istiqamətdə RİH başçısının inzibati ərazi dairəsi nümayəndəlikləri, bələdiyyə sədrləri tərəfindən zəruri dəstək göstərilməsi ilə əlaqədar müvafiq tövsiyələr, tapşırıqlar diqqətə çatdırılıb.

Neftçala DAİM-in direktoru Miradil Əhmədli çıxış edərək əsasən dövri olaraq fermerlərə subsidiya ödənişi üçün onların bəyan məlumatlarının monitorinq edilməsi və qiymətləndirilməsi, eyni zamanda rayon ərazisində fəaliyyətdə olan fermerlərin 2025-2026-cı ilin payızlıq əkini dövründə bəyanlarının yerində yoxlanılması üçün monitorinq qrupunun yaradılması barədə geniş məruzə edərək bır sıra məqamlara toxunub, yazlıq və çoxillik əkinlərin bəyan edilməsi prosesində qarşıya çıxacaq çətinliklərlə bağlı fermerlərin Neftçala DAİM-də yaradılmış "qaynar xətt"ə müraciət etmələri tövsiyə olunub.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## Naftalanda "Şəhərsalma və Memarlıq İli" çərçivəsində tədbir keçirilmişdir

**Naftalanda şəhər icra hakimiyyətinin təşkilatçılığı və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Azərbaycan memarlıq ənənələri-müasir çağırışlar" mövzusunda tədbir keçirilmişdir.**



İştirakçılar əvvəlcə Heydər Əliyev Mərkəzində Ümummilli Liderin şərəfli ömür yolunu əks etdirən fotoeksponatlara və Azərbaycan memarlıq nümunələrini əks etdirən kitablardan ibarət sərgi ilə tanış olmuşlar. Sonra tədbir çərçivəsində Azərbaycanın tarixi, milli ənənələri, eləcə də ölkəmizin qədim və müasir memarlıq nümunələrini əks etdirən videoçarx nümayiş etdirilmişdir.

Tədbirdə çıxış edənlər Azərbaycan memarlıq məktəbinin zəngin irsinin qorunması, şəhərsalma və memarlıq sahəsində müasir yanaşmalarla zənginləşdirilməsi, eləcə də şəhərsalmanın tarixi inkişaf yolundan danışmış, Azərbaycan memarlıq məktəbinin formalaşmasında və şəhərsalma sahəsinin inkişafında Heydər Əliyevin müstəsna xidmətlərindən söhbət açmışlar.

Çıxışlarda qeyd edilmişdir ki, Prezident İlham Əliyevin 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi ölkə mədəniyyətinin inkişafına və memarlıq irsinin qorunmasına yüksək töhfələr verəcək. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin tətbiqi, genişmiqyaslı abadlıq və quruculuq işlərinin aparılması, infrastrukturun müasir tələblər əsasında yenidən qurulması və ərazilərin sürətli dirçəldilməsi bu siyasətin ardıcıl və məqsədyönlü şəkildə davam etdirildiyinin əyani təzahürü olacaq.

Çıxışlarda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə tarixi-memarlıq abidələrinin qorunması və bərpası istiqamətində görülən işlərdən də söhbət açılmış, milli-mədəni irsin beynəlxalq səviyyədə tanıdılmasında mühüm işlər görüldüyü qeyd edilmişdir.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

# Qara bax, qara...

## Qışın ləzzətini Qubada çıxaranların sayı artır

**Qış turizminin ən qızğın dövrüdür. Doğrudur, Azərbaycanda qış turizmi dedikdə, əsasən, Şahdağ (Qusar) və Tufandağ (Qəbələ) dağ-xizək kurortları yada düşür. Lakin digər bölgələrimiz də qışda gəzinti sevənləri öz səmtinə çəkir.**

Şimal bölgəmiz Quba, xüsusilə rayonun dağ kəndləri qış turizmi üçün fərqli təcrübələr nümayiş etdirir, o cümlədən gəzinti və yerli mədəniyyətlə tanışlıq təklif edir. Ümumiyyətlə, Qubada turizm qeyri-neft sektorunun ən çox inkişaf edən sahələrindən sayılır. Bu bölgədə turizm infrastrukturunun müasir standartlara uyğun qurulmasına və ilin bütün fəsillərində işlək olmasına xüsusi diqqət yetirilir. Halbuki haradasa 15 il əvvəl Qubada yalnız yay turizmindən söhbət gedə bilərdi. İndi rayona ilin bütün fəsillərində insan axını var, hər fəsildə dünyanın müxtəlif yerlərindən Qubaya minlərlə insan səfər edir.

Quba hələ sovet dönəmindən respublikamızın bir neçə cəlbedici turizm rayonlarından biri idi. Yəni adı Naftalan, Qusar, Qalaaltı ilə eyni sırada səslənirdi. Müstəqillik dövrünün ilk illərindən başlayaraq, burada da köhnə brendlər təzələndi və təkmilləşdirildi. İndi turizm bu rayonun daha geniş ərazilərini əhatə edir.

Turizm zonası kimi inkişaf edən, valehedici flora və faunaya, əsrarəngiz təbiətə malik Quba hər fəsildə olduğu kimi, qışda da öz qonaqlarına qucaq açır. Rusiya ilə sərhədin bir addımlığında, paytaxtdan cəmi 150 kilometrlik məsafədə yerləşən rayon qışda dağ kəndləri ilə turistlərin marağına səbəb olur. Bir çox turist çadırlarda qalmağı adrenalin kimi qəbul edir. Kəndlərdəki bulaqlar, qədim qalalar da onları daha çox cəlb edən marşrutlar sırasındadır.

Şahdağın ətəklərində və Qudyalçayın sahilində qərar tutan Qubada bu günlər çoxsaylı səyahət həvəskarına və təbiət vurğununa rast gəlmək mümkündür. Onların dağ və dərələrdən, tarixi qədim dövrlərə gedib çıxan yaşayış məskənlərindən, tikililərdən heyranlıqları üzlərindən, gözlərindən görünür. Deyirlər ki, bura dəfələrlə gəliblər, amma ürək bu yurdun gözəlliyindən doymur.

Qubaya qar payızın sonlarından yağmağa başlayır. Elə həmin vaxtlardan başlayan turist axını fasiləsiz davam edir. Rayonun kənd və hotel turizmi də öz işini bu axının tələbatına uyğun qurmağa çalışır. Doğrudur, payız və qış aylarında turistlər rayon mərkəzində və hotellərdə qalmağa üstünlük verirlər, amma qarlı və keçilməz yollarla səyahət etmək istəyənlər də az olmur. Təxmini hesablamalara görə, qarlı havalarda, yəni ötən iki ayda Qubaya gələn turistlər yay mövsümündə gələnlər qədərdir. Son iki həftədə yağan qarın ləzzətini yaşamaq istəyən turistlərdən hətta açıq hava altında çadır quranlar da var.

Qubada turizm fəaliyyəti ilə məşğul olan Ruslan Hüseynov bildirir ki, əvvəllər yanvar-fevral aylarında, əsasən, təmirlə, ləvazimatların yenilənməsi və yaya hazırlıqla bağlı digər işlərlə məşğul olurdular: "İndi isə xüsusən şənbə və bazar günləri bizim istirahət mərkəzimizdə oturmağa belə, yer olmur. Əsasən də paytaxtda və ətraf ərazilərdə qar olmayanda insanlar bu tərəflərə daha çox üz tuturlar".

Quba sumqayıtlıların da ən çox sevdiyi turizm məkanlarındandır. Sumqayıt sakini Məhərrəm Əkbərovun ailəsi ilə birlikdə ilin bütün fəsillərində üz tutduğu istirahət yeri şimal bölgəsidir. O, bizimlə söhbətində dedi ki, Qubaya qışda ailəliklə gəlirlər: "Yeni doğulan nəvəmə həkimlər təmiz hava məsləhət görüblər. Həftənin demək olar ki, dörd gününü burada keçiririk. Bu, körpəyə çox müsbət təsir edir".



Qubadakı istirahət mərkəzlərinin ilin bütün fəsillərində fəaliyyət göstərməsi də məhz bu tələbatla bağlıdır. Artıq bu sahədə bir "Quba" brendi də formalaşıb. Hazırda Qonaqkənd istiqamətində yolların təmir edilməsi bu ərazilərə turist axını ilə müşahdə olunur. Pirvahid, Nügədi, Qamqam və digər bir-birinə bitişik kəndlərdə turistlər qar yağmağa başlayandan evlərin çoxunu kirələyib. Elə ona görədir ki, səhərlər bu yerlərdə təndir çörəyinin xoş ətri təbiətin saf nəfəsinə qarışaraq ətrafı bürüyür.

Möhüc, Tülər, Gültəpə,Yenikənd kimi səfalı dağ kəndləri yeni turist marşrutunun əsası ola bilər. Artıq burada da yollar təmir edilib. Kəndlərə düşən ara yollar da təmirlidir. Qalır bircə bu istiqamətdə turist marşrutlarının təşkil edilməsi, kirayə veriləcək evlərin şəraitinin yaxşılaşdırılması. Yəqin yay mövsümünədək bu məsələlər də yoluna düşər.

Onu da deyək ki, rayonda qarlı şəraitə öncədən hazırlıq görülüb. İstirahət mərkəzlərinin ərazisinə duz, yolların ətrafına qum gətirilib. Amma qar fırtınası ilə üzbəüz gəlməyin dadını çıxarmaq istəyənlərə turizm şəbəkələri ehtiyatlı olmağı məsləhət görür. Çünki son illər qarlı dolaylarda həyatını itirən və zədə alan insanların taleyi hamıya bəllidir.

Qaldı ki, saysız-hesabsız təamlarla zəngin şimal bölgəsi mətbəxinə, qış aylarında da qonaqlara təqdim etməyə çox çeşidlər var. Mütəxəssislər bu şərtin də vacibliyini vurğulayırlar. Bir sözlə, burada insanların bir-birini tərcüməçisiz başa düşməsi o qədər də çətin deyil...

"Qışın ömrü qısa olur" deyiblər. Odur ki, ağ örpəkli bu fəslin gözəlliyindən zövq almaq fürsətini əldən verməyək.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 20 iyun (Cümə günü) tarixli 208-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 21 ramazanül-mübarək sənə 1337.
20 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## FORUM

İyun ayının 20-dən Bolşoy Morskoy küçədə vaqe "Forum" teatrosunda Azərbaycan Cümhuriyyətinin bir sənəliyi münasibətilə 28 Mayda olan bayram şənliklərinin şəkilləri göstəriləcəkdir. Bu şəkildə o gün Bakı xalqının necə bir şövq və həvəslə bayrama iştirak etdikləri, küçələrdə əsgərlərin nizamla keçdikləri, hasili o gün Bakıda vaqe olmuş bütün mənzərələr açıq və aydın surətdə göstərilməkdədir. Bu böyük gün Azərbaycan türklərinin həyatında istər tarixi qiymətlə, istər təntənə və dəbdəbəsi ilə böyük bir əhəmiyyəti haizdir [əhəmiyyət daşıyır]. Hər azərbaycanlı özünün keçmiş yaxın tarixini tamaşa etməyə tələsməlidir.

*T-153*

Bakı Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" İdarəsi bununla cəmi istehlak cəmiyyətlərinə və müəssisələrə elan edir ki, Maliyyə Nəzarəti İttifaqın baş kontoru binasını həcz [müsadirə] etdiyindən, kontor müvəqqəti olaraq İttifaqın Kommerçeski məktəbinə (sabiq Kalantarov) köçürülmüşdür. Bolşoy Morskoy nömrə 22, Kamenski küçənin küncündə, Mailovun evində. Kontor səhər saat 8-dən 2-dək açıqdır.

Telefonlar: İdarə: 28-15. Ticarət şöbəsi: 37-24. Ümumi və hesabdarlıq şöbəsi: 16-38.

*10243*

## RAHAT YAT!

Ən yaxşı əlac hər cür həşəratı məhv etməkdən ötrü. O. L. Tunikin icadı. Satılır hər bir aptekdə və yaxşı apteka mağazalarında.

*10248*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Məşixəti-İslamiyyə İdarəsindən**

İşbu ramazanül-mübarəkin 21-i (həziran 20 cümə gününə müsadifdir [təsadüf edir]) əhya və Həzrəti Əmir əleyhissəlamın şəhadəti günü olmaq münasibətilə bütün məsacid və mənabirdə [məscidlərdə və minbərlərdə] o günün şərəf və qədrinə aid və'zlər edilib, ayini-təziyədari icra ediləcəkdir. Ümum müsəlmanların həman gün işlərini tətil edərək məscidlərə toplanması mütəmənnadır [xahiş olunur].

*Məşixət sədri şeyxülislam:*
*[Axund Ağa] Ağaəlizadə*

**Posta və Teleqraf Nəzarətindən verilən**

*Əmrnamə 52*

Bu sənəsi mayın 31-də Göyçay posta və teleqrafxanasının müdiri Məhəmmədtağı Əbilov Ağdaş posta və teleqrafxanasının müdirliyinə köçürülür. Gəncə posta və teleqrafxanasının 4[-üncü] dərəcəli məmuru Qurbanəli Dərvişov isə Göyçay posta və teleqraf bürosunun müdirliyinə təyin edilir.

*Əmrnamə 53*

Bu sənəsi həziranın 3-dən etibarən Nikolay Stanislaviç Malinovski dəftərxanamın kargüzarlıq müavini təyin edilir.

*Əmrnamə 54*

Bu sənəsi həziranın 1-dən etibarən Azərbaycan Posta və Teleqraf nahiyəsi müdiri olan N. F. Kovalski ərizəsinə binaən [əsasən] xidmətindən əzl [kənar] edilir. Dəftərxanamın 5-ci şöbə müdiri olan, həm də müvəqqəti olaraq Azərbaycan Posta və Teleqraf nahiyəsini idarə edən Bəhlul bəy Vəzirov fövqdəki [yuxarıdakı] tarixdən şöbə müdirliyindən kənar olmaqla nahiyə müdirliyinə təyin edilir.

*Əmrnamə 55*

Bakı Mərkəzi və Baş posta və teleqraf bürosunun müxabirat [yazışma, məktublaşma] və posta təşrifat və cariyyatını [üsullarını və işlərini] doğru və tövsi etmək [genişləndirmək] nəzəri ilə bu sənəsi həziranın 1-dən etibarən Bakı 1 klaslı posta və teleqraf bürosunun müdiri Bəhram bəy Vəzirov Posta şöbəsinin müdirliyinə, Gəncə posta və teleqraf bürosunun müdiri müavini olan Abbas bəy Ağayev isə Bakı Mərkəzi 1 klaslı teleqraf şöbəsinin müdirliyinə müdir təyin edilir.

*Əmrnamə 56*

Bu sənəsi həziranın 1-dən etibarən Qusar posta və teleqraf bürosunun müdiri Bakı posta və teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür.

*Əmrnamə 57*

Bu sənəsi həziranın 1-dən 7 klaslı Hacıqabul posta və teleqraf bürosunun müdiri Qavril Komar Gəncə posta və teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür.

*Əmrnamə 58*

Bu sənəsi həziranın 7-dən Judavstvo Koltuşski posta və teleqrafxanasının müdiri Nağı İsmayılov ərizəsinə məbni [əsasən] bittamam [tamamən] xidmətindən kənar edilir.

*Əmrnamə 59*

Bu sənəsi həziranın 5-dən Bakı telsiz teleqraf mövqifinin [stansiyasının] məmuriyyəti daxilindən telsiz teleqraf müxabirəçisi Porfir Kozlov xidmətindən kənar edilir. Onun yerində isə Kart Lubinko telsiz teleqrafçı təyin edilir.

*Əsillərində imza etdi:*
*Posta Teleqraf naziri*
*və Dəftərxana baş müdiri*
*Əslinə mütabiqdir:*
*Kargüzar R[əsul] Rəhimli*

## MACƏRACULUQ

Bir var ki, rast [düz], məqul [ağlabatan], sağlam bir politika yürütmək, bir də var ki, macəraculuq saiqəsi [macərapərəstlik sövqü] ilə meydana atılıb işin aqibət və nəticəsini mülahizəyə almadan hər nə olur-olsun deməklə siyasət məntiqinə müğayir [zidd], mənafeyi-ümumiyyəyə zidd, səlaməti-milliyə üçün qorxulu, asayişi-məmləkət üçün zərərli olan hərəkət və təşəbbüslər icrası ilə ümumi bir fəlakət hazırlamaq...

İnsanı böylə bir macəracu olmaq əməlinə vadar edən səbəblər çox ola bilər. Fəqət ümdələri üç qisim səbəbdir: birinci cəhalət, ikinci sui-niyyət, üçüncü mənəmlik.

Bir cahilin siyasət işlərinə qarışması, siyasət meydanında rol oynamaq təşəbbüsü, mənsub olduğu millət, övladı olduğu vətən, təbəəsi olduğu dövlət üçün böyük zərərlər törədə bilər. Böylə cahil bir adam özü kimi qanmaz və anlamazları da başına cəm edib birdən-birə öylə qeyri-məqul [ağılsız] hərəkətlər çıxarda bilər ki, nəinki "qaş düzəldərkən göz tökər", hətta başın özünü də cəhaləti yolunda fəda edib böyük bir bərbadlıq meydana gətirər.

Sui-niyyət ilə macəracu olmaq istəyənlər isə daha təhlükəlidirlər. Çünki bunlar hər nə edirlərsə, bilə-bilə edərlər. Aqilanə və səyli əllər ilə qurulmuş olan binaları, qəsd və təəmmüd [qərəz] ilə uçurmaq istəyərlər ki, əməllərinin nəticəsi olacaq bu xarabalıqları seyr və tamaşa ilə ləzzətyab olsunlar [ləzzət alsınlar]. İblis təbiətli və şeytan ruhlu yaranmış olan bu macəracular üçün heç bir pak, heç bir müqəddəs şey yoxdur. Onlar üçün millət, vətən, istiqlal – həpsi boş və bimənə sözlərdir. Təqdis etdikləri [müqəddəsləşdirdikləri] bir şey varsa da, o da yalnız uçurub dağıtmaq əməli, sitayiş etdikləri bir allah varsa, o da zülüm və şər allahıdır.

Bu iki əvvəlki qisim macəraculardan daha zərərlisi mənəmlik iddiası ilə meydana çıxanlardır. Bunların fikri milləti də, vətəni də, dövləti də və istiqlaliyyəti də öz şəxsi mənəmlik və şöhrətinə qurban etməkdir. Şəxsi "eqoizm" denilən möhlik [təhlükəli, öldürücü] bir mərəzə [xəstəliyə] mübtəla olan bu şöhrətpərəstlər, adına şöhrət qazandırmaq üçün bütün məmləkəti od və atəş içində yaxıb-yandırmaqdan əl çəkməzlər.

Bu sadaladığımız macəracular öz məqsədlərinə çatmaq və məramlarını ələ gətirmək üçün avamfirib [camaatın xoşuna gələn şəkildə danışan, demaqoq] bir libasa bürünüb, guya millətpərəst və vətən dostdur deyə safdərunları [sadəlövhləri], cahil və qanmazları nəşeyi-milli və təəssübi-dini iqaz edən [oyandıran] sözlərlə aldadıb, avamyana bir təbirlə "başlarını piyləyib" öz əllərində kar və kor bir alət və vasitəyə döndərib, ondan sonra bildiklərini edərlər. Yəni həqiqi millətpərvər, vətən sevgilisi olan aqil siyasət sahibi olanların min zəhmət və məşəqqətlə meydana çıxarmış olduğu hər bir xeyirli əməllərin mənfəətli nəticələrini pozub, dağıdıb, məhv və nabud [yox] edirlər. Böylə macəraculara inanmış olan yazıq, safdil millət dəxi aldandığını, aləti-məsxərə olduğunu o vaxt başa düşür ki, daha işişdən keçmiş ola! Aldandığına, qandırıldığına əfsus edib peşman olarsa da, "sonrakı peşmanlıq fayda verməz" məfadınca [mənasına uyğun olaraq] yəs və naümidi [peşmançılıq və ümidsizlik] qarşısında əli qoynunda qalar.

İştə, istiqlalını elan etmiş olduğumuz Azərbaycanımızı nəinki bir qara və qırmızı təhlükələrdən qorumalı, bəlkə böylə macəracuların "ağ təhlükələrindən" dəxi gözləməlidir.

Buna görə, hər bir məsuliyyətsiz olan tanınmamış və bilinməmiş adamların zahirdə nəzərə xoş görünən sözlərinə inanmamalıdır. Zira ki, zahiri xoş isə də, batini və gizli tərəfi qorxulu və zərərlidir. Biləks [əksinə], səy etmək lazımdır ki, böylə atılıb-düşənləri yerlərində rahat oturtmaq və ya içimizdən tərd və təbid etmək [qovmaq və uzaqlaşdırmaq], ağızlarını yummaq, əməllərinə qarşı sədlər çəkmək, "fitnə yatıbdır, Allah lənət etsin onu durğuzanlara" sözlərini yadda saxlayıb da zahirdə nəzm və nizam tərəfdarı, lakin batində fitnə və fəsad qovzamaq istəyən böylə macəraculardan çəkinməli və ehtiraz etməlidir [özünü qorumalıdır].

Parlamanımızın təsdiqi ilə zimami-hökuməti [hökumət cilovunu, idarəsini] əlinə almış və məmləkət dolandırmaq və məmləkətimizi təhdid edən bir taqım sağ və sol təhlükələrindən millət və vətəni qan tökülməksizin qurtarmaqla öz iqtidarını, müdəbbirliyini [uzaqgörənliyini], əzm və səbatını, dürüst və sağlam siyasət təqib etdiyini ümum millət əfradına [fərdlərinə] təsdiq etdirmiş olan bir hökumətimiz olduğu halda, bu hökumətin siyasətini pozmaq istəyənlərə, hökumətin razılığı olmayan bir taqım əməllər icrasına dəvət edənlərə qulaq asmaqlıq nə böyük xəta və nə fahiş bir qələtdir [böyük bir səhvdir]!

Millətimiz əfradını böylə macəracular təhlükəsindən xəbərdar edib də, hər bir əməlin aqibətini fikir etmək, qeyri-məqul [ağılsız] hərəkətlərdən əl götürmək, dərin fikirli, sağ və salamat bir siyasət sahibi olmaq və hökumətimizə qarşı nəzm və nizam ehtiramını saxlamaq kimi düz və doğru yollara dəvət edirik.

*Üzeyir Hacıbəyli*

## BATUMDA DENİKİNLƏR

Denikin Dağıstanda [Mikayıl] Xəlilovu buldu [tapdı]. Batumda öz sadiq müridi, sabiq Batum general-qubernatoru Romanko-Romanovskini vasitə etdi.

Batumda Denikin həyulası ta Türkiyə hakimiyyəti zamanından bəri mövqelərində qalmış, mürtəce postlarını tutmuşdular.

Türklər sabiq Rusiyanın bu köhnə çinovniklərini o dərəcədə iltifatlara qərq etmişlərdi ki, bol-bol türk lirələri, pudlarca ərzaq və məkulat [azuqə] onlara türk xəzinəsindən verilir, bir növ haqqi-sükut müqabilində [susmaqlarının qarşılığı kimi] bu nemətlər ehsan olunurdu.

Türklər Batumu təxliyə etdikdən sonra bu köhnə çinovniklər ingilislər ətrafına toplandılar. İngilislərlə bərabər doqquzlu sovet təşkil etdilər. Sovetin başçısı Maslov oldu. Sovetin məqsəd və məramı Rusiya idarəsini orada diriltmək, təfəssüx etmiş [dağılmış] rus çinovniklərini bütün Batum oblastının islam demokratiyasına [müsəlman xalqına] hakim eyləməkdi. Doqquzlu sovet bir çox protestolardan, bir çox müaxizələrdən [qınamalardan, məzəmmətlərdən] sonra mövqeyindən çəkildi. Bu səfər bir başqa sovet təşkil olundu. Fəqət bu sovet də islam demokratiyasının hüququnu təmin edəcək bir surətdə deyildi. Bununla bərabər, "əhvəni-şər" [daha az zərərli] surəti ilə qəbul edildi.

Günlər keçdi, islam əhalinin ümidi Cənubi-qərbi Zaqafqaziyanın bir hökumət halına girməsində idi. Fəqət bu ümid də boşa çıxdı. Daşnak intriqası Cənubi-Qərbi Zaqafqaziya Hökumətini dağıtdırdı. Ermənilər Qarsda hökumət təşkilinə girişdilər. Batumda da mürtəce güruh bir başqa fürsət aramağa başladı. Nəhayət Romanko-Romanovski də Batuma gəldi çıxdı. Şimdi Romanko-Romanovski fəaliyyətdədir. Romanko İkinci Nikolanın yaxın qövmlərindəndir [qohumlarındandır]. Rusiyada yeganə monarxist bir tip varsa, o da bu Romanovskidir.

Romanovskinin Batumda etmədiyi rəzalətlər, yapmadığı intriqalar yoxdur. Bir zaman panslavist cəmiyyətinin fəxri üzvü olaraq missionerlik də etdi. Bir zaman canişinin fövqəladə xüsusi bir məmuru olaraq xəfiyyəlik də eylədi. Bir zaman bütün Acaranı haydud [quldur] Lyaxov ilə bərabər atəşə atdı. Bir zaman gizli əmrlərə qol çəkərək yüzlərcə Acara kəndlərini yandırdı. Bir zaman...

İştə, bu qədər çox, bu qədər artıq işgüzarlıqlar edən Romanovski şimdi yenidən Batuma getmiş, guya xüsusi mülklərinin idarəsini bəhanə eyləyərək orada yaşamaq lüzumunu hiss etmiş. Romanovskinin ətrafında general xəlilovlar tipində bəzi kimsələrin bulunması məlhuz [gözlənilən] bir keyfiyyətdir. Fəqət mən onların şimdiki halda siyasi simalarını açmayacağam. Ancaq istərəm ki, bizzat [şəxsən] müsəlman camaatının nə qədər müəssir və mütəəssif [təsirli və təəssüflü] bir vəziyyətdə qaldığını təhlil edim.

Hər kəs bilir ki, acaralılar bütün həyatlarını yalnız başına öz mövcudiyyətinə zidd gedən cərəyanlara qarşı mübarizə etməklə keçirmişdir. Camaatın bu haləti-ruhiyyəsi hər şeydən ziyadə iki amilin təsiri altında idi – biri camaatın başında bulunanların laləttayin [düşünülməmiş, təsadüfi] bir siyasət təqib etməyə tərəfdar olmaları, digəri də rus idarəsinin istər sosialist, istər monarxist olsun istibdadkaranə rəftarıdır.

Camaat türk idarəsindən də bir fayda alammadı. Çünki Türkiyə siyasəti islam əhalini idarədən ziyadə xristian əhaliyə fəzlə iltifatdan ibarət idi. Türklər getdi, ingilislər gəldi. Əhali yenə əski halında qaldı. Bu əski hala yeni bir taqım macəracu güruh da əlavə olundu. Bu macəracu güruhun şimdi başında sabiq Batum general-qubernatoru Romanovski ilə əski "Novoye vremya"nın mühərriri vardır. Biri əməliyyatda çalışır, digəri də "Naş kray" qəzetəsinin təhrikamiz və müfsidkaranə [təhrikedici və araqarışdıran] sütunlarında.

[Romanko-]Romanovski Batumda bir könüllü dəstəsi yığmağa başlamış, amma bu könüllü dəstənin bir üsyan ordusu halına girəcəyini şimdidən təyin etmək mümkündür. Çünki bütün Acaranın yeganə iki düşməni varsa, biri qara Lyaxov, digəri də Romanovskidir.

Bakının Denikin ordusu tərəfindən işğal edildiyini elan edən "Naş kray" əlbəttə oradakı islam əhalini ümidsiz bir hala salmaq üçün bu yolu ixtiyar etmişdir. Başqa bir məqsəd deyil!

Batumda Denikinlərə qarşı bütün islam əhali mübarizə edə biləcəyinə bizim qənaətimiz olmaqla bərabər, hökumətin də bu incə məsələdə fürsət qeyb etməməsini və islam əhalinin ümid və əməllərinə müzahirət [köməklik] eyləməsini biz də lazım görürüz.

*Ə. Həmdi [Qaraağazadə]*

## TELEQRAF XƏBƏRLƏRİ

**Reyn rəisi-cümhuriyyətinin həbsi**

Kopenhagendən verilən xəbərlərə görə, Almaniya hökuməti əmr vermişdi ki, yeni Reyn Cümhuriyyətinin rəisi-cümhuru doktor Dorten həbs edilsin. Almaniya hökuməti Fransanın istila qoşunlarının hərəkətinə qarşı Parisdə və Asiyada etiraz eyləmişdir.

**Müttəfiqlər və Kolçak**

Beş müttəfiq dövlətin Ali Şurası Kolçak namına bir teleqram göndərərək deyir ki, onun cavabı qənaətbəxşdir və Müttəfiq dövlətlər ona edilən vədəyə görə, müavinətə hazırdırlar. Ona silah, əlbisə və ərzaq verəcəkdirlər. "Petit" jurnalının vədinə görə, Kolçaka göndərilən kağızda Kolçak hökuməti rəsmən təsdiq edilməyir.

- Liondan xəbər verirlər ki, Müttəfiqlər Kolçak haqqında nə cür siyasət yürüdəcəklərini hələ həll edib qurtarmamışlardır. Çünki Kolçak daima öz hərbi hərəkatında müvəffəqiyyətsizdir. Sülh Konfransı dairəsində Kolçakın tərəfdarı azdır.

**Bolqariyada fəhlə hərəkatı**

Bolqariya fəhlələri şurası bütün fəhlələrə müraciətlə tətil elan etməyə dəvət edir. Dəvətnamədə deyilir ki:

*"Biz qoymarıq ki, fəhlə hərəkatı dayandırılsın. Rədd olsun Bolqariyaya gələn əksinqilab! Yaşasın hürriyyət uğrunda mübarizə edən Bolqariya xalqı!"*

## SÜLH ƏTRAFINDA

- İqtisadi işlərə baxan komissiya almanların əks-təklifinə qarşı məruzə hazırlamışdır. Bu günlərdə Sülh Konfransına təqdim edəcəkdir.

- Qəzetələrin məlumatına görə, Yuxarı Sileziya rəyi-amm [referendum] məsələsində nemeslərə güzəşt edilmişdir. Sonra vəd edilmişdir ki, Almaniya məsələləri müzakirə edilərkən Almaniya nümayəndələrinin məruzəsinə qulaq asılsın. O ki qaldı xəsarəti ödəmək məsələsinə, bu işlərə baxan komissiyaların vəzifələri müəyyən edilmişdir.

- Klemanso dünən Foş ilə görüşüb almanlar sülh müahidənaməsini [sazişini] imza etmədikləri təqdirdə nə kimi iqdamatda bulunmaq [addımlar atmaq] məsələsini onunla müzakirə eyləmişdir.

- Liondan xəbər verilir ki, sülh şərtnaməsində heç bir təbəddülat [dəyişiklik] olmayacaqdır. Lloyd Corc Klemanso ilə Vilsonun arzularına güzəşt etmişdir. Almaniyanın əks-təklifinə sülhcuyanə [sülh-pərvər] bir surətdə cavab veriləcəkdir. Orada deniləcəkdir ki, Müttəfiqlər Almaniyanın iqtisadi işlərinə qarışmaq istəməyirlər. Xəsarət iadəsi [ziyanın ödənilməsi, kompensasiya] miqdarı təxmin edilməmişdirsə də, bunun səbəbi də göstərilmişdir. İngiltərə və Amerika nümayəndələri bu rəydədirlər ki, Almaniyadan külli xəsarət tələb eyləmək almanları sülhü imza etmədən vaz keçindirəcəkdir. Fransızlar isə, az məbləğ təyin edilməsindən ehtiyat edirlər.

**Koreya istiqlaliyyət istəyir**

Londondan xəbər verirlər ki, Koreya hökuməti Konfransa bir ərizə verərək tələb edir ki, Koreya Yaponiyadan ayrılıb müstəqil elan edilsin. 1910-cu ildə bağlanmış olan Samuan müahidənaməsi [sazişi] ləğv edilsin. Çünki bu müahidənamə Yaponiyanın təzyiqi ilə əqd edilmişdi [imzalanmışdı]. Koreyalılar deyirlər ki, o zaman Yaponiya tələbatını qəbul etməyə məcbur olmuşdular. Yaponiyanın Koreya haqqında olan rəftarı beynəlmiləl qanunu və Koreyanın istiqlalını xələldar edirdi [pozurdu]. Həman ərizədə əlavə edilir ki, Koreyanın istiqlaliyyəti bir çox müahidə-namələrlə təmin edilmişdi ki, onlar gərək Yaponiya və gərək sair dövlətlər tərəfindən imza edilmişdi. Beynəlmiləl konqredə nümayəndələri olan dövlətlərin iştirakı olmadan Koreya istiqlalı xələldar ediləmməz. Ərizədə koreyalılar tələblərində haqlı olduğunu etirafla, Elzas-Loren və Polşanı nümunə göstərirlər. Ərizə 18 milyon əhalisi olan cümhuriyyətli Koreya hökuməti tərəfindən imza edilmişdir.

**Rusiya və Cəmiyyəti-Əqvam**

Liondan verilən xəbərlərə görə, Kolçaka vəd edilmişdir ki, Rusiyada asayiş bərpa ediləndən sonra Rusiya Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil ediləcəkdir.

**Türkiyə nümayəndələri**

Türkiyə sülh mürəxxəsləri [nümayəndələri] Versala varid oldular [çatdılar]. Avstriya və alman nümayəndələri kimi bunlarla da ehtiyatla rəftar ediləcəkdir.

**Fiume məsələsi**

Zənn etmək olar ki, Fiume məsələsi hələ tez həll edilməyəcəkdir. Sonninoya mənsub olan "Jurnal de İtaliya" bu məsələdə Vilson əleyhinə şiddətli məqalələr dərc edir.

**Berlində nümayiş**

Sosialistlər tərəfindən hazırlanmış olan böyük nümayişdə müxtəlif natiqlər nitqlər irad etmişlərdir. Deputat Fişer Reyxstaq imarətindən danışaraq bəyan eyləmişdir ki, vaxtilə romalılar tərəfindən Kar-fagenə təklif edilən sülh şəraitindən indiki müahidənamə [saziş] daha ağırdır. Sonra camaat Brandenburq darvazasından Vilhelmştrasseyə keçərək "Adlon" hoteli qarşısında dayanmışlardır. Bu hoteldə Müttəfiqlər nümayəndələri yaşayırlar. İki nəfər natiq qızğın nitq irad edərək təklif eyləmişlər ki, nümayəndələri hoteldən çıxarıb onların rəyini bilsinlər. Polis və qoşunun bu işə müdaxilə etməsi hoteli hücumdan xilas eyləmişdir. Sonra nümayişçilər imperiya kançelyariyası qarşısından keçərkən, burada Şeydeman bir nitq irad edir. Şeydeman demişdir ki, Müttəfiqlərin Almaniyaya təqdim eylədiyi bu müahidənaməni imza etmək mümkün deyildir. Bütün Almaniyada öylə namussuz şəxs tapıla bilməz ki, ifası qeyri-mümkün olan tələbatı qəbul eyləsin. Vəzifəni icra etmək üçün bizə çörək, xammal və işləməyə müsaidə [icazə] lazımdır.

İkinci bir nümayiş də axşam vaqe olmuşdur. Nümayişçilər "Vaxt am Reyn", "Döyçland über allers" nəğmələri oxuyub "Rədd olsun təcavüzçülərin sülhü! Rədd olsun Klemanso! Rədd olsun İngiltərə!" deyə qışqırmışlar. Nəhayət bunlar "Adlon" hoteli qarşısına gəlib, sonra Şeydemandan tələb eyləmişlər ki, nitq irad eyləsin. Şeydeman Vilsonun 14 maddəli sülh müahidənaməsindən söz açdıqda, nümayişçilər "Rədd olsun Vilson!" deyə qışqırmışlardır. Şeydeman əhalidən təvəqqe eyləmişdir ki, bu cür hərəkətlərdən çəkinsinlər və camaata bildirmişdir ki, hökumət camaat arxasındadır.

Nümayişçilər 40 yerdə mitinq tərtib vermişlərdir. Natiqlərin həpsi Müttəfiqlərin müahidənaməsinə protesto etmişlərdir. Bəziləri ümidvar olmuşlar ki, beynəlmiləl proletarya nəhayət müahidənamənin yenidən baxılmasına müvəffəq olacaqdır.

## QƏZETƏLƏRDƏN

**İngilis parlamanında Gürcüstan haqqında**

İngiltərə mətbuatı xəbər verir ki, ingilis parlamanında deputat Konverni İngiltərə qoşunları ilə gürcü qoşunları arasında müsadimə [toqquşma] vaqe olub-olmadığı haqqında Çörçillə bir sual vermişdir. Çörçill məlumat vermişdir ki, böylə müsadimə olmamışdır. Yalnız əhval bundan ibarətdir ki, gürcü qoşunları Qaqranın cənub tərəfində Denikin qoşunlarına hücum eyləmişlər və onları Maxadır çayınadək qovmuşlardır. İngilis Baş komandanlığının protestosuna baxmayaraq, bu əhval vaqe olmuşdur. Gürcülərlə bərabər bolşeviklər və məhəlli [yerli] bandalar da iştirak etmişlərdir. İngilis komandanlığı Qaqraya ingilis qoşunları göndəriləcəyi təhdidindən sonra hərəkati-hərbiyyə dayandırılmışdır. Konverni "Paris Sülh Konfransında gürcü mürəxxəsləri vardırmı?" deyə verdiyi suala Çörçill: "Mən bilməyirəm, yalnız bunu bilirəm ki, biz gürcü qoşunlarına Denikin ordusuna hücum etməyə müsaidə vermirik."

**Petroqradda**

"P. K." qəzetəsinin verdiyi xəbərə görə, Petroqrad şəhəri bu axır günlərdə mühasireyi-əsgəriyyə altında elan edilmişdir. Royter acentəliyinə xəbər verirlər ki, iki drednot, iki kruvazer [kreyser] və bir neçə müxrib gəmi və minonoslardan ibarət bolşevik donanması Kronştadtdan çıxmağa hazırlaşır. Helsinqforsun [Helsinkinin] bombardman olacağından ehtiyat edilib Finlandiya əsgərləri həman oblasta gətirilmişdir. Bununla da demək olar ki, Finlandiya əsgərləri Petroqrad üstə yürüş edəcəklər.

**Petroqradda üsyan**

- Helsinqforsdan "Deyli meyl" qəzetəsinə teleqraf edirlər ki, Petroqrad əhalisi bolşevik hökuməti əleyhinə üsyan qaldırmışdır. Fəhlələr silahlanıb bolşevik əsgərləri üzərinə hücum etmişlərdir. Şəhərin küçələrində müharibə davam edir. Bir neçə ev yandırılıb partladılmışdır.

- Alman qəzetələri xəbər verirlər ki, Petroqradda böyük nizamsızlıq olmuşdur. Fəhlələr "Rədd olsun bolşevik hökuməti" şüarı ilə nümayiş yapmışlar. Nümayişçiləri sakit etməkdən ötrü Çin əsgərləri gətirilmişdir. Bir çox adamlar ölüb və yaralanmışdır.

**Türküstanda**

"Krasnovodsk" qəzetəsinin yazdığına görə, Tecan şəhərini bolşeviklər tərk etmişlər. Şəhər Dobrovol əsgərləri tərəfindən işğal edilmişdir.

**Əfqanıstan sərhədində**

Əfqanıstan hadisələri barəsində Londonda zeyldəki [aşağıdakı] bəyannamə nəşr edilmişdir:

Bir neçə vaxt bundan əvvəl Əfqanıstanda bəzi iğtişaşlar olmuşdur. Zatən əmir Həbibulla xanın qətli və vərəsəlik üzərində olan mübahisədən dolayı həyəcan gözləmək olardı. Hindistan hökumətindən alınan məlumatdan anlaşılır ki, həqiqətən də bu barədə xətrə [təhlükə] varmış. Zahirən Əfqanıstanın müntəzəm qoşunlarından ibarət olan əfqan dəstələri Xeybər keçidi yanında sərhədi keçib Hindistan daxilində Big, Turça, Sninasoka deyilən yerləri işğal etmişlərdi. Sonra gələn xəbərlər həp əfqanlıların irəli yürüş etdiklərini göstərir. Hindistan hökuməti əfqanlıları Hindistan torpağından çıxarmaq üçün lazım gələn tədbirləri ittixaz eyləmişdir [tədbirləri görmüşdür]. Əfqanlılarla mübarizədən ötrü hazırlanmış olan qoşunlar general Barrettin təhti-komandasındadır [komandanlığı altındadır]. Zənn edilir ki, əfqanlılarla mübarizə məsələsi müşkül bir iş deyildir. Hindistanın viskralı əmirə müraciətlə qəti surətdə tələb eyləmişdir ki, bu hərəkətlərin qabağını almaq üçün tədbirlər ittixaz eyləsin [tədbirlər görsün].

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində [Sosial Təminat Nazirliyində] məlumat alınmışdır ki, Marqulis nam [adlı] bir hərif özünü nazir müavini bildirərək dairə müfəttişliklərində müvəkkillər təyin etməklə telefonla əmrlər verir. Nəzarət bu barədə polismeysterə müraciətən hərifin tövqifi [həbsi] üçün tədabir ittixazını [tədbirlər görülməsini] tələb etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Milli Şuraya məlum etmişdir ki, dəmiryollarında ucuz bilet fəqət öz evlərinə azim olan [gedən] qaçqınlara verilir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 20 iyun (Cümə günü) tarixli 208-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

- "Sudomexanik" nam zavod müdiriyyəti Məsai [Əmək] Nəzarətinə məlumat etmişdir ki, su nəqliyyatı şöbəsi vaporları [gəmiləri] sahiblərinə qaytarmışdır. Vapor sahibləri isə, vaporlarını təmir etməkdən imtina etdikləri üçün zavod öz fəaliyyətini məhdudla fəhlələrin bir çoxunu əzl [işdən kənar] etmək məcburiyyətindədir. Müdiriyyət əzl ediləcəklərin siyahısını təqdimlə məlum etmişdir ki, onlardan iki nəfəri zavod komitəsi üzvləridir. Onlar yaxın zamanda qəbul edildikləri üçün əsas üzrə onları da əzl etmək lazım görülmüşdür.

- Gədəbəy zavodu fəhlələri təşkilatından bir böylə teleqram alınmışdır:

Zavod müdiriyyəti tələbatımızı qəbul etmədiyindən naşi [etmədiyinə görə] tətil elan edilmişdir. Şəxsən müzakiratda bulunmaq üçün göndərilən iki nəfər yoldaşlarımızdan birini yolda tövqif [həbs] etmişlərdir. Rica ediriz ki, onun azad edilməsi üçün təcili tədabir ittixaz edilsin [tədbirər görülsün].

*Gədəbəy zavodu fəhlə komitəsi sədri: Sabikov*

- Dəlilər mövqifindən də [stansiyasından da] bir böylə teleqram alınmışdır:

Məni şimdi tövqif [həbs] etdilər.

*Mirzə*

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Maliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Ərəş qəzası Seyidlər köyündən alınacaq vergilər kəndçilərin ciddi maddi cəhətlərindən dolayı alınmasın və yaxud alınacaqsa, təcil edilsin [təxirə salınsın]. Kəndçilər Kür çayı daşmasından böyük xəsarətə düçar olmuşlardır.

- Məhəllində [yerində] qaçqınların əhvalını təhqiq üçün Şəki qəzasına göndərilmiş Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müvəkkilinin məlumatına görə, oradakı darüleytamın [yetimxananın] əhvalı o qədər də gözəl deyildir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti nahiyə müfəttişinə müraciətən, təcili surətdə darüleytamı qaydaya salmağı tapşırmışdır.

- Şəki nahiyə müfəttişi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, 6 minə baliğ [yaxın] fəhlələr üçün ucuz çörək vermək lazım gəlmişdir. Nəzarət Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətən rica etmişdir ki, Şəkidə ərzaq anbarı müfəttişlik ixtiyarına verilsin.

- Saqiyan icması özlərinin fəna əhvalını təsvir edər bir ərzi-hal ilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən müavinət istəmişdir. Ərzi-hal Şamaxı nahiyə müfəttişinə göndərilərək, məhəllində [yerində] icmanın əhvalını təhqiqlə müavinətdə bulunması tapşırılmışdır.

## ALDANMAYINIZ!

Bu il Bakımızın üstündə bir çox illərdə görükməyən bir dəyişiklik, bir sərinlik var.

İyun – həziran havası deyəsən mart havasıdır: günorta çağı hava öylə isti olur ki, axşam bulvar gəzintisinə çıxanlar palo almaqlarını yadlarına belə salmayırlar. Lakin axşam saat 9-10 oldumu, mənim kimi zəiflər nəmli küləyə tab gətirməyib qaçırlar, bulvarın ən ruhlu, səfalı, aylı, işıqlı, xoş çağından zövq duyammayırlar. İyun havasına aldanırlar.

Bu il təbii havanın da siyasət havası kimi ikiüzlü, oynaq olduğunu düşünəmmirlər. Aman, iyunun istisinə aldanmayınız! Aldanmayınız ki, bu il uğursuz ildir.

Havası düruyə [ikiüzlü] havadır.

Aman, aldanmayınız!

* * *

Dörd-beş gün qabaq Denikinin Bakıdakı vəkili and içirdi, hökuməti qandırırdı ki: vallah, billah Denikin sizin istiqlaliyyətinizi təsdiq (?) etdi və əsla sizinlə bir düşmənliyi yox və bəlkə sizə ixlas [səmimiyyət] və ehtiramı var.

Lakin ertəsi günü hava dəyişdi. Şimal küləyi Bakının itsisini birdən-birə çevirdi. Hava həm qarardı, həm soyudu.

Denikin vəkilinin hökumətə rəsmi yazdığı dünənki yalançı kağızının qarası qurumadan ikiüzlülüyünün üstü açıldı. Ertəsi gün özgə hava çaldığı duyuldu.

Denikin Şollar suyumuzu qurutmaq, Qızılburunu tutmaq, o biri tərəfdən Zaqatalaya keçmək arzu və iştahını bildirdi.

Lakin biz də boş oturmadıq, özümüzü bildirdik. Məclisi-Məbusanda qiyamətlər qopardıq, atəşlər yağdırdıq, meydanlarda mitinqlər qurduq, protestlər etdik. Son adamımıza qədər davaya hazır olduğumuzu anlatdıq.

Çox çəkmədi, hətta saat keçmədi, hava yenə dəyişdi:

Bakının üstünə çökən qaraltılar, soyuqluqlar birdən-birə dağıldı: hava işvəbaz, ruhnəvaz bir nazəninin üzü kimi güldü, açıldı. İngilis generalının əmri çıxdı:

Denikinin Azərbaycana gəlmək deyil, Dağıstandan çəkiləcəyi xəbəri verildi.

Fəqət Denikinin Dağıstandan nəinki getmək (1907 [-ci ildə] Tiflisdə "Molla Nəsrəddin"də Sultan Həmidi masxaraya aldığından ötrü Ömər Faiq əfəndini qalada həbs etdirən Kazanalipov, keçən il İstanbulda paşalara yaltaqlıq edib nişan alan general [Mikayıl] Xəlilov və pul ilə Allaha bir dərəcədə səcdə edən Şeyx Nəcməddinin və yoldaşlarının köməklikləriIə) orada gün-gündən möhkəmləşdiyi anlaşıldı.

Şimaldan əsən qorxunc, qarışıq, güclü küləklər gözləri yumduran bizim xəzriyə rəhmət oxudur.

Ey azərbaycanlı! Aldanma, yatma ki, bu havalar xeyir əlaməti deyil!

Əvvəlisi günü heç gəlməyəcək, dünən mütləq gələcək, bu gün ehtimal qayıdacaq, yarın bəlkə gəlməz... havaları, Denikin xəbərləri yaxşı bilirsiniz ki, biz balaları yatırmaq nənnisidir. Biliniz, yaxşı biliniz ki: Denikin bacararsa gələcək, həm mütləq gələcək!

Qapınızı açıq buraxarsanız, o murdar çaqqallar şəksiz evimizə soxulacaq. Aman, şirin dillərə, bugünkü havanın durğunluğuna, axmaq fikirlərə, boş ehtimallara aldanmayınız!

Denikin kölgəsi Dağıstanda durduqca da evimizdə bir dəqiqə salamat yatmamalıyız! Yatmamalıyız ki, birdən qopacaq fırtınalar, axacaq qanlı sellər, ortalığı saracaq vaveylalar keçən Mart hadisəsini, Şamaxı xarabasını heçdə qoyacaq! Aman, bugünkü havaya aldanmayınız!

* * *

Məgər, görülən vəq'ələr, tarixi hadisələr təkrərürdən [təkrardan] özgə bir şey deyilmiş!

Məgər, qorxuncluqlarıyla bizi çaşdıran hallar, fəlakətlər "qanuni-ilahi və ictimai"nin müxtəlif şəkillərdə göstərdiyi eyni səhifədən özgə bir zad deyilmiş!

Uzaq tarixlərdən misal axtarmayalım: Peterburqda rasputinlər nə idisə, İstanbulda şeyx hüdalar da odur. Hətta yoldaşım Mirzə Cəlilin "Ölülər" əsərindəki şeyx də bunların xəyali qardaşıdır.

On il qabaq İstanbulda 31 Mart hadisəsini meydana çıxarıb bihudə qardaş qanı axıdan, "şəriət istəriz" deyən ikiüzlü alçaqlar, şeyx fəzlullahlar, dərviş lahutilər nə idiysələr, bu gün "Denikinlə şəriəti istəriz" deyən dağıstanlılar da, şeyx nəcməddinlər, kazanalipovlar, general xəlilovlar da odurlar.

Ah! Pul, ehtiras, mənfəət, şöhrət, adət, tərbiyə, zəiflik, bəsirətsizlik, imansızlıq, ölümdən, fəqirlikdən qorxmaqlıq! Sən, həp sən, sən! Bu alçaqlıqları, bu dəniləri [alçaqları], bu "xəyanət azarı" mikroblarını yaradan!

Ey bu yazıları oxuyan yoldaş! Bilirəm, ürəyində bir zad var, məndən bir xəbər duymaq istəyirsən! Duymaq istəyirsən ki: əcəba, "tif bitləri"ndən daha zərərli olan "xəyanət mikroblar[ı]" bizdə də, Azərbaycanımızda da törəyirmi?

Ah, yoldaş! Mən səni bu qədər cahil, safdil görmək istəməzdim! Sən gərək biləsən ki: Allah, qanun, amil birdir: Osmanlıda, İranda, Dağıstanda törəyən həşərat şəksiz bizdə də törəyəcək.

Ehtimal ki, bu saat az-maz törəmiş, ətrafa daraşmaya, onu-bunu dişləyib zəhərləməyə də başlamışlardır.

Əvət, yoldaş! Əvət! Öylə xəbər alınır ki, Sultan Həmidin İstanbuldakı, general Xəlilovun Dağıstandakı, Nikolayın Peterburqdakı "şəriət istəriz" həriflərinin tayları bizdə də törəmiş.

Dedim ya, qanun bir: o murdar fikirlər bizdə də ittihad [birlik] vücuda gətirmiş.

İştə, bunlar, bu dinsizlər, bu "şəriət istəriz" deyən imansızlar, hər dürlü insaniyyət, insaf, ədalət, ağıl və məntiqdən kənar, şəriətdən, islamiyyətdən bixəbər bu dolandırıcılar guya islamiyyət hamisi, millət xadimi kəsilmişlər.

Cümhuriyyətimizin böylə təhlükəli bir vaxtında, şimaldan, cənubdan, hər tərəfdən düşmənlərlə sarıldığımız bir anda hökumətin başına dürlü-dürlü bəlalar, intriqalar açıb aranı qarışdırmaq, millətin fikrini düşməndən çevirmək istəyirlər. Sadədil [sadəlövh] camaatımızın hissiyyati-milliyyələrini [milli hisslərini] böylə bir zamanda qəsdən uçurumlara, qaranlıqlara, çıxmaz yollara tərəf sürüyürlər.

Ey təmiz bir ürəkdən axan ağ fikirləri dinləyən yoldaş! Bunlara, bu qara fikirlərə təəccüb etmə! Təəccüb etmə ki, illərdən bəri öz mənfəəti, öz rahəti düşüncəsiylə çırpınmış, qərarmış, qatılaşmış qəlblərdən ancaq qara, murdar fikirlər törər.

Yoldaş! Heç təəccüb etmə: əvamili-ictimaiyyə [ictimai amillər], yəni zaman və təbiət öz yapacağını yapır. Sən istəsən də, istəməsən də bu olacaq. Əlləri mənsəbdən, puldan, mənfəətdən, hörmətdən çıxmış olanlar itirdiklərini tapmağa çalışacaqlardır. Camaatı hansı yollarla daha tez aldatmaq olar, məqsədə hansı hiyləkarlıqlarla çatılarsa, ona sarılacaqlardır.

Onlar üçün: yaxşıyaman, ağ-qara, təmiz-murdar, sədaqət-xəyanət... hamısı, hamısı birdir.

Ey mənə qulaq asan yoldaş! Bunları, uzun danışdıqca baxıb bir zad hesab etmə! Bunlar insan yuxuladığı vaxt fikrə çökən kabus və qara xəyalat kimidir.

Qorxma, qorxma ki, sən və millətin ayıq olduqca bunlar bir şey bacara bilməzlər. Ey azərbaycanlı, ey yoldaş! Bağışla ki, təkrar edirəm:

Sən ayıq olduqca nə Denikin çaqqalları, nə daşnak ilanları, nə "şəriət istəriz" şeytanları, nə "xəyanət azarı" mikrobları sənə bir zərər verə bilməzlər.

Sən özünü bilib, bala olmadığını göstərib, başını böyük ruh, sarsılmaz imanla yuxarı qaldırıb deyirsən ki:

"Ey qorxaq çaqqallar! Yaddan çıxarmayınız ki, biz sizə əsrlərcə ağalıq etmiş igidlərin nəvələriyiz. Lakin biz bu gün özgə yerlərin deyil, öz yurdumuzun ağası olmaq istəyiriz. Çəkil! Qarşımızdan çəkil ki, özünü qanan, yurdunu saxlamağa and içən millətin intiqamı şiddətlidir.

Siz! Ey "şəriət istəriz" deyən iblislər! Siz dünənə qədər daşkovların çəkmələrini öpüb dini, milləti bir qəpiyə satan, müsəlmanların, Osmanlıların qətllərinə fitvalar verən, şpiyonluq edən, illərcə ruslara, Denikin yoldaşlarına köməklər edən siz, siz deyimlisiniz? Siz deyimlisiniz ki, ömrünüzü rus istibdadına xidmətlə keçirmişsiniz! Utanın, utanın! Üzünüzdəki niqab, dilinizdəki hünərlə kimsəni daha aldada bilməzsiniz!"

Bu gün beş-on cahili aldadsanız da, yarın onlar da Rasputin, Şeyx Hüda, Şeyx Fəzlullah, Kazanalipov, purişkeviçlərin düşdükləri aqibət və cəzaya düşdüyünüzü görüb peşiman olacaqlardır.

Ha, bax, yoldaş! Şimdi sənin qanacağını, cürətini bilib mən də daha artıq cürətlənirəm və gələcəkdə səninlə daha açıq, daha həvəsli söhbətlər eylərəm. Ancaq yenə təkrar edirəm ki, mömin görünən şeytanlara aldanmayınız!

*Ümidvar*

## QARABAĞDA

**(Rəsmi)**

Qarabağ general-qubernatoru [Xosrov bəy] Sultanov böylə teleqraf göndərmişdir:

*"Hal-hazırda mənim təhti-idarəmdə [tabeliyimdə] olan general-qubernatorluq dairəsində Zəngəzurdan başqa hər yerdə sakitlikdir. Şuşa-Yevlax yolu açılıb, qorxusuzdur. Yevlax-Şuşa yolunun qorxulu olduğu barəsində buraxılan müfəttinanə [fitnəkar] və yalan şayiələrə xahiş edirəm inanmayasınız. Məmurlara əmr olunmuşdur ki, sərnişinlərə hər cür müavinətdə bulunsunlar.*

*General-qubernator: Sultanov"*

**Şuşadan**

Bir neçə nəfər məsuliyyətsiz və laqeyd daşnakların məfsədələri [fitnələri] nəticəsi olaraq Şuşa və ətrafında başlanmış qital [qırğın] və qarətlərə Qarabağ qubernatoru Sultanov cənabları tərəfindən ittixaz edilmiş [görülmüş] ciddi və qəti tədbirlər sayəsində bir xitam çəkilmişdir. Daşnakların "idraklı" və "durbin" [uzaqgörən] politikalarının nəticəsi bu oldu ki, bir neçə min aclar və çılpaqlar artıb, onsuz da möhtac və pərakəndə düşmüş erməni füqərayi-kasibəsinin əziyyətini artırdılar. Bu axırkı hadisələr nəticəsi olaraq Yevlax-Şuşa yolu bağlanmış kimi idi. Yol kənarındakı erməni kəndlərindən gəlib-gedənləri güllələbaran edirdilər və buna görə də Ağdamda, Xankənddə üç-dörd yüzə kimi yol ilə gedib-gələnlər saxlanılmışdı. Amma indi tamam yol ilə qaraqollar düzəlib, polis nəfəratının [nəfərlərinin] miqdarı artırılıb, yol genə qabaqkı kimi asudəliklə açılmışdır.

Üç gün bundan qabaq Daşaltı və bir də bir neçə başqa erməni kəndlərindən ağsaqqallar və vəkillər gəlib general-qubernator cənablarından artıq rizamәndliklər [razılıqlar] etdilər. Məlum oldu ki, Şuşada dava başlanan kimi Daşaltı kəndinin erməniləri qaçıb gedibmişlər. Kənd bütün müxəlləfat [ev əşyası] və malqarası ilə qarovulsuz, sahibsiz qalıbmış. Bu xəbər general-qubernatora çatan kimi polis nəfəratından qarovul təyin edilib, Daşaltı kəndi salamatlıqla saxlanılıb, dübarə öz sahiblərinə qaytarılıbdır. Ağsaqqallar kənd əhalisinin imzası ilə qubernatora priqavor [qərar] təqdim edib özlərinin Azərbaycan hökumətinə tabe olmaqlarını məlum etmişlərdir. Sonradan xahiş ediblər ki, qubernator tərəfindən xüsusi məmur gəlib onların kəndlərində lazım olan starşina və sair məmurları intixab etsinlər [seçsinlər]. Ağsaqqallar bunu da deyirdilər ki, bu günə kimi ancaq bir neçə nəfər məlum adamlar onları naməlum bir "komitə"nin qorxusu altında saxlayıb cəbrən mane olurdular ki, qubernatorun yanına gəlməsinlər. Komitənin gözə görünməyən qüvvəsi və nüfuzu barəsində bunlara həmişə vədələr verib, hərdənbir Şuşada iclaslar çağırıb, özlərinin qətnamələrini zorla bizə qəbul etdirib, sonra ümuma bizim adımızdan elan edirdilər. Və hər kəs də ki bunların dediklərinə əməl etməyirdi, fövri [dərhal] küçədə güllələtdirirdilər.

Nümunə üçün ağsaqqallar Xankəndi yüzbaşısı Movsesin bazar içində güllələnməsini göstərdilər. Məlum olur ki, Movses bir sülhpərəst, insaflı yüzbaşı imiş. Bunların tutduğu məslək və yolun ermənilər üçün xətalı bir yol olduğunu bilib qoymayırmış ki, bunların nüfuzu Xankəndi ermənilərinə sirayət etsin və bunun üçün də qətl edilibdir.

Bu qarışıqdan da bir neçə gün qabaq erməni hissəsində çörəyin girvənkəsi üç manata çıxmışdı. Yollar bağlı olduğuna görə, erməni hissəsində çörək bilmərrə yox olmuşdu. Dava qurtaran kimi ermənilər və baxüsus ruslar dəstələrlə müsəlman hissəsinə gəlib özlərinə azuqə alırdılar. Hamıdan artıq erməni hissəsindəki qaçqınların halı möhlik [ölümcül] idi. Onların aclıqlarını bilən kimi, general-qubernatorun təklifi ilə Ərzaq Nəzarətinin Qarabağ vəkili Axundov 100 pud buğda unu alıb qaçqınlara verdi. Və həmçinin sair erməni cəmiyyətlərinə də özləri üçün un almağa izin verildi.

Şuşa yolu ilə köçərilərin yolu genə təzədən açılmışdır. Lakin Cavanşir və Cəbrayıl uyezdlərində [qəzalarında] köçərilərin yolu hələ bağlıdır. Erməni kəndləri köçəriləri buraxmayırlar.

Burası hamıya məlumdur ki, köçərilər gərək öz yolları ilə dağlara və yaylaqlara getsinlər. Onları yaylaqlardan saxlamaq diri-diri qəbirə basdırmaq kimidir. Buna görə də, hərgah erməni kəndləri genə inad edib köçərilərə mümaniət [maneçilik] göstərmək istəsələr, şübhəsiz ki, oralarda da bir toqquşma olasıdır. Buna görə də, general-qubernator cənabları lazımi olan sərəncamda bulunub ki, bəlkə toqquşmasız köçəriləri öz yaylaqlarına keçirtsinlər.

Şuşa uyezdində bəzi vicdansız və məxluqun [xalqın] rahatlığını, insancasına yaşamaqlarını istəməyənlər rədd edilib buralar asudəliyə çıxıbsa da, lakin Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdlərində hələ onlar çalışmaqdadırlar. Lakin burasını onlar bilməlidirlər ki, "çaqqal ulaya-ulaya öz başına qal gətirər" məsəli məfadınca [mənasına uyğun olaraq], onlar ancaq öz başlarına qal gətirəcəklər. Amma əsil vaqeədə isə, Qarabağda ermənilərlə müsəlmanlar yaşayıblar və yaşayırlar və bundan sonra da yaşamağa məcburdurlar. Onların müfəttinlikləri [fitnəkarlıqları], hoqqabazlıqları ancaq özlərinə və öz ətraflarına ziyan yetirəcəkdir.

*Məhəmməd Sadıq [Aran]*

## BAKI XƏBƏRLƏRİ

**Kəndçilər İttifaqında**

- Bu yavuq zamanda kəndçilər qurultayı (syezdi) çağırılmaq münasibətilə Kəndçilər İttifaqının sədri Hacıağa Abbasovun səyi ilə kəndlərdə təşkilat yapmaq üçün bir heyət düzəlib, məzkur [deyilən] heyətə hökumət tərəfindən bir avtomobil dəxi vəd edilmişdir. Heyətin sədri Hacıağa Abbasov həman heyətə qoşulub kəndlərdə təşkilatlar yapmağa səy edəcəkdir ki, camaatın halını bilən adamlar seçkiyə düşsünlər.

- Bu günlərdə İttifaqın sədri Abbasov Azərbaycan hökuməti tərəfindən yapılmış Müstəntiqlər Komitəsinə dəvət edilib, ondan xahiş olunmuşdur ki, Bakıda və ətraf kəndlərdə mart ayından sentyabr ayına kimi keçən ildə zərərdidə olan müsəlmanların siyahısını, yaxılan və soyulan əşyaların miqdarını yazıb heyətə bildirsin. Bu işdən ötrü Abbasov cənabları türk və rus dillərində məsləhətnamələr çap etdirib kəndlərin nümayəndələrinə paylayıb, bu tezliklə ümum siyahıları hökumətə təqdim edəcəkdir.

- Hökumət məmurlarından bəzilərindən olunan şikayətləri hökumət idarələrindən xahiş edib əmələ gətirməkdən ötrü Kəndçilər İttifaqında bir Məhkəmə Komisyonu təşkil olunub, müsəlman vəkillərindən oraya dəxi dəvət olunmuşdur.

- Bu günlərdə İttifaqın idarəsi Vəzirlər Şurasına [Nazirlər Kabinetinə] bir ərizə yazıb, istiqraz [borc] açılmasını xahiş etmişdir.

- Ümuri-Xeyriyyə Nəzarətinə Kəndçilər İttifaqı məktub yazıb, füqəralara paylanan malların təqsim olunmasını [bölünməsini] İttifaq öz öhdəsinə götürəcəyini bildirmişdir.

- Maarif Nəzarətindən İttifaq yazıb bağbançılıq məktəbləri açmağı xahiş etmişdir.

- İyun ayının 17-də İttifaqın sədri Hacıağa Abbasov və idarənin üzvü Nəsir Əlikərimov Ticarət və Sənaət [Sənaye] naziri həzrətləri tərəfindən qəbul olunub, İttifaq barəsində bir çox müzakiratda bulunmuşdur. Abbasov və [Əli]kərimov cənabları İttifaqa bu vaxta kimi bir arşın olsun ağ buraxılmamağını və papiros, tütün buraxılmasını nazirdən xahiş ediblər. Nazir [Ağa] Əminov həzrətləri İttifaqın nə dərəcədə millətimizə faydabəxş olduğunu söylədikdən sonra, bu iki məsələnin həllini tezliklə sərəncam etməsini bəyan etmişdir.

**Hadisat**

- Balaxanı-Sabunçu qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, 7-ci uçastok pristavı müavini Seyfulla Haşımov Kürdəxanı kəndinə getdikdə, yolda üç nəfər müsəlləh [silahlı] çobanlara rast olub tərki-silah etmək istəmişsə də, onlar müqabilə göstərmişlərdir. Haşımov Kürdəxanıya gedib orada olan üç nəfər qaradovoyu özü ilə bərabər götürüb çobanlarla atışmağa başlamışdır. Bir qədər atışmadan sonra patronları qurtarıb geri çəkilmişlərdir. Atışmada Haşımov qətl edilmişdir. Onun atı Zabrat kəndinə yetişdikdə, onun əmisi Mirzə Haşımov tüfəngini götürüb getmişdir. Uzaqdan çobanlar onu tanıdıqda atəş açaraq öldürmüş və atını aparmışlardır. Təhqiqatdan məlum olduğuna görə, çobanlar Məşqətə [Maştağa] kəndinin əhlləri Miryusif Mirməhəmməd oğlu, Mirhüseyn Seyid Süleyman oğlu və Mirzə Mirhüseyn oğludur. Qatilləri tövqif etməkdən [tutmaqdan] ötrü ciddi tədbirlər edilmişdir.

- Şüvəlan kəndi əhli Mirəbdülvahab Hacı Mirbaba oğlu polisəyə məlum etmişdir ki, naməlum şəxslər onun evindən 20 min manatlıq müxəlləfat [əşya] oğurlamışdır.


**İtibdir**

Salman Abbasovun verdiyi 89 nömrəli qəbzi, raspiska Cəfər M. Saleh oğlu Rəcəbovdan, raspiska L. Joxvitskidən və iki raspiska Məhəmmədhaşım Babayevə 400 və 200 türk qızıl lirəsinə K. A. Orlovun adına verilmiş, itibdir. Etibardan saqitdir [etibardan düşmüşdür].

*10249*

**İtibdir**

Məhəmməd Məşhədi Həbib oğlunun Ordubaddan aldığı pasportu itibdir. Etibardan saqitdir.

**İtibdir**

Əli Hacı Sultanməhəmməd oğlunun Ordubaddan aldığı pasportu itibdir. Etibardan saqitdir.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

Moskvada təcrübə görmüş diş həkimi **K.S.Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi [yolu] ilə xarici məmləkətlərdə satmağı **İ.V.Denisovun** bankir kantorası qəbul edir. (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75.) Sifarişlər saat 5-dən 7-dək qəbul olunur.

*10228*

**Apteka və kosmetiçeski malları N.Liberzon və M.Şvarimanın** skladı külli miqdarda satır. Tiflis, Puşkinski küçə nömrə 21. Apteka və kosmetiçeski xarici məmləkət fabrikası malları alınıbdır.

*10233*

**Rus çayı**

Külli miqdarda İ. V. Denisovun bankir kantorasının skladında satılır. (Olqinski və Nikolayevski küçələrin küncündə; telefon nömrə 37-75).

*10245*

**Təzə alınmış**

Amerikanın südü satılır külli miqdarda **İ.V.Denisovun** bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*


***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***"Azərbaycan"***

"20 iyun 1919-cu il, nömrə 208": qəzetdə "nömrə 208" yerinə səhvən "nömrə 209" getmişdir.

***Qismi-rəsmi***

"əhya və Həzrəti-Əmir əleyhis-səlamın şəhadəti günü": Müsəlmanların inanışına görə, Ramazan ayının 19, 21 və 23-cü gecələri əhya gecələridir. "Həzrəti Əmir" deyərkən dördüncü xəlifə Həzrəti Əli nəzərdə tutulur; Həzrəti Əli hicri təqvimlə 40-cı ilin 21 ramazan (başqa bir rəvayətə görə 19 ramazan) günü (miladi təqvimlə 26 yaxud 28 yanvar 661-ci il) şəhid olmuşdur.

"Əmrnamə 52": qəzetdə "Əmr-namə 25" getmişdir.

"posta təşrifat və cariyyatını": qəzetdə "təşrifat" yerinə səhvən "təşrihat" getmişdir.

***Teleqraf xəbərləri***

"doktor Dorten": qəzetdə bu ad təhrif edilmişdir.

"Petit": 1863-1944-cü illərdə Parisdə nəşr edilən gündəlik qəzet olan "Pati jurnal" [Le Petit Journal] nəzərdə tutulur.

***Sülh ətrafında***

"və gərək sair dövlətlər tərəfindən imza edilmişdi": qəzetdə "edilmişdi" yerinə "ediləydi" getmişdir.

"Vaxt am Reyn": XIX əsrin ortalarında yazılmış alman vətənpərvərlik mahnısı olan "Die vaxt am Reyn" [Die Wacht am Reyn; "Reyn üzərində keşikçi"] nəzərdə tutulur.

"Döyçland über alles" [Deutschland über alles; "Almaniya hər şeydən üstündür"]: Bəstəkar Frans Yozef Haydnın 1797-ci ildə bəstələdiyi musiqiyə Avqust Henrix Hofmanın 1841-ci ildə yazdığı sözlərlə meydana gələn marş. 1922-ci ildə Veymar Respublikasının dövlət himni elan edilmişdir. 1945-ci ildən sonra bir müddət bu marşın ifası qadağan edilmişdir. Almaniyanın birləşməsindən sonra marşın üçüncü bəndi dövlət himni kimi təsdiqlənmişdir.

***Qəzetələrdən***

"drednot": güclü artilleriya silahına malik zirehli gəmi.

"müxrib": yüksək manevra qabiliyyətinə malik zirehli hərbi gəmi.

"Barrett": qəzetdə təhrif edilmişdir.

"Hindistanın vis-kralı əmirə müraciətlər": 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olan Frederik Tezicer və 1919-1926-cı illərdə Əfqanıstan əmiri olan Əmanulla xan nəzərdə tutulur.

***Aldanmayınız!***

"Peterburqda rasputinlər nə idisə, İstanbulda Şeyx Hüdalar da odur.": Rusiya imperatoru II Nikolayın ailə dostu olmaqla şöhrət qazanmış Sibir kəndlisi Qriqori Rasputin və Osmanlı sultanları tərəfindən böyük mənsəblər və nişanlarla mükafatlandırılmış Rufai şeyxi Əbülhüda Səyyadi nəzərdə tutulur.

"31 Mart hadisəsi": Osmanlı imperiyasında hakimiyyətə qarşı üsyan və çevriliş cəhdi. 13 aprel 1909-cu ildə (rumi təqvimlə 31 mart 1325-ci ildə) baş tutmuşdur. Üsyan nəticəsində II Əbdülhəmid taxtdan salınmışdır.

"şeyx fəzlullahlar, dərviş lahutilər": İranda Məşrutiyyətə qarşı çıxan ruhani Fəzlullah Nuri və Osmanlı imperiyasında 31 Mart hadisəsinin iştirakçısı olmaqda təqsirləndirilərək edam edilən ruhani və qəzetçi, "Lahuti" ləqəbi ilə tanınan Dərviş Vəhdəti nəzərdə tutulur.

"Ümidvar": bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

***Bakı xəbərləri***

"Müstəntiqlər Komitəsi": 1918-ci ilin mart-sentyabr aylarında Bakıda və ətrafında əhaliyə vurulan ziyanı təhqiq etmək üçün Azərbaycan Hökuməti tərəfindən yaradılan Komitə.

"Nəsir Əlikərimov": qəzetdə "Nasir Əlikərimov" getmişdir.



# Mədəniyyət



● Ədəbi simalar

**Azərbaycan ədəbiyyatında elə əbədiyaşar isimlər var ki, onlar yalnız yaşadıqları dövrü ədəbi fakt kimi deyil, həm də mənəvi hadisə kimi dəyərləndirirlər. Bu adlar dövrün ideoloji çərçivəsindən, zamanın sınaqlarından çıxaraq, xalqın yaddaşında əbədi məskən salaraq ölməzlik statusu qazanıb əbədi yaşayırlar.**

# Əli Vəliyev - hər zamanın yazıçısı



Xalq yazıçısı Əli Vəliyev məhz bu taleyi yaşamış, qələmi ilə dövrünün ağrılarını, ziddiyyətlərini, insan talelərini vicdanla ifadə etmiş sənətkarlardandır. O, nə pafoslu şüarların, nə də süni ideoloji qəlblərin yazıçısı idi. Əli Vəliyev üçün əsas ölçü insan, əsas meyar isə ədalət idi. O, yazıçı taleyini kabinet rahatlığında yox, həyatın özündə, xalqın arasında, zəhmətin, mübarizənin, bəzən də təhlükənin içində yaşamışdı. Onun qələmi süni pafosdan uzaq, səmimi, həyatın özündən doğan bir qələm idi. Əli Vəliyev yaşamaq üçün yazmırdı, yaşadığı üçün yazırdı.

1901-ci il fevralın 27-də Azərbaycanın qədim Zəngəzur qəzasının Ağdü kəndində dünyaya göz açan ədibin uşaqlıq və gənclik illəri yoxsulluq, zəhmət və həyatın sərt sınaqları içində keçmişdi. Kənd mühitində formalaşan bu xarakter onun sonrakı yaradıcılığında torpaqla, zəhmətlə, kənd adamının taleyi ilə sıx bağlılıq yaratmışdı. Təhsil almaq, savad qazanmaq o dövrdə hər kəs üçün əlçatan deyildi. Əli Vəliyev bu çətin yolu əzmlə keçməyi bacarmışdı. O özünü tapana kimi müxtəlif məktəblərdə oxudu, sonra Azərbaycan Dövlət Darülfünununda təhsil aldı. Yalnız diplom üçün oxumadı. Onu maraqlandıran əsas məsələ insanı, cəmiyyəti, zamanın ruhunu anlamaq idi. Elə buna görə də gənc yaşlarından jurnalistikaya üz tutdu. "Şərq qapısı", "Kommunist" qəzetləri, "Azərbaycan" jurnalı kimi nüfuzlu mətbuat orqanlarında çalışması ədibin dünyagörüşünü daha da genişləndirdi. Keçdiyi mətbuat məktəbi Əli Vəliyevi yalnız peşəkar qələm sahibi yox, ictimai məsuliyyət daşıyan ziyalı kimi formalaşdırdı.

Əli Vəliyev ədəbiyyata gələndə zaman heç də sakit deyildi. Cəmiyyət dəyişirdi, ideologiyalar toqquşurdu, insan taleləri böyük mexanizmin mişar kimi dişliləri arasında əzilir, bəzən də sınırdı. Belə bir dövrdə söz demək cəsarət tələb edirdi. Əli Vəliyev bu cəsarəti göstərən yazıçılardandır. Onun ilk hekayələrindən başlayaraq, oxucu hiss edirdi ki, bu qələm sahibinin sözü süni deyil. "Nənəmin cəhrəsi", "Qarlı dağlar", "Qəhrəman", "Ordenli çoban" kimi əsərlər sadə insanların taleyinə işıq salırdı. Bu əsərlərdə qəhrəmanlıq tribunadan səslənən şüarlarla yox, zəhmət, sədaqət və insan ləyaqəti ilə ölçülürdü.

1941-ci ildə başlayan müharibə Əli Vəliyevin həyatında və yaradıcılığında ayrıca bir mərhələdir. Əli Vəliyev könüllü olaraq cəbhəyə yollanır, müharibəni kabinetdən "izləmir", səngərdə döyüşçü həyatı yaşayanlardan olur. Təbii ki, bu fakt onun yaradıcılığına təsir etməyə bilməzdi. Elə bu səbəbdən də müharibə mövzusunda yazdığı hekayə və publisistik yazılarda pafosdan çox insan ağrısını, ana həsrətini, yarımçıq qalan ömürləri inandırıcı və real şəkildə, özü də böyük peşəkarlıqla ön plana çıxarmağı bacardı. Əli Vəliyev üçün müharibə yalnız döyüş meydanı deyildi - hər gün minlərlə insanı ağuşuna alan yarımçıq qalan talelərin, insanlığın sınağı idi.

1950-1970-ci illər Əli Vəliyev yaradıcılığının ən yetkin və məhsuldar dövrü hesab olunur. Həmin illər qələmə aldığı "Çiçəkli", "Gülşən", "Turaclıya gedən yol", "Budağın xatirələri" kimi əsərlər onun sənətkarlıq zirvəsini təsdiq edən yaradıcılıq nümunələridir. Bu əsərlər ideoloji dövrün çərçivəsində yazılsa da, orada əsas xətt ideologiya yox, insan vicdanıdır. Əli Vəliyev insanı sistemin əlavəsi kimi yox, müstəqil mənəvi varlıq kimi təqdim edirdi. "Gülşən" əsərinin motivləri əsasında Soltan Hacıbəylinin eyniadlı baleti bəstələməsi və bu baletin Bakı və Daşkənd səhnələrində tamaşaya qoyulması Əli Vəliyev yaradıcılığının sənət sərhədlərini aşdığını sübut edir. Həmçinin onun yaradıcılığının yalnız ədəbi yox, ümummədəni dəyərə malik olduğunu göstərir.

Bu günün prizmasından baxanda 1937-ci il düzgün və tam qiymətləndirmək olduqca çətindir. Ümumilikdə 30-cu illər insan talelərinin sanki görünməz bir "ət maşını"ndan keçirildiyi, "xalq düşməni" adlı damğanın plan üzrə paylandığı, qorxunun dövlət siyasətinə çevrildiyi bir zaman idi. "Xalq düşməni planı"nı yerinə yetirmək üçün sosializm yarışının getdiyi bu amansız sistemdə bəzən bir cümlədə, bəzən bir yazıda yol verilmiş kiçik bir hərf səhvi belə insanın taleyinə hökm kəsilirdi. Ziyalı, söz sahibi olmaq təhlükəli peşəyə çevrilmişdi. Qələm, düşüncə və vicdan bir anda ittiham aktına sübut kimi təqdim olunurdu. Məhz belə bir dövrdə susmaq çoxları üçün xilas yolu, yaşamaq strategiyası idi. Lakin Əli Vəliyev bu "təhlükəsiz sükut"u seçənlərdən olmadı. O, rəhbər mövqedə mətbuat və ədəbi mühitə təsir imkanına malik olduğu illərdə qələm yoldaşlarını qorumağı bacaran ziyalılardan biri kimi tarixə düşdü. Hər kəsin ehtiyatla addımladığı, hər sözün ölçülüb-biçildiyi, riskin həyatla ölçüldüyü bir zamanda kiminsə müdafiəsinə qalxmaq adi cəsarət deyil, taleyini təhlükəyə atmaq demək idi. Əli Vəliyev bu riski üzərinə götürdü. O, sistemin dişliləri arasında insanı itirməməyə çalışan, qorxu üzərində qurulmuş mexanizmə vicdanla müqavimət göstərən bir ziyalı mövqeyi nümayiş etdirdi. Zamanın ən sərt, qorxulu illərində belə, vicdanını kresloya qurban vermədi.

Əli Vəliyev yazıçı olmaqla yanaşı, möhkəm xarakterli bir insan idi. Ədibi tanıyanlar yaxşı bilirdi ki, o, haqsızlıq qarşısında susanlardan deyildi. Səməd Vurğun kimi böyük bir şairin təqib edildiyi dövrdə onun müdafiəsinə qalxmaq böyük risk idi. Əli Vəliyev bu riski gözə aldı. Çünki onun üçün insan taleyi, sənət namusu və ədalət hər şeydən üstün idi. Bu cəsarət onun yazılarında olduğu kimi, həyat mövqeyində də özünü göstərirdi.

Dövlət Əli Vəliyevin əməyini yüksək qiymətləndirdi. O, Xalq yazıçısı fəxri adına layiq görüldü, müxtəlif orden və mükafatlarla təltif olundu. Lakin Əli Vəliyev üçün bunlar əsas məqsəd deyildi. Onun ən böyük mükafatı oxucunun etimadı, xalqın sevgisi idi. Çünki o, sadə oxucu ilə eyni dildə danışan yazıçı idi. Onun əsərlərini oxuyan insan qəhrəmanın, obrazın taleyini kənardan izləmirdi - öz həyatını oxuyurdu.

Əli Vəliyevin şəxsiyyəti ilə yaradıcılığı arasında ziddiyyət yox idi. O, yazdığı kimi yaşayan, yaşadığı kimi yazan yazıçı idi. Onun məşhur "Ən böyük biclik düzlükdür" - fikri əslində yazıçının həyat fəlsəfəsi idi. Bu fikir həm yazıçının sənət prinsipini, həm də insani mövqeyini ifadə edirdi. O, dövrə uyğunlaşmaq üçün əyilmədi, zamanla razılaşmaq üçün susmadı, vicdanını qorumağı bacardı.

1983-cü ildə Əli Vəliyev bu dünyadan köçdü. Amma onun gedişi son olmadı. Çünki belə insanlar fiziki olaraq getsələr də, sözləri ilə tarixə iz salırlar. Onun əsərləri bu gün də oxunur, təhlil olunur, gənc nəsillərə örnək göstərilir. Çünki Əli Vəliyev təkcə keçmişin yazıçısı deyil, hər zamanın yazıçısıdır. İnsan ləyaqəti, ədalət, zəhmət, vicdan kimi anlayışlar köhnəlmir.

Bu gün Əli Vəliyev yaradıcılığına qayıtmaq təkcə ədəbi maraq deyil, mənəvi ehtiyacdır. Onun əsərləri bizə bir daha xatırladır ki, söz məsuliyyətdir. Yazıçı olmaq təkcə yazmaq deyil, mövqe ortaya qoymaqdır. Əli Vəliyev bu prinsipi ömrünün sonuna qədər qorudu.

Zaman dəyişir, ideologiyalar gəlir-gedir, amma xalqın sevdiyi yazıçılar qalır. Çünki onlar xalqın dilində danışır, onun dərdini yazır, vicdanını oyadır. Əli Vəliyev məhz belə yazıçılardandır. O, Azərbaycan ədəbiyyatında sözlə insanlıq arasında körpü salan nadir qələm sahiblərindən biri kimi yaşayır və yaşayacaq.

Əli Vəliyev yazıçı taleyini şərəflə yaşadı. Çünki o, nə zamana satıldı, nə də insanlığı unutdu. Belə yazıçılar üçün ölüm son deyil. Onlar xalqın yaddaşında, kitabların səhifələrində, vicdanlı sözün ünvanında yaşayırlar.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Sənət dünyası

# Aktyor, rejissor, ssenarist

**O, Azərbaycan teatr və kino sənətinin inkişafında mühüm rol oynamış, yaradıcılığı ilə milli mədəniyyət tariximizdə dərin iz qoymuş görkəmli sənətkarlardandır. Həbib İsmayılovun ömür yolu zəhmət, axtarış, öyrənmək həvəsi və sənətə sonsuz məhəbbətlə yoğrulub. Onun teatr səhnəsindən başlayan yaradıcılıq yolu sonralar kinoda davam edib. Həm rejissor, həm də aktyor kimi fəaliyyət göstərərək Azərbaycan incəsənətinə böyük töhfələr verib.**



Həbib İsmayılov 1906-cı il fevralın 21-də Naxçıvan şəhərində dünyaya gəlib. Ailəsi bir müddət Nehrəm kəndində yaşayıb. Nehrəmdə kənd təsərrüfatı ilə məşğul olan valideynləri Naxçıvana köçdükdən sonra dəmirçilik ediblər. 1910-cu ildə isə maddi çətinliklər səbəbindən Tiflisə köçüblər.

Həbib İsmayılov orta təhsilini Tiflisdə alıb. Bir müddət sonra "Yeni fikir" qəzetində korrektor köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. Eyni zamanda Tiflisdəki Azərbaycan teatrının səhnəsində uşaq rollarında çıxış edərək sənətdə ilk addımlarını atıb.

O, teatra, səhnəyə erkən yaşlarından könül verib. Xəyallarını reallaşdırmaq üçün sənət yolunda inamla, qətiyyətlə irəliləyib. Peşəkar yaradıcılığı ilə Azərbaycan mədəniyyətinə dəyərli töhfələr bəxş etmiş görkəmli sənətkarların sırasında yer tutmaq üçün yorulmadan, ruhdan düşmədən çalışıb.

Sonralar Həbib İsmayılov ailəsi ilə Bakıya köçüb. 1924-1927-ci illərdə fəhlə fakültəsində təhsil alan Həbib səhnədən ayrılmayıb. Eyni vaxtda həm də dram dərnəyində aktyor kimi çıxış etməklə yanaşı, bir sıra tamaşalara quruluş verib. Gənc yaşlarından sənətə bağlılığını ən böyük istəyinə, məqsədinə çevirib.



Teatr sənətinə vurğunluğunu öyrənmək istəyi və zəhmətsevərliyi ilə cilalayıb. Gördüyü işlər, maraqlı səhnə quruluşları tezliklə diqqəti cəlb edib. Elə bu səbəbdən 1927-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən Moskvaya Mərkəzi Teatr Sənəti Texnikumuna (sonradan Dövlət Teatr Sənəti İnstitutu) oxumağa göndərilib. Moskvanın yaradıcı mühiti Həbib İsmayılova dərindən təsir göstərib. Sonsuz maraq, tükənməz arzularla Mərkəzi Teatr Sənəti Texnikumunun həm Aktyorluq, həm də Rejissorluq fakültələrində oxuyub. Böyük teatr rejissoru, SSRİ Xalq artisti Konstantin Stanislavskinin məşqlərində iştirak edib. 1931-ci ildə təhsilini başa vurub. Bakıya qayıdaraq Türk İşçi Teatrında bədii rəhbər kimi fəaliyyət göstərib.

Görkəmli səhnə ustaları - Abbas Mirzə Şərifzadə, Kazım Ziya, Ağahüseyn Cavadov, Əli Zeynalov, İsmayıl Əfəndiyev, Ağasadıq Gəraybəyli və başqa aktyorlarla birlikdə çalışması da Həbib İsmayılovun teatr fəaliyyətinə müsbət təsir göstərib, daha böyük əzmlə sənət yolunu davam etdirib.

Həbib İsmayılov teatrda bədii rəhbər vəzifəsində çalışdığı zaman rejissor kimi tamaşalar da hazırlayıb. Gənc rejissorun quruluş verdiyi "Gizli əl", "Küləklər şəhəri", "Kölgə", "Yaşar", "Ölülər", "Od gəlini" və başqa tamaşalar sənətsevərlər tərəfindən maraqla qarşılanıb.

1933-cü ildə Türk İşçi Teatrı Gəncəyə köçürülüb. Həbib İsmayılov kollektivlə birlikdə həmin şəhərə gedib. O, yeni məkanda da böyük sənət eşqi ilə çalışıb. Yeni repertuarlar üzərində işləyib. Həbib İsmayılovun rejissorluğu ilə hazırlanan, Barat Şəkinskaya, Muxtar Avşarov, Məmmədrza Şeyxzamanov və başqa aktyorların iştirak etdiyi tamaşalar böyük uğur qazanıb.

Həbib İsmayılov quruluş verdiyi tamaşalarda həm də aktyor kimi çıxış edib. O, "Yaşar" tamaşasında Toğrul, "Namus"da Barxudar, "1905-ci ildə" tamaşasında general-qubernator və başqa rolları ilə istedadlı aktyor olduğunu dönə-dönə nümayiş etdirib. 1938-ci ildə Musiqili Komediya Teatrına baş rejissor təyin edilən H.İsmayılov həmin teatrda "Aşıq Qərib", "Əlli yaşında cavan", "Lənkəran xanının vəziri" və başqa tamaşalara quruluş verib.

İkinci Dünya müharibəsinin başlanması xəbəri insanlara böyük narahatlıq, təşviş gətirib. Yeni-yeni yaradıcılıq uğurlarına imza atan Həbib İsmayılov da ordu sıralarına çağırılıb. O, hərbiləşdirilmiş caz orkestrinə rəhbərlik edib, daha sonra 402-ci Azərbaycan atıcı diviziyasının klub rəisi olub. Həbib İsmayılov 1942-cü ildə Mahaçqalaya göndərilib. 1943-cü ilin əvvəlində isə Dağıstan Dövlət Teatrının direktoru vəzifəsinə təyin olunub. Həmin teatrın səhnəsində bir sıra tamaşalara, o cümlədən "Arşın mal alan" operettasına quruluş verib.

Elə həmin ildən onun yaradıcılığında yeni mərhələ - kino dövrü başlayıb. Həbib İsmayılov 1943-cü ildən Bakı kinostudiyasında fəaliyyət göstərib. Əvvəlcə kinoxronika şöbəsində baş redaktor, sonra isə şöbə rəisi olub. Eyni zamanda respublikamızın həyatının əks olunduğu süjetlər, "Cəfər Cabbarlı", "Sovet İttifaqının himni", "Torpaq və onun münbitliyi", "Naxçıvan MSSR-in 25 illiyi", "Dağıstan MSSR-in 25 illiyi" və digər sənədli, elmi-kütləvi filmlərə ekran ömrü verib.

1947-ci ildə kinostudiya rəhbərliyinin sərəncamı ilə kinoxronika şöbəsində bədii filmlərin Azərbaycan dilinə dublyajı üzrə rejissor vəzifəsinə təyin olunması onun peşəkarlığına və zəhmətinə verilən dəyər olub.

1950-ci ildə təcrübəsini artırmaq üçün Moskvaya - "Mosfilm" kinostudiyasına ezam edilib. Moskvada həmin il Dövlət Teatr Sənəti İnstitutunun qiyabi şöbəsinin aspiranturasına daxil olub. "SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Mirzağa Əliyevin yarıməsrlik səhnə fəaliyyəti" mövzusunda elmi iş üzərində çalışıb.

Quruluş verdiyi "Ögey ana" (1958), "Böyük dayaq" (1962) və başqa ekran əsərləri nümayiş olunduğu vaxtdan bu günədək tamaşaçıların sevə-sevə baxdıqları filmlərdəndir. Yeri gəlmişkən, qeyd edək ki, Həbib İsmayılov "Ögey ana" filminin ssenarisini Anna Yanla birlikdə yazıb. Film 1959-cu ilin mayında Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə nümayiş etdirilib.

Həbib İsmayılov həm də "Dağıstan MSSR-in 25 illiyi", "Cəfər Cabbarlı", "Naxçıvan MSSR-in 25 illiyi", "Sovet İttifaqının himni", "Torpaq və onun münbitliyi" və başqa elmi-kütləvi və sənədli filmlər çəkib. Rejissor "Azərbaycan pambıqçılığında aqrotexnikanın tətbiqi" filminə görə 1955-ci ildə Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin gümüş medalı ilə təltif olunub.

1960-cı ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülən görkəmli teatr və kino rejissoru Həbib İsmayılov 1966-cı il dekabrın 31-də 60 yaşında vəfat edib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yaddaş

# Multikultural ruhu özündə yaşadan Molokan Mərkəzi

**Bakıda yerli tarixi abidələr sırasında qədim memarlıq abidəsi kimi tanınan binalardan biri də paytaxtın Süleyman Rüstəm küçəsində 10 saylı ünvanda yerləşən xalqımızın multikultural dəyərlərini özündə ehtiva edən Molokan Mərkəzidir. Bu mərkəzi ziyarət edən turistləri, şəhərimizə qonaq gələn hər kəsi, elə buradan təsadüfi yolu düşənləri qeyri-adi görünüşə malik bu binanın nə vaxt və nə məqsədlə tikildiyi maraqlandırır.**



Xatırladaq ki, molokanlar pravoslav kilsəsinin əleyhinə çıxdıqlarına görə imperator I Nikolayın hakimiyyətinin əvvəllərindən, daha dəqiq desək, 1820-ci ildən başlayaraq, Rusiya ərazisindən Cənubi Qafqaza, Krıma, 1870-ci illərdə isə Sibirə, Zakaspi və Qars vilayətlərinə köçürülüblər. Bakıda, eləcə də ölkəmizin digər bölgələrində məskunlaşan, buranı özlərinin doğma vətəni kimi qəbul edən molokanların maraqlı, özlərinə məxsus həyat tərzləri olub.

Azərbaycanda molokanlar, əsasən kəndlərdə ayrıca icmalar şəklində məskunlaşmışlar. Bakıda məskunlaşan, sayılıb-seçilən molokanəsilli Skobelevin təşəbbüsü ilə onlar özlərinə mərkəz yaratmaq üçün sözügedən binanın tikintisini təklif etmişlər. Bina 1913-cü ildə molokanların ibadət evi və ya malakanların mərkəzi kimi inşa olunmuşdur. Məqsəd bütün molokanları bir məkanda toplamaqdan ibarət idi. Beləliklə, Bakıda, habelə Bakıətrafı kənd və qəsəbələrdə yaşayan bütün molokanlar icmalarının həyatında fəal iştirak etməyə başlayırlar. Onlar mərkəzdə keçirilən yığıncaqlara toplaşır, dini bayramları istədikləri kimi cəmiyyətlə birlikdə qeyd edirlər. Molokan Mərkəzi həm də cəmiyyətin dua evi kimi də tanınır.

Sovetlər dövründə din qadağan olunduqdan sonra binanın fəaliyyət istiqaməti dəyişdirilir. Molokan Mərkəzi Radio Yayım binası kimi istifadə olunmağa başlayır. II Dünya müharibəsi illərində Radio Yayım Mərkəzindən xəbərlər yayımlanır. Aylar bir-birini əvəzlədikcə artıq buradan dini yox, cəmiyyətin sosial-siyasi məsələlərinin sədası gəlir. Sonralar tele-radio qülləsi istifadəyə verildikdən sonra bina boşaldılır, ən nəhayət, gənclər tərəfindən kinoklub kimi istifadə olunur.

Molokanların mərkəzi kimi tanınan bu bina 3 mərtəbəli mansardla inşa olunmuşdur. 1-ci mərtəbə təsərrüfat işləri, 2-ci mərtəbə ibadət üçün ayrılmışdır. "T" formalı memarlıq-plan quruluşlu, bir-birinə perpendikulyar böyük məkan tutumlu ərazilərdən biri ibadət və bayramların keçirilməsi, digər hissə isə inzibati otaqlar üçün nəzərdə tutulmuşdur. 12 pəncərəli zal sadə memarlıq kompozisiyasına malikdir.

Xatırladaq ki, molokanların mərkəzi kimi tanınan bina özəl mülkiyyətdədir. Uzun illər əldən-ələ keçmiş, müxtəlif məqsəd üçün istifadə olunmuş bu binanın taleyi axır ki, uğurlu sonluqla nəticələnmişdir. Tarixi mədəni abidələrin qorunub mühafizə olunmasına xüsusi diqqət göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyeva məsələni nəzarətə götürmüş və Mədəniyyət Nazirliyinin bu işə cəlb olunmasına göstəriş vermişdir. Nazirlər Kabineti "Salam Cinema Baku" kinoteatrının yerləşdiyi bu binanın dövlət tərəfindən qorunan tarixi abidələr siyahısına salınmasına rəy verilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutuna müraciət etmişdir. Müraciətə müsbət rəy alındıqdan sonra "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2001-ci il 2 avqust qərarında dəyişikliklər edilməklə, 1913-cü ildə inşa olunmuş tarixi bina özünün memarlıq-konstruktiv xüsusiyyətləri, ətraf tikililər üzərində dominantlığı nəzərə alınmaqla "yeni aşkar olunmuş abidələr" kimi dövlət qeydiyyatına götürülmüşdür.

Azərbaycanın hansı bölgəsində yaşamasından asılı olmayaraq, indinin özündə də molokanlar öz adət-ənənələrini, dillərini və dini baxışlarını qoruyub saxlamaqla yanaşı, həmin ərazidə yaşayan yerli azərbaycanlılarla qarşılıqlı ünsiyyət qurmuşlar. Azərbaycanda məşhur olan İsmayıllı və Gədəbəy rayonlarının İvanovka kəndlərində vaxtilə Rusiyanın ucqarlarından köçürülmüş molokanların nəslinin davamçıları yaşayırlar. Hazırda molokanlar Sumqayıt, Şamaxı, Quba və digər yerlərdə, xüsusən də Bakıda çoxluq təşkil edirlər. Onlar çox məmnundurlar və böyük qürur duyurlar ki, tarixi memarlıq abidəsi kimi Molokan Mərkəzi, nəhayət ki, əbədiyaşarlıq qazanmışdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# "Arzunun ardınca"

**Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) təşkilatçılığı ilə rejissor Arzu Urşanın "Arzunun ardınca" sənədli filmi nümayiş olunub.**

AKİ-dən AZƏRTAC-a bildirilib ki, film Yer kürəsinin ən hündür zirvəsi Everesti fəth edən ilk azərbaycanlı alpinist qadın Elmira Aslanovaya həsr olunub.

Rejissor qəhrəmanın hekayəsini həssaslıqla, sadə, təsirli dillə anladır və ekranda uşaqlıqdan alpinizmə sevgisi olan gənc bir qadının səmimi, əzmkar obrazı görünür. Müəllif filmdə eyni zamanda səyahət zamanı, ekstremal situasiyalarda çəkilmiş kadrlardan da istifadə edib.

Tədbirdə Arzu Urşan "Arzunun ardınca" filminin yaranmasından, festivallarda qazandığı uğurlardan danışıb.



Filmin qəhrəmanı Elmira Aslanova Everesti fəth etməsində ailəsinin, xüsusən qardaşlarının dəstəyini vurğulayıb və bu səyahət zamanı keçirdiyi hisslər haqda söz açıb.

# MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

## MƏSLƏHƏTÇİNİN İXTİSASINA ƏSASLANAN SEÇİM (MİƏS)

**Layihənin Adı:** Yaşanılabilən Bakı (hazırlıq mərhələsi)
**Qrant Nömrəsi:** TF-C8884
**Tapşırığın Adı:** Abşeron göllərinin (Zığ, Xocasən və Böyükşor) dayanıqlı təmizlənməsi və ərazi bərpası üçün Ətraf mühit və Sosial çərçivə (ƏMSÇ) alətlərinin hazırlanmasına dəstək üzrə məsləhət xidmətləri
**Satınalma Planının İstinad Nömrəsi:** AZ-MOEC-CS-CQS-03
**Ölkə:** Azərbaycan

1. Azərbaycan Respublikası Dünya Bankından "Yaşanılabilən Bakı" layihəsinin hazırlıq mərhələsi üçün qrant (TF-C8884) əldə etmişdir və qrant vəsaitinin bir hissəsini aşağıdakı məsləhət xidmətləri üçün yönəltməyi planlaşdırır.
2. Məsləhət xidmətləri ("Xidmətlər") Abşeron göllərinin (Zığ, Xocasən və Böyükşor) dayanıqlı təmizlənməsi və ərazi bərpası üçün Ətraf mühit və Sosial çərçivə (ƏMSÇ) alətlərinin hazırlanmasına dəstək üzrə xidmətlərini əhatə edir.

Məsləhətçi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (İcraçı Qurum) Texniki-İqtisadi Əsaslandırma (TİƏ) sənədinə əsaslanaraq Abşeron göllərinin təmizlənməsi və ərazinin bərpası üzrə Ətraf mühit və Sosial risklərin idarə edilməsi (ƏMSRİE) sənəd paketinin hazırlanmasında kömək göstərəcək.

Tapşırığın ümumi müddəti müqavilənin imzalanma tarixindən etibarən 6 aydır. Tapşırığın icrasına 2026-cı ilin aprel ayında başlanılması nəzərdə tutulur. Tapşırığın ehtimal olunan ümumi dəyəri 300,000 ABŞ dollarıdır. Təhvil veriləcək işlərin siyahısı və gözlənilən müvafiq icra müddətləri aşağıdakı keçiddə yerləşdirilən Texniki Tapşırıqda (TT) göstərilmişdir:

**https://www.dropbox.com/scl/fi/0t818yf5o5tqoatin8tz3/ToR_Absheron_Lakes_ESF_Tools_13.02.2026.docx?rlkey=yh934alh3dyqcoeg40eezjmrw&st=56pabtf2&dl=0**

3. İcraçı Qurum hazırda uyğun ixtisaslı məsləhətçi şirkətləri (Məsləhətçilər) qeyd olunan Xidmətlərin icra edilməsi üçün maraqlarını bildirməyə dəvət edir. Maraqlanan Məsləhətçilər Xidmətləri yerinə yetirmək üçün tələb olunan müvafiq ixtisas və təcrübəyə malik olduqlarını göstərən məlumatları təqdim etməlidirlər.

4. Xidmətləri icra etmək üçün ən uyğun şirkət Dünya Bankının qaydalarında göstərilən Məsləhətçinin ixtisasına əsaslanan seçim (MİƏS) üsuluna uyğun olaraq seçiləcək və aşağıdakı meyarlar üzrə qiymətləndiriləcəkdir:

(I) Ümumi Təcrübə: a) Maraqların ifadəsinin son tarixinə qədər şirkətin əsas fəaliyyət istiqaməti kimi məsləhət xidmətləri sahəsində ən azı 10 illik ümumi iş təcrübəsi və Beynəlxalq Maliyyə İnstitutları (BMİ) tərəfindən maliyyələşdirilən layihələrdə təcrübə (Dünya Bankı tərəfindən maliyyələşdirilən layihələrdə təcrübəyə üstünlük verilir).

(II) Xüsusi Təcrübə:

- Göllərin bərpası, şəhər su hövzələri və ya çirklənmiş sahələrin təmizlənməsi layihələri daxil olmaqla ətraf mühitin bərpası və su ilə əlaqəli mürəkkəb layihələr üçün Ətraf Mühitə və Sosial Təsirlərə dair Qiymətləndirmələrin (ƏMSTQ) aparılması sahəsində peşəkar və uğurlu təcrübə, Beynəlxalq Maliyyə İnstitutları tərəfindən maliyyələşdirilən layihələrdə iş təcrübəsinə üstünlük verilir;
- Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivə (ƏMSÇ) sənədinin tətbiqi üzrə təcrübə;
- Ətraf mühitin bərpası texnologiyaları, hidroloji sistemlər və şəhərlərdə ətraf mühitin bərpası sahəsində güclü texniki biliklər;
- Müxtəlif maraqlı tərəflərlə səmərəli əməkdaşlıq qurmaq, konsensus formalaşdırmaq və əməkdaşlığı təşviq etmək bacarığı.

(III) Oxşar regionlarda təcrübə və heyət səfərbərliyi bacarığı:

Azərbaycan və ya Cənubi Qafqaz regionunda və ya oxşar iqlim şəraitinə malik bölgələrdə təcrübənin olması, həmçinin yerli ətraf mühit və sosial tənzimləyici çərçivələrə dair anlayışın mövcudluğu üstünlük hesab olunur. Texniki tapşırıqda müəyyən edilmiş vəzifələrin icrası üçün tələb olunan ixtisaslı mütəxəssislərin səfərbər edilməsi bacarığı.

Qısa siyahıyaalma mərhələsində əsas mütəxəssislər fərdi olaraq qiymətləndirilməyəcək, lakin növbəti mərhələdə seçilmiş Məsləhətçinin ixtisasının qiymətləndirilməsinə tapşırıqla bağlı müvafiq əsas mütəxəssislərin ixtisasları, təcrübələri və mövcudluğu da daxil ediləcəkdir. Məsləhətçi komandasına həm beynəlxalq, həm də yerli mütəxəssislərin daxil ediləcəyi gözlənilir.

5. Yuxarıda qeyd olunan seçim meyarlarına uyğun olduğunu nümayiş etdirmək üçün Məsləhətçilər ən azı aşağıdakı sənədləri təqdim etməlidirlər. Məsləhətçi şirkət yalnız özünün ixtisas və təcrübəsinə dair məlumatları təqdim edə bilər; belə ki, şirkət öz idarəedici (parent company), eyni idarəedici şirkətə aid (sister company) və ya törəmə şirkətlərinin və ya öz əməkdaşlarının təcrübəsini öz təcrübəsi kimi göstərə bilməz.

(I) Şirkətin müvafiq dövlət orqanı tərəfindən verilmiş qeydiyyat/təsis sənədləri.
(II) Şirkətin əsas fəaliyyət sahələrini əks etdirən broşürlər.
(III) Bu Maraq ifadəsi üçün dəvətə əlavə olunmuş 1№-li formanı (formaya keçid linki: **https://www.dropbox.com/scl/fi/hulzprh5xzvtzsl0goehf/Form-1-Similar-Contracts.docx?rlkey=qvhme2yl126m609f5wilwi5w0&st=wvya8boj&dl=0** tamamlayaraq oxşar layihə/müqavilələr barədə məlumatların təqdim edilməsi. Tamamlanmış müqavilələr üzrə sifarişçi rəylərinin (referans məktublarının) surətlərini hazırkı mərhələdə təqdim etmək tələb olunmur. Lakin növbəti mərhələdə təkliflərin təqdim edilməsi zamanı, Sifarişçi seçilmiş məsləhətçidən həmin rəylərin surətlərini təqdim etməyi tələb edə bilər.
(IV) Tapşırıqla bağlı mövcud mütəxəssislərin siyahısı və onların ixtisası və müvafiq təcrübəsi haqqında qısa məlumat.

6. Məsləhətçilər, ixtisas və bacarıqlarını artırmaq məqsədilə assosiasiya yarada bilərlər. Belə assosiasiyalar birgə müəssisə (BM) formasında (bu halda BM üzvləri birgə və ayrılıqda məsuliyyət daşıyırlar) və ya sub-məsləhətçi formasında ola bilər (bu halda baş məsləhətçi sub-məsləhətçinin xidmətlərinə görə də məsuliyyət daşıyır). Assosiasiya formasında olarsa, məsləhətçilər təklif olunan assosiasiyanın tərkibini əsaslandırmaq üçün maraq ifadəsində (a) assosiasiyanı formalaşdırmaqda məqsədlərini və (b) birgə müəssisənin hər bir üzvünün və/və ya hər bir sub-məsləhətçinin tapşırığın icrasında nəzərdə tutulmuş rolunu və müvafiq ixtisasını izah etməlidirlər.

Qeyd: Yuxarıda 4-cü bənddə qeyd edilən xüsusi təcrübə tələbinə uyğunluğun qiymətləndirilməsi zamanı sub-məsləhətçilərin təcrübəsi nəzərə alınmayacaq.

7. Xidmətlərin göstərilməsində marağı olan məsləhətçilər Dünya Bankının 2025-ci il fevral tarixli "İnvestisiya Layihələrinin Maliyyələşdirilməsi (İLM) üzrə Borcalanlar üçün Dünya Bankının Satınalma Qaydaları" sənədinin 3.14, 3.16 və 3.17-ci bəndlərində Dünya Bankının maraqların toqquşması siyasətinə diqqət yetirməlidirlər.

8. Maraq ifadələri yazılı formada, imzalanmış sənəd şəklində aşağıda göstərilən elektron poçt ünvanına **27 fevral 2026-cı il** tarixinədək təqdim olunmalıdır.

Əlavə məlumatı aşağıdakı elektron poçt ünvanından əldə etmək olar:

**Əlaqələndirici şəxs:** Nicat Hüseynov - Layihə koordinatoru, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Layihə İcra Qrupu

**Ünvan:** Heydər Əliyev prospekti, 155, AZ1029, Bakı, Azərbaycan
**Tel:** +994 12 310 28 00 (daxili: 2227)
**E-mail: nhuseynov@economy.gov.az**

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

## CONSULTANT'S QUALIFICATIONS BASED SELECTION (CQS)

**Name of Project:** Livable Baku (Preparation Stage)
**Grant Number:** TF-C8884
**Assignment Title:** Consultancy Services for the Preparation Support of the Environmental and Social Framework (ESF) Tools for Absheron Lakes (Zygh, Khojasan, and Boyukshor) Sustainable Cleanup and Area Rehabilitation
**Procurement Plan Ref Number:** AZ-MOEC-CS-CQS-03
**Country of Delivery:** Azerbaijan

1. The Republic of Azerbaijan has received financing from the World Bank toward the cost of the Preparation Stage of the Livable Baku Project (TF-C8884) and intends to apply part of the proceeds for the following consulting services.

2. The consulting services ("the Services") include Preparation Support of the Environmental and Social Framework (ESF) Tools for Absheron Lakes (Zygh, Khojasan, and Boyukshor) Sustainable Cleanup and Area Rehabilitation.

The Consultant will assist the Ministry of Economy of the Republic of Azerbaijan (Implementing Agency) with the development of Environmental and Social Risk Management (ESRM) document package for the cleanup of Absheron Lakes and the rehabilitation of the area based on the Feasibility Study.

The overall duration of the assignment is 6 months from the contract signature date. The assignment is expected to start in April 2026. The estimated total cost of the assignment is USD 300,000. The list of deliverables and the corresponding expected timelines are detailed in the Terms of Reference (ToR) for the assignment, which can be accessed through the following link:

**https://www.dropbox.com/scl/fi/0t818yf5o5tqoatin8tz3/ToR_Absheron_Lakes_ESF_Tools_13.02.2026.docx?rlkey=yh934alh3dyqcoeg40eezjmrw&st=56pabtf2&dl=0**

3. Implementing Agency now invites eligible consulting firms ("Consultants") to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

4. The best qualified firm to carry out the services will be selected in accordance with the Consultant's Qualifications-based Selection (CQS) method set out in the Regulations of the World Bank and evaluated on the basis of the following criteria:

(I) General Experience: At least 10 years of experience in consultancy business and experience with International Financial Institutions (prior engagement with the World Bank will be an advantage).

(II) Specific Experience:

- Expertise and successful track record in conducting ESIAs for complex environmental remediation and water-related projects including for lake remediation, urban water bodies, or contaminated site clean-up projects, preferably funded by international financial institutions.
- Experience in the application of the World Bank's ESF.
- Strong technical knowledge of environmental remediation technologies, hydrological systems, and urban ecological restoration.
- Ability to engage meaningfully with a variety of stakeholders, build consensus, and generate cooperation.

(III) Regional Experience and Staff Mobilization Capacity:

Experience in Azerbaijan or the South Caucasus or in the region with similar climatic conditions and understanding of local environmental and social regulatory frameworks is an advantage. Capability of mobilization of the qualified experts required for the assignment under the ToR.

While key experts will not be individually evaluated at the shortlisting stage, in the next stage, the evaluation of the selected Consultant's qualifications will include the qualification, experience and availability of key experts specified in the TOR. It is expected that the Consultant's team will include both international and local experts.

5. To demonstrate their qualifications and experience in meeting the above selection criteria, Consultants are requested to submit, as a minimum, the supporting documentation listed below. A consultant firm can only use its own qualifications and experience and not of its parent, sister or subsidiary companies or its employees.

(I) The firm's incorporation/registration documents issued by the concerned government authority of the country of the firm.
(II) The firm's company brochures describing the core areas of business.
(III) Completed Form-1 (link to the form: **https://www.dropbox.com/scl/fi/hulzprh5xzvtzsl0goehf/Form-1-Similar-Contracts.docx?rlkey=qvhme2yl126m609f5wilwi5w0&st=wvya8boj&dl=0)** to provide information of similar contracts. Copies of completion certificates/references of clients of completed contracts are not required to be submitted with the EOI. In the subsequent stage at the time of submission of proposals, the Client may request the selected consultant to submit such supporting completion certificates.
(IV) A list of available qualified experts relevant to the assignment, accompanied by brief information on their qualifications and relevant experience.

6. If consultants choose to associate to enhance their qualifications and capability for the assignment, then such associations may either be as a Joint Venture (i.e. all members of the joint venture shall be jointly and severally responsible) and/or Sub-consultants (i.e. the Consultant will be responsible, including for the services of the sub-consultant). In case of an association, the Consultants must explain in the EOI submission (a) the rationale for forming the association and (b) the anticipated role and relevant qualifications of each member of the Joint Venture and/or of each sub-consultant for carrying out the assignment, to justify the proposed inclusion of the JV members and/or sub-consultants in the association.

Note: For assessing compliance with the specific experience requirement under Item 4 above, the experience of sub-consultants will not be considered.

7. The attention of interested Consultants is drawn to paragraphs 3.14, 3.16 and 3.17 of the World Bank Procurement Regulations for IPF Borrowers, dated February 2025 (the Regulations), setting forth the World Bank's policy on conflict of interest.

8. Expressions of Interest must be submitted in a written form as a signed document to the e-mail address provided below, no later than **February 27, 2026.**

Further information can be obtained at the e-mail address indicated below.

**Attn:** Mr. Nijat Huseynov, Project Coordinator, Project Implementation Unit of the Ministry of Economy of the Republic of Azerbaijan

**Address:** 155 Heydar Aliyev Avenue, AZ1029, Baku, Azerbaijan
**Tel:** +994 12 310 28 00 (extension: 2227)
**E-mail: nhuseynov@economy.gov.az**

## Veneranın gizli tunelləri



Alimlər Veneranın dərin qatlarında vulkan püskürmələri nəticəsində formalaşmış gizli tunellər aşkar ediblər. İtaliyanın Trento Universitetinin tədqiqatçıları NASA-nın "Magellan" missiyası zamanı əldə olunmuş radar məlumatlarını qabaqcıl texnologiyalar vasitəsilə yenidən təhlil ediblər.

Araşdırmalar nəticəsində nəhəng "Nyx Mons" vulkanının yamacları boyunca uzanan yeraltı boşluqlar müəyyən olunub. Bu tapıntı Veneranın geoloji baxımdan "ölü planet" olması ilə bağlı köhnə nəzəriyyələri şübhə altına alır.

Mütəxəssislərin sözlərinə görə, "EnVision" kimi gələcək kosmik missiyalar səthin yüzlərlə metr dərinliyinə nüfuz edə bilən radar sistemləri vasitəsilə bu tunellərin uzunluğunu və daxili quruluşunu daha dəqiq müəyyənləşdirəcək. Alimlər hesab edirlər ki, həmin yeraltı dəhlizlər gələcəkdə Veneraya göndəriləcək robot aparatları üçün təbii sığınacaq rolunu oynaya və onları planetin həddindən artıq yüksək temperaturundan qoruya bilər.




## Qədim xristian kompleksi



İtaliyanın Ostia bölgəsində arxeoloqlar təxminən 1700 il əvvələ aid monumental kilsə kompleksi və yepiskop sarayı aşkar ediblər. Eramızın 330-cu illərinə aid edilən tikili erkən xristian memarlığının mühüm nümunəsi sayılır.

Kompleksdə mərmər panellərlə və mozaika döşəmələrlə bəzədilmiş, "aula" adlanan geniş zal müəyyən edilib. Ostiyadakı digər binalar da dekorativ elementlərlə bəzədilib, lakin onların heç biri miqyas və dəbdəbə baxımından bu salonla müqayisə edilə bilməz. Mütəxəssislər bu tikilinin erkən xristian liderlərinin siyasi və dini nüfuzunun memarlıq vasitəsilə ifadəsi olduğunu bildirirlər.

## Yerin nüvəsində hidrogen ehtiyatı var




Yer kürəsi ilk baxışdan hidrogenlə zəngin görünməsə də, bu element həm suyun tərkibində, həm də planetin dərin qatlarında mövcuddur. Tədqiqatlara əsasən, Yerin nüvəsində dəmirlə bağlı böyük miqdarda hidrogen ola bilər. Bu miqdar okeanlardakı hidrogenin həcmi ilə müqayisədə 9-45 dəfə çox qiymətləndirilir.

Pekin Universitetinin geofiziki Donqyanq Huanqın rəhbərlik etdiyi tədqiqat qrupu laboratoriya şəraitində nüvə mühitini təqlid edərək hidratlı silikat şüşəsini 111 giqapaskal təzyiq və 5100 Kelvin temperaturda sınaqdan keçirib. Təcrübələr göstərib ki, yüksək temperatur şəraitində dəmir, silisium, oksigen və hidrogen bir-biri ilə qarşılıqlı təsirə girir.

Alimlərin hesablamalarına görə, Yerin nüvəsində hidrogenin payı 0,07-0,36 faiz təşkil edir. Bu kəşf Yerin formalaşması, maqnit sahəsinin yaranması və suyun mənşəyi ilə bağlı nəzəriyyələrin dəqiqləşdirilməsinə mühüm töhfə verir. Tədqiqatçılar suyun böyük hissəsinin planetin erkən formalaşma mərhələsində yarandığı qənaətindədirlər.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

***"Leyla" firmasına (direktor: İfrahim Rubik oğlu İsayev) məxsus möhür itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini polis general-leytenantı Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri 21 saylı Nəsimi-Binəqədi Seçki Dairəsi dairə seçki komissiyasının sədri Çingiz Dadaşov və kollektivi Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımova babası

**VƏLİ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3204
Sifariş 206

Qiyməti 60 qəpik